İxtisas : Xarici dil müəllimliyi Təhsildə sosial psixoloji xidmət
Kafedra : Psixologiya pedaqogika və sosial fənlər
Fənn : Pedaqogika 1
Müəllim : Kazımova Şəfa
Mühazirə

Mövzu 1. PEDAQOGİKA ELMİNİN PREDMETİ. ANLAYIŞLARI VƏ ELMİ-TƏDQİQAT METODLARI

1. Pedaqogika elminin predmeti
2. Pedaqogikanın əsas anlayış, kateqoriyaları və vəzifələri
3. Pedaqoji elmlər sistemi. Pedaqogikanın başqa elmlərlə əlaqəsi
4. Pedaqoji tədqiqatın metodologiyası və metodları

Pedaqogika ən qədim elmlərdəndir. Elmlər sırasında onun özünəməxsus yeri vardır. Pedaqogika yunan sözüdür. O, payda və qoqos sözlərinin birləşməsindən meydana gəlmişdir. Mənası uşaq ötürəndir. Qədim Yunanıstanda varlıların uşaqlarına baxan, onları məktəbə müşayiət edən şəxsə paydaqoqos demişlər. Zaman ötdükcə həmin sözün mənası dəyişmiş, o, uşaqların tərbiyəsi ilə bağlı sözə, fikrə çevrilmiş və sonralar bir elm kimi təşəkkül tapıb inkişaf etmişdir.

Bəşər cəmiyyətinin yaşaması və inkişafı üçün ən mühüm zəruri amillərdən biri də yeni nəsil tərbiyə etməkdir. Bu, qazanılmış mənəvi, sosial-tarixi təcrübənin, bilik və bacarıqların yeni nəslə verilməsi yolu ilə həyata keçirilir. İnsan cəmiyyətinin yarandığı ilk mərhələlərdə tərbiyə nəsihətlər, öyüdlər, nümunələr şəklində böyüyən nəslə verilmişdi. Məsələn: «iki dinlə, bir söylə», «arı söyüdü sevər, ağıllı-öyüdü», «nə əkərsən, onu biçərsən» və s. Zaman keçdikcə ictimai həyatın zənginləşməsi, dəyişməsi əldə edilmiş təcrübəni ümumiləşdirmək, biliklər zəminində formalaşdırmaq zərurəti doğurmuşdu. Bu biliklər pedaqoji istiqamət almışdı. Pedaqoji biliklərin sistemə salınması, ümumiləşdirilməsi pedaqoji nəzəriyyənin, pedaqogika elminin yaranmasına və inkişaf etməsinə gətirib çıxarmışdı. Pedaqogika insan və onun tərbiyəsi haqqında elm adlandırılmışdı.

Pedaqogikanın bir elm kimi formalaşmasında çex pedaqoqu Yan Amos Komenskinin böyük xidməti olmuşdurBaşqa elmlər kimi, pedaqogika elminin də obyekti və predmeti vardır. Pedaqogika elminin obyekti insandır. Psixologiya insan psixikası ilə bağlı prosesləri, hadisələri, sosiologiya insanın davranışının ümumi qanunauyğunluqlarını, etika insanlar arasında qarşılıqlı əxlaqi münasibətlərin tənzim edilməsini, anatomiya insanın bədən quruluşunu, onun funksiyalarını, estetika insanların gözəlliyə münasibətini, onların hissi qabiliyyətini və s. öyrənir. Pedaqogika isə insanın, ana bətnindən başlamış dünyaya gəldiyi, böyüyüb boya-başa çatdığı müddət ərzində tərbiyəsi istiqamətini, onun məzmun və mahiyyətini öyrənir.

Bütün bu qeyd olunanlara əsaslanaraq pedaqogikaya verilən tərifl ərə nəzər salaq:

- Pedaqogika böyüyən nəslin tərbiyəsindən bəhs edən elmdir;
- Pedaqogika uşaqların təlim-tərbiyə məsələlərindən bəhs edən elmdir;
- Pedaqogika – uşaqların tərbiyə, təhsil və təliminin məqsədi, məzmunu, qanunauyğunluqları və səmərəli yollarından bəhs edən elmə deyilir;
- Təsirin məqsədə yönəlmiş xüsusi və mütəşəkkil sistemi vasitəsilə böyüməkdə olan nəslin və yaşlı adamların tərbiyəsindən bəhs edən elmə pedaqogika deyilir və s.

Cəmiyyətin müxtəlif inkişaf mərhələlərində tərbiyənin nə kimi rol oynadığını öyrəndikdən sonra onun əlamətlərini aydınlaşdırmaq olar.

Tərbiyə ictimai hadisədir. Ona görə ki, o, insan həyatına məxsusdur.

Tərbiyə ümumi hadisədir. Belə ki, tərbiyənin yaranması və təkmilləşməsi ilə tək-tək adamlar deyil, cəmiyyətin bütün üzvləri məşğul olur. Eləcə də cəmiyyətin bütün üzvləri tərbiyəyə möhtacdır. Demək, tərbiyə cəmiyyətin bütün üzvlərinə aid olan ümumi hadisədir.

Tərbiyə əbədi (daimi) hadisədir. Çünki tərbiyə insan cəmiyyətinin ayrılmaz atributudur. O, yeni nəsillər tərbiyə etməyin zəruri vasitəsidir. Lakin demək olmaz ki, o dəyişməz qalır. Cəmiyyətin inkişafı ilə əlaqədar o da dəyişir. O, tarixən əmələ gəlir, dəyişir və inkişaf edir.

Tərbiyə sosial hadisədir. Ona görə ki, o, insan beynini qidalandırır və onun bəhrəsini götürür.

Tərbiyə üstqurum hadisədir. Yəni cəmiyyətin inkişafı ilə bağlı o da dəyişir.

Tərbiyə milli hadisədir.

Hər bir xalqın, millətin özünəməxsus milli xüsusiyyətləri, fərdi keyfiyyətləri və tərbiyəvi ənənələri vardır.

Tərbiyə bəşəri hadisədir.

Bəşəriyyətin əldə etdiyi ən yaxşı keyfiyyətləri, gözəl əxlaqı, davranışı insan əxz edir, onları mənimsəyir. **. Pedaqogikanın əsas anlayış, kateqoriyaları və vəzifələri**

Pedaqogikada elmi ümumiləşmələri ifadə edən anlayışlar pedaqoji kateqoriyalar kimi də qəbul edilir. Əsas pedaqoji kateqoriyalara *tərbiyə, təlim* və *təhsil* aiddir. Pedaqogika geniş şəkildə *inkişafı* və *formalaşmanı* da ümumi elmi kateqoriya kimi işlədir. Bəzi tədqiqatçılar əsas pedaqoji kateqoriyalara «özünütərbiyə», «özünütəhsil», «özünüinkişaf», «pedaqoji proses», «pedaqoji fəaliyyətin bəhrələri», «sosial formalaşma» və s. ümumi anlayışları da daxil etməyi təklif edirlər.

Pedaqogikanın anlayışlarından olan tərbiyə tarixən qazanılmış sosial təcrübənin yaşlı nəsil tərəfindən gənc nəslə ötürülməsi prosesidir. İndi tərbiyə üç mənada: geniş sosial, geniş pedaqoji və məhdud, dar mənada işlədilir: a) **geniş sosial mənada**. Bu halda tərbiyəyə həyatımızın bütün sahələri – xalqın milli-sosial həyat tərzi, dövlətin və müxtəlif ictimai təşkilatların apardıqları tərbiyə işləri aiddir; b) **geniş pedaqoji mənada**. Təlim-tərbiyə müəssisələrində həyata keçirilən məqsədyönlü və mütəşəkkil tərbiyə prosesi geniş pedaqoji mənada tərbiyədir; c) **məhdud, dar mənada.** Məhdud mənada tərbiyə şəxsiyyətin bir xarakter əlamətinin, mənəvi keyfiyyətinin, əxlaqının formalaşmasına təsir edəcək xüsusi tərbiyə sahəsini nəzərdə tutur. Məsələn, ya fiziki, ya estetik, ya vətənpərvərlik və ya insanpərvərlik tərbiyəsi və s. Deməli, tərbiyə geniş sosial, pedaqoji və məhdud tərbiyə məsələlərini əhatə edir.

Pedaqogika tarixində təlim-tərbiyə məsələlərinə yanaşmaqda müxtəlif pedaqoji cərəyanlar mövcud olmuşdur. Onlardan biri **praqmatizm cərəyanıdır**. Praqmatizm

yunan sözüdür, mənası hərəkət, təcrübə, iş və ya əməl deməkdir. O, XIX əsrin sonunda ABŞ-da meydana gəlmişdir. Praqmatistlər fərdi təcrübəni idrakın yeganə meyarı kimi qəbul edirdilər. Praqmatizmin ən məşhur nümayəndələri Amerika alimi **Con Dyui** və **Vilyam Kilpatrik** olmuşdur. Praqmatizm pedaqogikası cəmiyyətin yeniləşdirilməsində hər şeyi tərbiyənin öhdəsinə buraxır. Guya tərbiyə cəmiyyəti istənilən şəkildə düzəldə bilər, məktəb cəmiyyətdən asılı deyil, cəmiyyət məktəbdən asılıdır. Onların fikrincə, tərbiyədə məqsəd odur ki, konkret şəraitdə uşağın gözlənilmədən meydana çıxan maraq və tələbi ödənilsin, uşaq özünü mövcud ictimai quruluşun tələblərinə uyğunlaşdıra bilsin. Guya elmlərin əsaslarının sistemli öyrənilməsinə ehtiyac yoxdur, müəllimin borcu odur ki, konkret fəaliyyət zamanı lazım gələn bilikləri öyrətsin (*«Kompleks proqramlar*» bu ideyadan irəli gəlirdi). Onlar təlimin vəzifəsini sırf praktik biliklər verməkdə görürdülər.

Pedaqoji cərəyanlardan biri də **ekzistensializmdir** (latınca *«mövcud olmaq»* deməkdir). O, Birinci Dünya müharibəsi ərəfəsində meydana gəlmişdir. Onun nümayəndələrindən ***J.P.Sartrı* (*Fransa*), *E.Qrizebaxı* (*Almaniya*), *A.Fallinkonu* (*ABŞ*)** və başqalarını göstərmək olar. Onların fikrincə, xarakteri təlim, tərbiyə deyil, şəxsin özü formalaşdırır, uşağın daxili aləminə nə müəllim, nə də valideyn nüfuz edə bilməz. Bu cərəyanın tərəfdarları özünütərbiyəni əsas götürürdülər. Həmin pedaqoji cərəyanın məqsədi böyüməkdə olan nəsildə işgüzarlıq tərbiyə etmək idi. Bu təlim-tərbiyə planlı, sistemli təsirləri inkar edən pedaqoji cərəyandır.

Pedaqogikada təlim, tərbiyə və təhsillə bağlı bir sıra elm sahələri cəmləşmişdir:

Məktəbəqədər pedaqogika. O, uşaqların anadan olandan 6 (*altı*) yaşına kimi (*ailədə və məktəbəqədər müəssisədə*) tərbiyəsindən bəhs edir. O, aşağıdakı problemləri:

a) məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin vəzifələrini, onların inkişafının qanunauyğunluqlarını və tərbiyəsinin əsas xüsusiyyətlərini;

b) məktəbəqədər yaşlı uşaqların əqli, əxlaqi, fiziki, estetik, əmək, ekoloji və s. tərbiyəsinin elmi əsaslarını, məzmununu, metodlarını;

Ümumi pedaqogika. Bu, insan tərbiyəsinin ümumi qanunauyğunluqlarını öyrənən, bütün tərbiyə müəssisələrində tədris-tərbiyə prosesinin ümumi əsaslarını işləyib hazırlayan əsas elmi fəndir.

Orta ixtisas məktəbi pedaqogikası. Müxtəlif quruluşlu, müxtəlif müddətli texnikum və gimnaziyalarda təlim-tərbiyə imkanlarını araşdırıb üzə çıxarır, onları ümumiləşdirib müəyyən istiqamətdə köməklik göstərir.

Ali məktəb pedaqogikası. Ali təhsil müəssisələrində təhsil alanların təlim-tərbiyəsi, təhsili və psixoloji inkişafını, yəni bütövlükdə pedaqoji prosesi öyrənir.

Əlahiddə pedaqogika (korreksion). Qüsurlu, habelə psixikasında müəyyən dəyişiklik olan uşaqların təlim-tərbiyəsindən, onların xüsusiyyətlərindən, biliklərin aşılanma imkanlarından bəhs edən pedaqogikadır. Əlahiddə pedaqogika bir neçə qola ayrılmışdır:

a) **surdopedaqogika** – kar və lal uşaqların təlim-tərbiyəsindən bəhs edən;

b) **tiflopedaqogika** – kor uşaqların təlim-tərbiyəsindən bəhs edən;

c) **oliqofreno pedaqogika** – əqli cəhətdən qüsurlu olanların təlim-tərbiyəsindən bəhs edən.

İslah əmək pedaqogikası. İslah-əmək düşərgələrində təlim-tərbiyə işinin təşkilindən, onların xüsusiyyətlərindən bəhs edir.

Hərbi pedaqogika. Əsgəri xidmət yaşına çatmamış gənclərlə aparılan təlim-tərbiyə məsələlərini tədqiq edib öyrənir.

Ailə pedaqogikası. Ailənin demoqrafik inkişafında tərbiyə baxımından özünü göstərən səciyyəvi xüsusiyyətlərdən, uşaq amilinin nəzərə alınmasından, təlim-tərbiyə işinin təşkilindən bəhs edir.

Pedaqogika tarixi. Dünya ölkələrində məktəb və pedaqoji fikrin inkişafı tarixini öyrənir Pedaqogikanın tədqiqat metodlarını izah etməzdən əvvəl biri-biri ilə çox yaxın səsləşən «metod», «metodika» və «metodologiya» anlayışlarına nəzər salaq.

Metod elmi idrak prosesində tədqiqatçını məlum həqiqətlərdən naməlum biliklərə doğru aparan hərəkətlər, addımlar sistemidir. Metod ümumidir. Hər bir elmin özünün metodları vardır.

Tədqiqatın aparılma texnologiyası, konkret tədqiqat metodlarını konkret obyektə tətbiq etmək **metodika** adlanır. Metodikanın mahiyyətini öyrənilən obyektlə tətbiq olunan metodun arasındakı əlaqənin üzə çıxarılması və nəzərə alınması təşkil edir.

Maddi aləmin dərk olunması prosesində tədqiqatçının rəhbər tutduğu fəlsəfi təlim **metodologiya** adlanır. Pedaqogikada metodologiya anlayışı qeyri-müəyyən, çoxmənalı, hətta mübahisəlidir. Bəziləri geniş mənada onu nəzəri və praktiki fəaliyyətin prinsip və üsullarının qurulmasının sistemi, habelə o sistem haqqında elm kimi izah edirlər. Digərləri, geniş mənada, onu elmi idrak və dünyanı yenidən qurmaq barədə elm mənasında aydınlaşdırırlar. Müasir ədəbiyyatda elmi idrak metodologiyası elmi tədqiqat fəaliyyətinin quruluşu, formaları və üsulları haqqında təlim kimi anlanılır.

Müasir elmşünaslıqda metodologiya (***"metodos"-***latınca ***"yol"*** deməkdir) dedikdə elmi idrak fəaliyyətinin təşkilinin (qurulmasının) prinsip forma və metodları haqqında təlim başa düşülür. Elmin metodologiyası tədqiqatın komponentlərinin xarakteristikasını verir. Həmin komponentlər aşağıdakılardır: tədqiqatın predmeti, vəzifələri, metodları, vasitələri və fəaliyyətin ardıcıllığı mexanizmi. **Ənənəvi pedaqoji metodlar**. Bu metodları ona görə ənənəvi adlandırırıq ki, onlar müasir pedaqogikaya bu elmin yaradıcılarından irsən keçmişdir. Bu metodlardan Platon və Kvintilian, Komenski və Pestolotsi istifadə etmişlər. **Pedaqoji eksperiment**. Pedaqoji eksperiment olduqca əlverişli, dəqiq və fəal tədqiqat metodudur. İşin gedişinə müdaxilə edərək, xüsusi şəraitdə təzahür edən hadisələri öyrənməkdən ibarət olan tədqiqat metoduna eksperiment üsulu deyilir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı: Qanun, 2010. səh.11-13.

2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)

//Kurikulum, 2008, № 1.

3. Azərbaycan Respublikası ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası/

Azərbaycan müəllimi, 28 iyul, 2006-cı il.

4. Abdullayev B.A., Zülfüqarova Ş.V. Didaktika. Bakı: ADPU, 2005, səh. 50-56.

5. Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri //"Kurikulum" 2008,

N 1, səh.31-37.

Mövzu 2. **Pedaqogikanın sahələri**

1. Pedaqogikanın sahələri

2. Pedaqogikanın başqa elmlərlə əlaqəsi

3. Pedaqoji elmlər sistemi

Pedaqogikanın bütün elm sahələri ilə əlaqəsi vardır. Müxtəlif tədris müəssisələri üçün tədris planlarının, tədris proqramlarının və dərsliklərin işlənməsində, ayrı-ayrı fənlərin tədrisində, müəssisə, idarə və təşkilatlarda tərbiyə işinin nizama salınmasında digər elmlərlə pedaqogikanın əlaqəsi özünü daha qabarıq göstərir. Əlbəttə, bütün elmlərlə pedaqogikanın qarşılıqlı əlaqəsini burada səciyyələndirmək mümkün olmadığından, pedaqogikanın əsasən daha çox aşağıdakı elmlərlə əlaqələrini nəzərdən keçirək: 18 Pedaqogikanın fəlsəfə ilə əlaqəsi. Pedaqogikanı bir elm olaraq fəlsəfədən ayırmaq mümkün deyildir. Pedaqogika öz fəaliyyətini fəlsəfənin qanunları əsasında qurur. Təlim və tərbiyənin inkişafı məhz fəlsəfənin qanunlarına əsaslanır. Təlimin, təhsilin, tərbiyənin və inkişafın bir çox problemlərini metodoloji dayaqsız həll etmək mümkün deyildir. Məsələn təlim, tərbiyə, təhsil və inkişaf məsələləri fəlsəfi qanunlara əsasən konkret şəraitlə əlaqədarddır. Pedaqoji prosesin səmərəlilik dərəcəsi konkret şəraitdən asılı olur. Eyni üsulun səmərəsi bir şəraitdə çox, başqa şəraitdə az ola bilər. Yaxud dialektik materializmə istinad edən pedaqogika həm təlim və tərbiyə prosesini, həm də uşağın əqli-şüurunu inkişafda, irəliləmədə, dəyişmədə nəzərdən keçirir. Fəlsəfi qanunlar da hər şeyin dəyişmədə, inkişafda olduğunu bildirir. Uşaq daim inkişafda olduğundan və ətraf mühit amillərinin ona təsiri dəyişdiyindən tərbiyəvi təsirlər də başqalaşmış olur. Dialektik materializm təhsil və pedaqoji fikir tarixi məsələlərinin təhlili və öyrənilməsinə düzgün yanaşmağa imkan verir. Unutmaq lazım deyil ki, hər pedaqoji nəzəriyyəyə və ya fikrə onun yarandığı şəraitlə əlaqədar qiymət vermək zəruridir. Pedaqoji prosesdə insanların biliklərə

yiyələnməsi və inkişafı fəlsəfi qanunlar əsasında baş verir. Təlim və tərbiyə prosesində mövcud olan ziddiyyətlər inkişafın əsasını təşkil edir. Digər tərəfdən elmi dünyagörüş varlığın obyektiv şəkildə dərk olunması, maddi aləm hadisələrinin qarşılıqlı əlaqə və vəhdətdə olduğunu qavranması, inkişaf və dəyişmənin zəruriliyinin dərk edilməsi əsasında baş verir. Bu isə pedaqogikanın fəlsəfə ilə qarşılıqlı əlaqəsi sayəsində mümkün olur. Pedaqogikanın psixologiya ilə əlaqəsi. Pedaqogika ilə psixologiyanın əlaqəsini təmin edən insanın psixikasıdır: psixikanı hər iki elm tədqiq edir. Psixikanın inkişaf qanunauyğunluqlarını və mərhələlərini əsasən psixologiya, təlim və tərbiyə zamanı psixikanı maksimum inkişaf etdirməyin yollarını isə pedaqogika öyrənir. Təlim və tərbiyə zamanı uşaqların psixikasında baş verən dəyişikliklər nə qədər dərindən öyrənilir və nəzərə alınırsa, çıxarılan nəticələr və verilən məsləhətlər bir o qədər əsaslı olur. Psixikanın, yəni qavrayışın, təxəyyülün, təfəkkürün, iradənin, diqqətin və digər psixi proseslərin və psixi xüsusiyyətlərin necə formalaşdığına psixologiya cavab verirsə, pedaqogika onları nəzərə alaraq nə öyrətmək, nə vaxt və necə öyrətmək suallarına cavab verir. Pedaqogika psixoloji biliklərə istinad etdiyi kimi, psixologiya da pedaqoji bilikləri nəzərə alır. Bu baxımdan Psixopedaqogika elmi də hər iki elmin birliyini təcəssüm etdirir. Pedaqogika və psixologiya bir-birinin köklü müddəalarını – pedaqogika uşaq psixikasını, psixologiya isə pedaqogikanın təlim və tərbiyə nəzəriyyəsini; pedaqogika psixikanın inkişaf nəzəriyyəsini, psixologiya isə psixikanın inkişafında təlim və tərbiyənin roluna dair nəzəriyyəni və s. nəzərə alır. Pedaqogikanın sosiologiya ilə əlaqəsi. İnsanlar məhz tərbiyə vasitəsilə sosiallaşır, cəmiyyətin sosial təcrübəsinə qoşulur. İnsanlara formalaşma prosesində 19 məqsədyönlü tərbiyə ilə yanaşı sosial mühit, sosial münasibətlər də təsir edir. Digər tərəfdən tərbiyəvi təsirlər bilavasitə sosial mühitdə reallaşır, həyata tətbiq edilir. Deməli insandan, onun arzu və istəyindən asılı olmayaraq o, sosial mühitlə qarşılıqlı əlaqəyə girir. Pedaqoji proses isə bu qarşılıqlı əlaqəyə nəzarət etməli, sistemli tərbiyəvi təsirlərlə sosioloji təsir arasında məqsədyönlü, səmərəli və düzgün münasibət yaratmalıdır. Pedaqogikanın fiziologiya ilə əlaqəsi. Xarici təsirlər baş beyin qabığında özünə müvafiq mərkəzi oyandırır, oxşar qıcıqlandırıcılar isə baaşqa bir mərkəzi oyandırır. Bu isə oxşar əşyaların çətin fərqləndirilməsinə səbəb olur. Fiziologiya isə öyrədir ki, oxşar qıcıqlandırıcıları elə fərqli cəhətlərini tapmaq lazımdır ki, izah zamanı o, bir deyil, iki mərkəz oyandırsın. Bu isə fiziologiyanın pedaqogikaya inkişafetdirici təsiridir. Digər tərəfdən insan böyüdükcə onun fiziki və fizioloji imkanları da dəyişir. Təlim-tərbiyə, formalaşdırma işində bu dəyişmənin spesifik cəhətləri nəzərə alınır,

pedaqoji proses inkişaf və dəyişməni öz arxasınca aparmaqla onu düzgün istiqamətə yönəldir. Pedaqokanın etika ilə əlaqəsi. Pedaqogika etika ilə qarşılıqlı əlaqəlidir. Fəlsəfi elm olan etika, əxlaq tərbiyəsinin əsasını təşkil edir. Pedaqoji prosesdə əxlaqın meydana gəlməsi, təşəkkülü haqqında məlumatlar da əhəmiyyətli yer tutur. Pedaqogikanın həmçinin ədəbiyyat, incəsənət, tarix, erqonomika, məntiq, gigiyena və daha bir çox digər elmlərlə də qarĢılıqlı əlaqəsi vardır. Pedaqogika başqa elmlərin nailiyyətlərindən istifadə etdiyi kimi, həm də digər elmlərin də inkişafına təsir edir. 1.5. PEDAQOJİ ELMLƏR SİSTEMİ Pedaqoji elmlər sistemi dedikdə, pedaqogikaya daxil olan elmlərin məcmusu, pedaqoji elmin sahələri nəzərdə tutulur. Pedaqoji elmlər sisteminə aşağıdakılar daxildir: Məktəbəqədər pedaqogika məktəb yaşına çatmamış uşaqların tərbiyə və təlim məsələlərini öyrənir. Məktəbəqədər pedaqogika pedaqogikanın xüsusi tərkib hissəsi olaraq məktəbəqədər yaş dövründə uşaqların fizioloji və psixoloji inkişafını əsas götürərək, tərbiyə və təhsil prosesini pedaqoji qanunlar, prinsiplər əsasında həyata keçirir. Məktəbəqədər pedaqogika dünyanın ən mütərəqqi elmi-pedaqoji nəzəriyyələrinə istinad edərərək müasir dövrdə uşaqların tərbiyə olunmasının mühüm vəzifələrini, məqsədini və məzmununu müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasətinə müvafiq müəyyən edir, bu sahədə qabaqcıl pedaqoji təcrübənin öyrənir və yayır. Körpəlik pedaqogikası üç yaşınadək olan uşaqlara göstərilən qayğı və diqqət, inkişaf, tərbiyə məsələlərini öyrənir. 20 Ümumtəhsil məktəbinin pedaqogikası digər pedaqoji elm sahələri üçün elmi bazadır, o məhz ümumi pedaqogikadır (ümumtəhsil məktəbi bütün dünyada kütləvi məktəbdir, o, təhsil sisteminin əsasını təşkil etdiyindən həmin sistemin həlqələri – ilk peşə təhsili, subbakalavr təhsili, ali təhsil onun üzərində qurulur). Xüsusi pedaqogika (defektologiya) fiziki və əqli cəhətdən qüsurlu olan uşaqların (həm də yaşlıların) inkişafının psixofizioloji xüsusiyyətlərini, onların təlim-tərbiyəsinin nəzəri əsaslarını, prinsiplərini, üsullarını, təşkili formalarını və vasitələrini işləyib hazırlayır. Xüsusi pedaqogikanın da sahələri vardır: surdopedaqogika – lal və karların, tiflopedaqogika – kor və zəif görənlərin, oliqofrenopedaqogika – ağıldan kəmlərin, loqopediya – nitqi qüsurlu olanların təhsili və tərbiyəsi məsələlərini öyrənir. Fənlərin tədrisi metodikası təlim qanunauyğunluqlarının ayrı-ayrı fənlərin tədrisinə tətbiq edilməsi xüsusiyyətlərini tədqiq edir, onun optimal metodlarını və vasitələrini öyrənir. Peşə metodikası konkret peşə fəaliyyətinin qanunauyğunluqlarını öyrənir, nəzəri ümumiləşdirmələr aparır, insanın təhsilinin prinsiplərini və texnologiyasını işləyib hazırlayır.

Tədqiqatçılar peşə sahəsindən asılı olaraq istehsalat, hərbi və tibbi pedaqogikanı fərqləndirirlər. Ali məktəb pedaqogikası ali təhsil müəssisələrində ali təhsil prosesinin spesifik xüsusiyyətlərini öyrənir. Sosial pedaqogika insanların bütün yaş qrupları və sosial kateqoriyalarının xüsusi yaradılmış təşkilatlarda sosial tərbiyəsi məsələlərini öyrənir. Pedaqogika tarixi müxtəlif dövrlərdə pedaqoji nəzəriyyələrin və məktəb tarixinin inkişaf qanunauyğunluqlarını öyrənir. Pedaqogika tarixini öyrənmədən bəşəriyyətin təhsil-tərbiyə tarixini izləmək, onu təhlil etmək, tarixi-pedaqoji irsin inkişafındakı müsbət və mənfi meyilləri üzə çıxarmaq mümkün deyildir. Müqayisəli pedaqogika müasir dünyada, müxtəlif ölkələrdə mövcud olan pedaqoji nəzəriyyələri, təhsil sistemlərini, təlim, tərbiyə təcrübəsini ümumi, fərqli və oxşar cəhətlərini, inkişaf dinamikasını öyrənir, ümumiləşdirir, onların ictimai, iqtisadi, sosial-siyasi və qneseoloji əsaslanı araşdırır, həmçinin milli mentalitetdən irəli gələn tərbiyə xüsusiyyətlərini tədqiq edir. Ailə pedaqogikası ailədə uşaqların tərbiyəsinin düzgün təşkili, ailədə düzgün münasibətlərin yaradılması, ailə ilə məktəb və digər tərbiyə müəssisələri arasında səmərəli əlaqə yaradılması, cəmiyyətlə ailənin tərbiyəvi təsirlərinin əlaqələndirməsi, bunların insanların həyata hazırlanması işinə təsiri və digər ailə, övlad problemlərini araşdırır. Hərbi pedaqogika hərbi məktəblərdə, ali hərbi məktəblərdə, hərbi akademiyalarda, adi ali təhsil müəssisələrinin hərbi kafedralarında, hərbi hissələrdə, orta məktəblərdə, orta ixtisas məktəblərində gənclərin hərbi hazırlığı, hərbi təlimi, tərbiyə və təhsilini tədqiq edir. Xalq pedaqogikası xalqın əsrlər boyu topladığı təcrübə əsasında yaranmış müdrik fikirlərdir ki, bu fikirlər insanların təlim və tərbiyəsi, davranışı, insanlara, ətraf aləmə düzgün münasibəti üçün xalq tərəfindən qəbul edilmiş əxlaqi, etik, estetik normalardır. Xalqın müdrik fikirləri 21 folklor nümunələrində, xalqın adət və ənənələrində öz əksini tapmışdır. Korreksiyaedici pedaqogika sosial-psixoloji cəhətdən qüsurlu uşaqların diaqnostikası, profilaktikası və bərpası üzrə aparılan pedaqoji, psixoloji, metodoki işlərin məcmusunu özündə birləşdirir və buna uyğun həmin uşaqların təlıim və tərbiyəsini təşkil edir. İstehsalat pedaqogikası müxtəlif istehsalat müəssisələrində, idarə və təşkilatlarda aparılan tərbiyə işləri, texniki inkişafla bağlı yeni əmək və təlim bilik, bacarıq və vərdişlərinin formalaşdırılması və digər pedaqoji problemləri araşdırır. Gender pedaqogikası son dövrlərdə pedaqogikamıza daxil olmuşdur. Gender ingilis dilində “Genius” sözündən olub “cins” deməkdir. Gender kişi ilə qadın arasındakı fərqlərin bioloji deyil, sosial tərəflərini, fərqlərini öyrənir. Bu fərqlər kişi və qadının cəmiyyətdə fəaliyyətində, davranışında, mental və emosional xüsusiyyətlərində

özünü büruzə verir. Gender pedaqogikası kişi və qadın arasında sosial bərabərliyin pedaqoji, psixoloji, əxlaqi, mənəvi problemlərini işləyib tədqiq edir. Gender pedaqogikası təlim və tərbiyə prosesində oğlan və qızların gender sosiallaşması xüsusiyyətlərini öyrənir. Pedaqoji prosesdə gender münasibətlərinin nəzərə alınması təlim və tərbiyənin keyfiyyətinin yüksəldilməsində və səmərəli təşkilində mühüm amildir. Yaş pedaqogikası isə müxtəlif yaş dövrlərində təlim və tərbiyə məsələlərini öyrənir və ona müvafiq olaraq pedaqoji prosesi qurur. Yaşlıların pedaqogikası – pedaqoji elmin bir sahəsi olub yaşlı insanların təlimi, tərbiyəsi, təhsili və özünütəhsilinin pedaqoji cəhətdən məqsədyönlü, planlı, sistemli şəkildə müxtəlif formalarda təşkilidir. Buna androqoqika da deyilir. Tibbi pedaqogika. Pedaqogikanın bu sahəsi tibbin hüdudunda təşəkkül taparaq formalaşır. Uşaq və yeniyetmələr arasında xəstəlik hallarının olması bu istiqamətdə səhiyyənin məqsədyönlü fəaliyyət göstərməsini tələb etdiyi kimi, belə uşaqların təhsilinin də təşkilini zərurətə çevirir. Beləliklə, qoruyucu təhsil-tərbiyə konstruksiyalarının işlənib hazırlanması təxirəsalınmaz vəzifə kimi qarşıda durur. Tibbi pedaqogikanın predmetini xəstə və halsız şagirdlərlə müəllimlərin təlim-tərbiyə fəaliyyətinin sistemi təşkil edir. Deməli, müalicə və təhsilin səmərəli şəkildə uzlaşdırılması tələbatı öz-özlüyündə meydana çıxır və beləliklə, tibbi-pedaqoji elmin inteqrasiyası baş verir. Tibbi pedaqogikanın faydalılığını artırmaq üçün alimlərin və praktik işçilərin ikili təhsilə (tibbi və pedaqoji) yiyələnmələri məqsədəuyğundur

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı: Qanun, 2010. səh.11-13.
2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)
3. //Kurikulum, 2008, № 1.
4. Azərbaycan Respublikası ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası/
5. Azərbaycan müəllimi, 28 iyul, 2006-cı il.
6. 201
7. Abdullayev B.A., Zülfüqarova Ş.V. Didaktika. Bakı: ADPU, 2005, səh. 50-56.

8. Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri //”Kurikulum” 2008,
9. N 1, səh.31-37.
10. 6. Abbasov Ə.M. Qiymətləndirmə konsepsiyası – konseptual sənəd. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. “Təhsil sisitemində monitorinq və qiymətləndirmənin yeri” mövzusunda respublika Elmi praktik Konfransının materialları.

Mövzu 3. Pedaqogika elminin metodologiyası və pedaqoji tədqiqat metodları

1. Pedaqogikanın metodologiyası anlayışı
2. Pedaqoji tədqiqatların metodoloji prinsipləri
3. Pedaqoji tədqiqatların metodları və elmi-pedaqoji tədqiqatların strukturu haqqında

Metodologiya elmi fəaliyyəti təĢkil etmək üçün insanın məqsədyönlü fəaliyyətinin məzmunu, forma, metod və vasitələrinin, prinsiplərinin məcmusudur. Bu fəaliyyətin məntiqi quruluşu özündə subyekt, obyekt, predmet, prinsiplər, məzmun, forma, metod, vasitələr və nəticə komponentlərini birləşdirir. Metodologiya – metodlar haqqında elm olub, müxtəlif tədqiqat sahələrində tətbiq olu- 26 nan metodları sistemli şəkildə öyrənir və təhlil edir. Metodologiya tətbiqi anlayış kimi – tədqiqatçının, alimin elmi fəaliyyətində əsaslandığı bir-bir ilə qarşılıqlı əlaqə və asılılıqda olan prinsiplər sistemidir ki, bunun sayəsində konkret elm sahəsində müəyyən elmi nəticələr əldə edilir. Pedaqogikada metodologiyaya pedaqoji gerçəkliyin dərk edilməsi və dəyişdirilməsi haqqında nəzəri müddəaların məcmusu kimi baxılır. Bu müddəalar təhsil və tərbiyənin humanist mahiyyətini əks

etdirir. Bundan başqa, metodologiya təlim-tərbiyə prosesində tənzimləyici və normativ funksiyaları yerinə yetirir. Müxtəlif mənbələrdə metodologiyanın məzmununa fərqli yanaşmalar vardır: -Metodologiya maddi aləmin dərk olunması prosesində tədqiqatçının əldə rəhbər tutduğu fəlsəfi təlimdir. -Metodologiya nəzəri və praktik fəaliyyətin təşkili prinsipləri və vasitələri sistemidir. -Metodologiya elmi idrakı fəaliyyətin prinsipləri, formaları, vasitələri haqqında təlimdir. Metodologiyanın ən yüksək səviyyəsini fəlsəfə təşkil edir. Bu səviyyə idrakın ümumi prinsiplərini, bütövlükdə elmin kateqoriyaları sistemini əks etdirir. Bütün fəlsəfi biliklər metodoloji vəzifələri yerinə yetirir. Metodologiyanın mahiyyətinə verilən yanaşmaları ümumiləşdirsək deyə bilərik: Metodologiya elmi idrak fəaliyyətinin, o cümlədən pedaqogika elminin istiqaməti, strukturu, prinsipləri, forma və vasitələri haqqında təlimdir. Hər hansı sahədə, o cümlədən pedaqoji elmlər sahəsində tədqiqatlar aparmaq, təlim prosesini müvəffəqiyyətlə həyata keçirmək üçün metodoloji biliklərə yiyələnmək lazımdır. Pedaqogikada metodologiyaya pedaqoji gerçəkliyin, yəni pedaqoji fakt, hadisə, proseslərin dərk edilməsi və dəyişdirilməsi haqqında nəzəri müddəaların məcmusu kimi baxılır. Metodologiya tənzimləyici və normativ funksiyanı yerinə yetirir. Pedaqoji tədqiqatların metodoloji əsası didaktikanın, tərbiyə nəzəriyyəsinin yaradıcı rolunun artmasına – elmi biliklərin sürətlə inkişafına, texnologiya və metodların yeniləşməsinə, yeni yanaşmanın tətbiqinə, pedaqoji prosesdə inteqrasiya və diferensasiyanın nəzərə alınmasına geniş imkanlar yaradır. Düzgün müəyyənləşdirilmiş metodoloji əsasın köməyilə pedaqoji proseslərin gizli, qapalı, çətin, rəngarəng, mürəkkəb komplekslər həll olunur. Metod yunan sözü olub “Yol”, “Üsul” deməkdir. Metod məqsədə çatmaq üçün müxtəlif, üsulların, yolların, vasitələrin məcmusudur. Metodların seçilməsi işin məqsədi və məzmunu ilə bağlı olur. Pedaqoji tədqiqat müəyyən ardıcıllıqla aparılır. Tədqiq olunmalı problem müəyyənləşdirilir və dəqiq ifadə olunur; onun planı tərtib edilir, məqsədi və mən-

bələri aydınlaşdırılır; problemin xarakterinə uyğun gələn üsullar seçilir; bu üsulların köməkliyi ilə pedaqoji faktlar toplanır; həmin faktlar təhlil edilir; müvafiq nəticələr çıxarılır; lazım gələndə həmin nəticələrin həyatiliyi təcrübədə yoxlanılır. Beləliklə, problemin müəyyənləşdirilməsindən başlayan pedaqoji tədqiqat müvafiq üsulların vasitəsilə faktların toplanması, təhlili və ümumiləşdirilməsi əsasında pedaqoji qanunauyğunluqların üzə çıxarılması prosesidir. Tədqiqat metodlarını 5 qrupa bölmək olar. 1. Nəzəri tədqiqat üsulları; 2. Praktik tədqiqat üsulları; 3. Eksperimental tədqiqat üsulları; 4. Tarixi müqayisəli tədqiqat üsulları; 5.

Riyazi üsullar. Hər bir elmin özünəməxsus tədqiqat metodları var. Pedaqogikanın tədqiqat metodları aşağıdakılardır

Müşahidə – təlim-tərbiyə hadisələrini planlı qavramaq prosesidir. Hadisələrin gedişinə qarışmadan onları təbii şəkildə, təbii şəraitdə öyrənməyə müşahidə deyilir. Tədqiqatçı müşahidə zamanı əşya və hadisə üzərində fikri fəaliyyət göstərir, hadisənin müəyyən cəhətini fərqləndirir, onları bir-biri ilə fikrən əlaqələndirir. Müşahidə uzunmüddəətli, qısa müddətli, dövrü və sistematik ola bilir. Qısamüddətli müşahidə dəqiqələr ərzində insan psixikası və davranışının təzahürünü izləməklə həyata keçirilir. Məsələn, müəllimin izahına şagirdlərin münasibətini aşkara çıxarmaq üçün həmin anda onların üzərində aparılan müşahidə buna misal ola bilər. Uzunmüddətli müşahidəyə bütün dərs və ya bütün rüb ərzində aparılan müşahidələri aid etmək olar. Dövrü müşahidəyə gəldikdə bu müəyyən dövrlərdə, məsələn hər rübün sonunda eyni bir psixi hadisənin təzahürünü izləməkdən ibarətdir. Dövrü müşahidə psixi hadisənin inkişaf dinamikasını aşkara çıxarmağa imkan verir. Sistematik müşahidə də inkişaf dinamikasını aşkara çıxarmağa xidmət edir. Lakin burada müşahidə arası kəsilmədən uzun müddət məsələn, bütün dərs ili, müəyyən yaş dövrü ərzində aparılır.

Müsahibə – bu sadəcə bildiyimiz, həmişə etdiyimiz söhbət deyildir. Müsahibə metodu – pedaqoji psixoloji tədqiqatlarda əvvəlcədən hazırlanmış plan əsasında keçirilən məqsədli söhbətdir. Tədqiqat metodu kimi müsahibə informasiya 28 əldə etmək və ya müşahidə zamanı aydın olmayan məsələləri aydınlaşdırmaq, bəzən də eksperimentin nəticələrini yoxlamaq və dəqiqləşdirmək məqsədilə aparılır. Bu metodun köməyi ilə hər hansı pedaqoji fakt və hadisəyə müəllimlərin şagirdlərin və valideynlərin münasibəti aşkarlanır, müəyyən təlim-tərbiyə hadisəsi başqaları ilə söhbət etmək vasitəsilə öyrənilir, şagirdlərin fərdi psixoloji xüsusiyyətləri aydınlaşdırılır.

Eksperiment – pedaqoji tədqiqatların aparıcı metodudur. Eksperiment zamanı hər hansı bir pedaqoji ideyanın, fərziyyənin mötəbərliyi sınaqdan keçirilir, yoxlanılır. Bundan məqsəd pedaqoji hadisələr arasındakı qarsılıqlı əlaqələri, pedaqoji ideyanın, hipotezin faydalılığını öyrənmək, aşkar etməkdir. Eksperiment hər hansı bir pedaqoji məsələni xüsusi təşkil olunmuş şəraitdə öyrənməkdir. Təlimtərbiyəyə

aid olan bu və ya digər hadisəni, pedaqoji posesi daha dərin tədqiq edib, öyrənmək üçün pedaqoji eksperimentdən istifadə olunur.

Anket – metodu məlumatlar toplamaq üçün fərdi ya da kütləvi şəkildə suallara yazılı və ya şifahi alınan cavablardır. Anketdəki suallar məntiqi ardıcıllıqla tərtib edilir. Anket suallarını üç qrupa bölmək olar: 1) Məzmununa görə; 2) Formasına görə; 3) Funksiyasına görə. Anket sualları da məzmununa görə iki qrupa bölünür: 1) Keçmiş və indiki zamandakı faktlar; 2) Fərdin fakat və hadisə haqqında rəyi, fikri, motivi.Anket üz-üzə, telefonla və ya poçt vasitəsilə keçirilə bilər. Anket məlumatları toplandıqdan sonra təhlil eilir, nəticələr çıxarılır. Anketləşdirmə tədqiqat obyektini ölçmə, qiymətləndirmə, dəyərləndirmə vasitəsi rolunda da çıxış edir. Reytinq (qiymətləndirmə) tədqiqat metodudur. Onun köməyi ilə sorğuya cəlb olunanlara şəxsiyyətin əxlaqi keyfiyyətlərini, həmçinin şagirdlərin davranışını qiymətləndirmək təklif olunur. Başqa metodların köməyi ilə əldə edilmiş nəticələrin dəqiqlik, etibarlılıq dərəcəsi müəyyənləşdirilir. Pedaqoji test. “Test” sözü ingiliscə sinaq mənasını verir. Pedaqoji test pedaqoji prosesin öyrənilən tərəfini ciddi nəzarət olunan şəraitdə obyektiv öyrənməyə imkan verən məqsədyönlü, hamı üçün eyni zamanda keçirilən yoxlamadır. Başqa yoxlama metodlarından fərqli olaraq test dəqiqliyi, sadəliyi, avtomatlaşdırma imkanları ilə seçilir. Pedaqogikada test hər şeydən əvvəl şagirdlərin təlim müvəffəqiyyətini yoxlamaq üçün tətbiq olunur. Bu məqsədlə “müvəffəqiyyət”, “yekun” və şagirdlərin “əqli inkişaf səviyyəsini” müəyyənləşdirən testlərdən geniş istifadə edilir. Testlərin müxtəlif növləri vardır. Onlardan ən geniş yayılanları aşağıdakılardır: müvəffəqiyyət testləri, intellekt testləri, kreativ testlər, şəxsiyyət testləri, proyektiv testlər.

Ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika. Dərs vəsaiti. Bakı:Mütərcim, 2010, 344 s.

2. Abbasov A.N.,Məmmədzadə R., Məmmədli L.A. Pedaqogika: Müntəxabat. Bakı:

Tərcümə və nəşriyyat-poliqrafiya mərkəzi, 2021, 608 s.

3. Ağayev M.H. Müqayisəli pedaqogika. Bakı: ADPU, 2011,156 s

4. Allahverdiyeva F.M., Tağıyeva S.S. Pedaqogika. Dərs vəsaiti. Bakı: Elm və təhsil,

2018, 408 s.

5. Dostuzadə D.Ə. Eşitmə qüsurlu uşaqlarla işin təşkili. Bakı: ADPU, 2011, 265 s

Mövzu 4. Pedaqogika elminin inkişaf tarixi

1. Azərbaycanda pedaqoji fikir və onun inkişafı
2. Qədim Şərqdə,Yunanıstan və Romada pedaqogikanın və pedaqoji fikrin yaranması
3. Qərbi Avropada və Rusiyada pedaqoji fikrin inkişafı

Hər bir xalqın istər yazılı ədəbiyyatda, istərsə də şifahi xalq nümunələrində təlim-tərbiyə haqqında qiymətli fikir və tövsiyələri mövcuddur. Azərbaycanda XX əsrin pedaqoqlarından biri olan görkəmli prof. Ə.Seyidov qeyd edirdi ki, «…Atalar sözü, zərb-məsəllər, nağıllar, xalqımızın bütün folklor materialı… başqa xalqlarda olduğu kimi, Azərbaycan xalqının da hər şeydən əvvəl, ilk pedaqoji məhsulu olmuşdur». Qədim Şərq dövlətlərində valideynlər uşaqlarından üç şeyi tələb edirdilər: qulaq asmağı, dinləməyi və icra etməyi. Cənubi Amerikada bir hindu qəbiləsində deyirlər: «Əgər adam öyrənmək istəyirsə, o soruşur, əgər adam coşqun həvəslə öyrənmək istəyirsə, o qulaq asır və dinləyir».

Pedaqogikanın inkişafına nəzər saldıqda onun köklərinin çox dərin olduğunu görərik. Bu tarixi inkişafda qədim Şumer, Çin, Hindistan, Misir dövlətlərinin öz payı vardır.

Cənubi Mesopatamiyada ilk dövlətlər bizim eradan əvvəl IV-III minilliklərdə yaradılmışdır. Bu dövlətlərin özlərinin keşikçiləri, qoşunları və məmurları var idi. Burada padşaha «böyük adam» deyirdilər. Bu dövlətləri yaradanlar Şumer və Semit tayfaları olmuşdur. Şumerdə məktəb təhsilin əsas ocağı sayılırdı. Məktəblər həm təhsil verirdi, həm də dəftərxana vəzifəsini yerinə yetirirdi. Şumerdə məktəb (*edubbo*) «kitabələr evi» adlanırdı. Məktəbə müəllim başçılıq edirdi ki, ona da «kitabələr evinin atası» deyirdilər. Şagirdlərə «kitabələr evinin övladları»,

müəllimin köməkçilərinə isə «böyük qardaş» deyirdilər. Müəllim köməkçisinin vəzifəsi şagirdlər üçün kalloqrafik lövhə nümunələri hazırlamaqdan ibarət idi. Həmçinin o, uşaqların yazı işlərini yoxlayır, dərsdə öyrəndiklərini soruşurdu. «Kitabələr evinin atası» həm də bir növ direktor vəzifəsini icra edirdi. Məktəbdə xüsusi nəzarətçilər fəaliyyət göstərirdi ki, onlar da şagirdlərin məktəbə davamiyyətlərinə nəzarət edirdilər. Bu nəzarətçilərə «qamçı tutan» deyirdilər. Çünki təlimdə çubuq intizamı tətbiq edilirdi. Uşaqlar Şumer dilində danışırdılar. Şumer məktəblərində şagirdlər gələcək fəaliyyət sahələri ilə bağlı elmi biliklər qazanırdılar. Onlar biliyə, savada yüksək qiymət verirdilər. Şumerlər ailədə tərbiyəni əsas sayaraq ailə və övladların qədrini bilməyi vacib sayırdılar: «Arvad kişinin gələcəyidir, oğul – kişinin sığınacaq yeridir, qız isə kişi üçün nicat yeridir». Şumerlər əxlaq tərbiyəsini yüksək qiymətləndirərək, müdrik Axikar haqqında hekayədə yüzdən çox nəsihət vermişlər.

Pedaqogika elminin inkişafında qədim ***Çin dövlətinin*** də öz payı vardır. Qədim mənbələrə görə, Çində ilk məktəblər e.ə. III minillikdə yaranmışdır. Məktəblərdə müəllimlərlə şagirdlər arasında əməkdaşlıq, şagirdlərin müstəqilliyi özünü büruzə verirdi. Onlar öz şagirdlərini müstəqil fəaliyyət göstərməyə alışdırmaq üçün müxtəlif məsələləri həll etmək tapşırığı verirdilər. Çində təlimin əsas məqsədi şagirdlərə heroqlif yazını öyrətməkdən ibarət idi. Hələ məktəblər yaranmamışdan əvvəl bu yazıdan istifadə irsi xarakter aldığından cəmiyyətdə yavaş-yavaş yayılmağa başlayırdı. İlk heroqliflər müxtəlif heyvanların sümükləri üzərində həkk olunmuşdu. E.ə. X əsrdə üzərində heroqlif yazılar həkk olunmuş bürünc qablar, e.ə. VIII əsrdə isə yazı üçün nəzərdə tutulan bambuk və ipək parçaların üzərində heroqliflər yazılırdı Eramızın II əsrində heroqliflərin yazılışı asanlaşdı. Qədim yazılar kağız üzərinə köçürüldü.

Qədim Hindistanda da məktəb, ənənələr, təlim-tərbiyə məsələləri yaranıb inkişaf etmişdi. Qədim Hindistanın ilk fikir abidəsi Vedlər hesab edilirdi. Ved sözü (*sanskritdə*) tərcümədə bilik mənasında işlədilir. Lakin bu xüsusi biliklər hesab olunurdu. Bu biliklər (*vedlər*) himnlərdən, dualardan, qarğışlardan, qurbanvermə formullarından və s. ibarət idi. Vedlər dörd qrupa bölünürdü ki, onlardan ən qədimi Upanişadlar hesab olunur. Upanişad (*hərfi tərcüməsi, müəllimin ayaqları önündə oturmaq deməkdir, bəzən ona gizli, müqəddəs bilik də deyirlər*) forması müəllimin şagirdlərlə dialoqudur. Vedlərə görə, dünya həyat məktəbidir. Şagird həmişə müəllimin sözlərinə əməl etməlidir.

Qədim Şərq ölkələri içərisində ***Misir*** də pedaqoji baxımdan müəyyən rolu olan dövlətlərdən biridir. Qədim padşahlıq dövründə fironun sarayında yaradılmış məktəblərdə gələcək mirzələrə savad öyrədirdilər. Sonralar məbədlərdə, yeni padşahlıq dövründə isə böyük dövlət idarələrində məktəblər yaradıldı. Fiva padşahlığın yeni paytaxtı olarkən Misir artıq öz inkişafını sürətləndirmişdi. Misirdə elm sürətlə inkişaf etməyə başlamışdı. İşarə şəkillər-heroqliflər yaranmışdı, Misirlilər heroqlifləri daş, ağac, dəri, heyvan sümüklərinin üzərində yazırdılar. Sonralar papiruslar əsas yazı materialı oldu. Papirus bitkisinin gövdəsindən istifadə edirdilər, bu isə heroqliflərin ilkin şəklinin dəyişməsinə səbəb olurdu. Bu yazıya ***heratika*** adı verilmişdi.

Əl Fərabi Əbu Nəsr Məhəmməd ibn Məhəmməd (870-950) Şərq dünyasının ən böyük ensiklopedik alimlərindən olmuşdur. O, Mərkəzi Asiyanın Fərab (*Ottar*) şəhərində türk qəbiləsindən olan hərbi xidmətçi ailəsində dünyaya gəlmişdir. Fərabi dövrünün fəlsəfə, məntiq, əxlaq və təbiət elmlərinə yiyələnmişdi. O, hərtərəfli və dərin biliyə malik olduğuna görə «Şərqin Aristoteli» adını almışdı. Fərabinin əsərlərində geniş pedaqoji fikirlərə də rast gəlinir. O, əsərlərində bir sıra pedaqoji məfhumların - təlim, tərbiyə, tərif, əqidə, bilik, bacarıq, vərdiş və s. mahiyyətini açıqlamışdır. Fərabi pedaqogikanı müəyyən vasitə və metodlarla insanı tərbiyə edən sənət adlandırırdı. Fərabi «Xoşbəxtliyin əldə edilməsi», «Elmlərin siyahıya alınması», «Fəzilətli şəhər əhlinin baxışları», «Əql» (*sözün mənalarına dair*) və s. əsərlərində fəlsəfə və pedaqogika elmlərinə dair bir sıra qiymətli fikirlər irəli sürmüşdür.

İslam dünya mənəvi mədəniyyətinin ən geniş və qiymətli istiqamətlərindən biridir. O, VII əsrin əvvəllərində təşəkkül tapmışdır. Onun başlıca məqsədi ilk növbədə dağınıq və biri-biri ilə düşmənçilik edən bədəvi Ərəb qəbilələrini birləşdirmək və vahid dinliliyə gətirmək idi. İslam dininin banisi ***Məhəmməd ibn Abdulla*** (570-632) olmuşdur. O, tarixə Məhəmməd peyğəmbər (s.) kimi daxil olmuşdur. İslam dininin müqəddəs kitab.

«Qurani-Kərim» əsl mənada əvvəldən axıra kimi təlim-tərbiyə toplusudur. 114 sürə, 6236 ayədən ibarət olan «Qurani-Kərim»də əxlaq, ailə, kəbin, ər-arvad, valideyn-övlad, övlad-valideyn münasibətləri, uşaqların ailədə tərbiyəsi məsələləri şərh olunur. Göstərilir ki, valideynlərin hər ikisi, həm ata, həm də ana uşaqların

tərbiyəsində məsuliyyət daşıyırlar. Onlar övladlarına düzgün tərbiyə verməli, onları əsl insan kimi böyütməlidirlər.

İslamda uşağın tərbiyəsi iki mərhələdən keçir. Tədbiri və tətbiqi dövrləri. Tədbiri dövrü uşağın ana bətnindəki müddəti əhatə edir. İslama görə, uşaq ana bətnində olarkən ata-ana münasibətlərini duyur və hiss edir.

Pedaqoji fikrin inkişafında Orta əsrlər dövrü də mühüm yer tutur. Orta əsrlərdə pedaqoji fikir əsasən iki istiqamətdə inkişaf etmişdi. Birinci, – dinlə bağlı, ikinci, – dünyəvi tərbiyə ilə bağlı idi. Belə ki, Qərbi Avropa həyatında katolik kilsəsi böyük rol oynamış və bütün təhsili öz əlində saxlamışdı. Dünyəvi məktəblərdə feodallar öz uşaqlarını cəngavər kimi tərbiyə etməyə çalışmışdılar. İlk universitetlərin meydana gəlməsi də orta əsrlərə məxsusdur. XII əsrdən başlayaraq İtaliyada, Fransada, İngiltərədə, Çexiyada və başqa yerlərdə universitetlər meydana gəlir. Onlar bir qayda olaraq alimlərin təşəbbüsü ilə şəhərlərdə yaranmış və özlərini müstəqil idarəetmə hüququna malik olmuşlar. Bunlarla yanaşı, ruhanilər tərəfindən dini universitetlər də açılmışdır. Kilsənin təsiri ilə universitetlərdə xüsusi ilahiyyat fakültələri də yaranmışdı.

Tarixə intibah dövrü kimi daxil olmuş XIV-XVI əsrlərdə pedaqoji fikrin inkişafı daha da genişlənmişdi. Bu dövrdə bir sıra humanist pedaqoqlar tərəfindən məktəblər təşkil edilmiş, onlara kilsənin təsiri zəifləmişdi. Bu vaxtlar yüksək tipli orta məktəblər (*kollegiumlar*) və gimnaziyalar meydana gəlir. Orta əsrlərdə pedaqoji fikrin inkişafında humanist pedaqoqlar ***Vittorino da Feltrenin*** (1378-1446), ***Fransua Rablenin*** (1494-1553), ***Mişel dö Montenin*** (1533-1592), ***Tomas Morun*** (1478-1535), ***Tommazo Kampanellanın*** (1568-1639) və b. müstəsna xidmətləri olmuşdur.

Vittorino da Feltre İtaliyada «Şadlıq evi» adlı məktəb təşkil etmişdi.

Görkəmli humanistlərdən biri də fransız ***Fransua Rable*** olmuşdur. O, qiymətli «Qarqantua və Pantaqruel» adlı əsərində orta əsrin sxolastik (*dəyişməz*) təlim-tərbiyə sisteminə qarşı çıxaraq həyati, əyani təlim formalarını əsaslandırmışdır.

İntibah dövrünün pedaqoji fikir zirvəsini İngiltərənin ilk utopik sosialisti ***Tomas Morun*** ideyaları təşkil edir. O özünün «Ən gözəl dövlət quruluşu haqqında kitab və ya «Yeni utopiya adası» əsərində dəyərli pedaqoji fikirlərini irəli sürmüşdür. Onun

təsvir etdiyi «ütopiya» adasında bütün uşaqlara ictimai tərbiyə və ibtidai təlim verilirdi.

Erkən utopik sosialistlərdən ***Tommazo Kampanella*** «Günəş şəhəri» adlı əsərində pedaqoji məsələlərə dair qiymətli fikirlər irəli sürmüşdü. O, ictimai tərbiyə, təlimin əmək və idmanla əlaqələndirilməsi, ümumi, hərtərəfli elmi təhsil barədə pedaqoji problemlərə toxunmuşdu. T.Kampanella zehni tərbiyəyə böyük diqqət yetirməyi, onun fiziki və mənəvi-estetik tərbiyə ilə əlaqələndirilməsini, müxtəlif peşələrə yiyələnmək məqsədilə uşaqların əməkdə iştirakını təmin etməyi zəruri hesab edirdi. O, Günəş dövlətində uşaqların təliminin əyaniliyə əsaslanmasını vacib sayırdı.

Avropada pedaqoji fikrin ən görkəmli nümayəndələrindən biri ***Yan Amos Komenskidir***. Onun həyat və yaradıcılığı XVII əsrdə Qərbi Avropada ən böyük siyasi hadisələrlə bir vaxta düşmüşdü. Y.A.Komenski, 1592-ci ildə Çexiyada dəyirmançı ailəsində anadan olmuşdu. Onun dünyagörüşünün və pedaqoji fikirlərinin formalaşmasına atasının üzv olduğu «Çexiya qardaşlığı»nın demokratik meyllərinin böyük təsiri olmuşdu. Komenski 1608-ci ildə icmanın hesabına latın məktəbinə daxil olmuş, qısa müddətdə orta təhsilini başa vurmuşdu. O, iki ali məktəbdə – Hernborn və Heydelberq universitetlərində təhsil almışdı. «Dünyanın dolaşıq yolları», «Dillərin açıq qapısı», «Ana məktəbi», «Böyük didaktika» və s. əsərlərin müəllifi Y.A.Komenski pedaqoji aləmə pəncərə açmışdı. «Böyük didaktika» onun ən böyük pedaqoji əsərlərindəndir. İlk dəfə çex dilində yazılan bu əsər az müddətdə latın dilinə tərcümə olunmuşdu. Komenski əsərini həcminə görə deyil, əhatə etdiyi pedaqoji problemlərin genişliyinə görə «Böyük didaktika» adlandırmışdı. Komenski əsərin əvvəlindən sonuna qədər əldə olunan təhsilin əməli cəhətdən fayda verməsini dəfələrlə tələb edirdi. O yazırdı ki, «heç bir şeyin boş yerə öyrədilməməsi üçün hər bir predmeti mənimsəyərkən onun nə fayda verəcəyini dərhal düşünmək lazımdır». Komenski vahid məktəb ideyasını irəli sürmüş, ümumtəhsil sistemini işləmiş, hamıya hər şeyi öyrətməyi vacib bilmişdi. Onun fikrincə, təbiətin bir hissəsi olan insan öz təlim-tərbiyəsində təbiətə, onun qanunlarına əsaslanmalıdır, məktəb bütün qaydalarını dəqiq surətdə təbiətdən götürməlidir. Komenski qeyd edirdi ki, uşaqların təlim-tərbiyəsi yaş dövrlərinə uyğun qurulmalıdır. O, göstərirdi ki, cəmiyyətdə bütün siniflərin uşaqları təbii əlamətlərinə və vəzifələrinə görə bərabər sayılırlar. Ona görə də uşaqların hamısı insanı insanlıq vəzifəsinə hazırlayan eyni məktəbi keçməlidir. Komenski məktəbdə

yalnız nəyi öyrətməyi və öyrənməyi deyil, həm də necə öyrətməyin və öyrənməyin yollarını da şərh etmişdi. O, təlimin və didaktikanın mühüm məsələlərini geniş şərh etmişdi. Komenski təlimin fərdi üsulla aparılmasının əleyhinə çıxaraq dərs-sinif sistemi üzrə təlimin təşkili üçün ilk addımlarını atmışdı.

Komenski dövrü üçün diqqətəlayiq bir neçə dərs kitabı yazmışdı. 1632-ci ildə «Dillərin açıq qapısı», 1654-cü ildə «Real aləm şəkillərdə» adlı dərs kitablarını yazdı. Bu kitablar uzun müddət məktəblərin yeganə və çox yayılmış dərs kitabları olmuşdu. Zəngin həyat təcrübəsinə əsaslanaraq Komenski, «Dillərin açıq qapısı» dərsliyində uşaqların yaşlarını nəzərə alaraq zəngin material verir, həm də onları tərbiyə edir.

Y.A.Komenskinin pedaqoji fikirlərində tərbiyə məsələləri xüsusi yer tutur. O, əxlaq tərbiyəsinə böyük əhəmiyyət verərək onu inkişaf etdirməyin on altı qaydasını göstərmişdi. Çex xalq məktəbində işlənən «İntizamsız məktəb-susuz dəyirmandır» ifadəsini əsas götürərək qeyd edir ki, suyu dəyirmandan kənar edəndə dəyirman dayandığı kimi, məktəbdə də intizam olmasa, orada hər şey dağılar.

Y.A.Komenski təlim-tərbiyə işinin həyata keçirilməsində böyük qüvvə olan müəllimi gah fəal heykəltəraş, gah maarif xadimi, gah da hər tərəfi işıqlandıran günəş ilə müqayisə edir. O göstərir ki, yaxşı müəllim ancaq yaxşı görünməyə çalışan yox, həm də həqiqətən yaxşı olan müəllimdir, bütün mahiyyəti ilə müəllimdir.

Mövzu 5. Şəxsiyyətin inkişafı və tərbiyəsi

1. Şəxsiyyətin pedaqoji-psixoloji xüsusiyyətləri
2. Şəxsiyyətin inkişafı və tərbiyəsində irsiyyətin rolu
3. Şəxsiyyətin inkişafı və tərbiyəsində mühitin rolu
4. Şəxsiyyətin inkişafı və formalaşmasında tərbiyənin rolu
5. Şəxsiyyətin inkişafı və tərbiyəsində “qoşa amil” nəzəriyyəsi
6. Şəxsiyyətin inkişafında müxtəlif fəaliyyət növlərinin rolu

İnsan, onun mənşəyi, varlığı, idrakı, təlim prosesində, cəmiyyətdə rolu pedaqogikanın nəzərdən keçirdiyi məsələlərdəndir. Pedaqogika insan fəaliyyətinin bu və ya digər cəhətini öyrənməkdə, onların sirli dünyasını hələ də araşdırmaqdadır. Tarixdə insan haqqında təlimi yaradan ilk filosof Sokrat olmuşdur. O, diqqətini insanın daxili həyatını öyrənməyə yönəltmişdir. Antik mütəfəkkirlər Platon və Aristotel tərəfindən insan daha yüksək səviyyədə öyrənilmişdir. Platonun insan haqqında təlimi iki ideyaya əsaslanır. Platona görə, birinci, insan yaratmamalıdır, o, mövcud ideyalar dünyasında olanları seçib təcəssüm etdirməlidir. O, bunda azaddır. İkinci, insanın mahiyyəti onun ruhudur, onun cismi isə ruha əks olan materiyadır. Deməli, insan iki qeyri-bərabər hissədən: ali hissə olan ruhdan və aşağı hissə olan bədəndən ibarətdir. Aristotel isə əksinə, insana bədənin və ruhun vəhdəti, təbii inkişafın məhsulu kimi baxmış, onu siyasi varlıq kimi görmüşdür. Bununla o, insanın heyvandan prinsipial fərqini göstərmişdir.

İnsana olan baxışlar onun mahiyyəti və təbiəti haqqında müxtəlif konsepsiyaların yaranmasına gətirib çıxarmışdır. Şərti olaraq həmin konsepsiyaları iki qrupa bölürlər: İrrasionalist və rasionalist konsepsiyalar. İrrasionalist qrupa eksiztensializm, neotomizm, freydizm cərəyanları daxildir. Onların fikrincə, insanın varlığı və fəaliyyəti onun daxili arzu və istəklərinin təzahürü mövqeyindən öyrənilməlidir. Belə təsəvvür yaranır ki, insanın daxili aləmi haqqında onun hərəkəti, əməli, arzusu, fikri və istəklərinə əsasən danışmaq mümkündür. Fransız eksiztensialist yazıçı Alber Kamyu həyata ağıldan kənar mənasız, qanunauyğun olmayan bir proses kimi baxmışdır. Burada hər şey təsadüfdən yaranır. O qeyd edirdi ki, intellekt nöqteyi-nəzərdən nə insan, nə də dünya mənasız deyil, lakin onların birlikdə olması mənasızdır.

Unikal bir varlıq olan insana dair düzgün baxışın formalaşmasında pedaqogikanın rolu böyükdür. Ümumiyyətlə, insanda təbii (bioloji), ictimai (sosial) və mənəvi - psixoloji amillər qarşılıqlı vəhdətdə təzahür edirlər, onun formalaşması və inkişafına zəmin yaradırlar. Son zamanlaradək insana bioloji və sosial amillərin təsiri imkanları mübahisəli şəkildə təhlil edilirdi. İnsanların formalaşmasında təbii, bioloji cəhətləri mütləqləşdirən *irqçilik qaldırılması*, sosial-darvinizm, maltusçuluq və s. Konsepsiyalar biolojiləşdirmə mövq İnsanın inkişaf prosesləri məsələləri daim alimlərin marağına səbəb olmuşdur. İnkişaf amillərinin təhlili hələ antik dövrdən

başlamışdır. Şagirdlərin inkişafının öyrənilməsi sahəsində qərb və rus alimlərindən L.Termen, E.Gekkel, F.Müller, Y.Şvansar, P.P.Blonski, L.S.Vıqotski, S.L. Rubinşteyn, A.R. Luriya təqdirəlayiq nəticələr əldə etmişdilər.

eyindən çıxış etmişlər.

Şəxsiyyətin sosiallaşması hər bir adamın həyatında baş verən obyektiv hadisədir. O, insanın cəmiyyətdə sərbəst həyata başladığı zaman müşahidə olunur. Hər hansı ictimai hadisə kimi, o, da çox əhəmiyyətlidir. Ona görə o, bir çox elmlər-sosiologiya, mədəniyyətşünaslıq, tarix, etnoqrafiya, psixologiya, pedaqogika və b. tərəfindən öyrənilir. Təhsil haqqında elm kimi pedaqogikada bilik və sosial təcrübəni, mənəvi dəyərləri nəsillərdən – nəsillərə ötürməyin optimal təşkili üçün sosiallaşmanın baxımları nəzərə alınır və öyrənilir.

Şəxsiyyətin qismən sosiallaşması ailədə məhdud məişət münasibətlərində və məktəbdə bilik vermə (idrak) fəaliyyətində həyata keçirilir. Pedaqoji praktikada şagirdlərin inkişaf səviyyəsinin diaqnostikası (*təyin edilməsi*) mühüm əhəmiyyət kəsb edir. İndi bu sahəyə ehtiyac daha çox hiss olunur. Bu, baş verən dəyişikliklərin dərinliyini, sürəti və xüsusiyyətini bilmədən şəxsiyyətin formalaşması prosesini səmərəli idarə etməyin qeyri-mümkünlüyündən irəli gəlir. Vaxtilə məşhur pedaqoq K.D.Uşinski göstərirdi ki, «Əgər pedaqogika insanı hərtərəfli (*bütün sahələrdə*) tərbiyə etmək istəyirsə, onda birinci növbədə özü onu hərtərəfli bilməlidir». Şəxsiyyət haqqında nəzəriyyələri öyrənib fikir söyləmək ən məsuliyyətli və çətin məsələdir. Bu məsələ həmişə pedaqoqların araşdırmalarının mərkəzində dayanır. Şəxsiyyətin formalaşmasına dair müxtəlif fikirlər vardır. Bunun professor N.Kazımovun «Tərbiyənin elmi-pedaqoji əsasları» kitabında aşağıdakı kimi şərh edildiyini görürük: 1) irsiyyətə üstünlük verilməsi; 2) mühitə üstünlük verilməsi; 3) tərbiyəyə üstünlük verilməsi; 4) irsiyyət və mühit amillərinin yanaşı təsirinin qəbul edilməsi; 5) mühit və tərbiyə amillərinin qoşa təsirinin qəbul edilməsi.

Çox qədimdən irsiyyət hadisəsini öyrənənlər ***Hippokrat*** və ***Aristotel*** olmuşdur. Yunan filosofu Aristotel sübut etməyə çalışmışdır ki, xarakterin xüsusiyyətləri irsiyyətin nəticəsidir. O, qeyd edirdi ki, adamlar anadan olandan bir-birindən fərqlənirlər. Sanki onların bir qismi hakim olmaq, digər qismi isə tabe olmaq üçün doğulmuşdur. Platon da şəxsiyyəti irsi mövqedən xarakterizə edir. Platon göstərirdi ki, insanlar həyatda bərabər olmadıqlarından təhsillərində də bərabər deyillər. Bu bərabərsizliyin kökləri isə insanların irsi fərqlərindən irəli gəlir. O, belə

qeyd edir ki, rəislik etməyi bacaran adamların təbiətinə ilahi qızıl qarışdırdığına görə onlar qiymətlidirlər, əkinçilik və sənətkarlıqla məşğul olanların təbiətində isə guya mis və dəmir qarışığı vardır. Platon bu qruplara daxil olan adamlara fərqli təlim-tərbiyə məqsəd və üsulları irəli sürmüşdür.

İngilis filosofu ***H.Spenser*** sübut etməyə çalışırdı ki, insan xarakteri mühitdən asılı deyildir. O qeyd edirdi ki, həyatın quruluşundan asılı olmayaraq insanların qüsurlu təbiəti hərəkətlərinin yaramazlığı ilə özünü büruzə verir və göstərir ki, elə bir siyasi alət yoxdur ki, onun köməyi ilə qurğuşun instinktini qızıl əxlaqa çevirmək mümkün olsun. Amerika alimi ***E.Torndayk*** uşaq şəxsiyyətini «genlər toplayıcısı» kimi başa düşür. Onun fikrincə, uşağın inkişafında anadangəlmə instinktlər və qabiliyyətlər vardır ki, bunlar da tərbiyəni nizamlayır. Azərbaycan pedaqoji fikir tarixində mühitin roluna yüksək qiymət verən pedaqoqlar çoxdur. M.Füzuli, A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi və s. M.F.Axundov şəxsiyyətin formalaşmasına təsir göstərən amillərin rolunu qiymətləndirməkdə xeyli irəliyə getmişdi. O deyirdi ki, insan öz təbiəti etibarilə nə mehriban, nə qəzəbli, nə qorxaq, nə də cəsarətli, nə yalan danışan, nə düz danışan, nə tənbəl, nə də əməyi sevən deyildir. Axundov, insanın dəyişməsində mühitə, tərbiyəyə, elmə yüksək qiymət verirdi.

Görkəmli pedaqoq H.B.Zərdabi də mühitin insanın xasiyyətinin formalaşmasına təsirini göstərirdi. O deyirdi ki, dünya bir şeydir ki, həmişə dövran edir və insan bu dünyanın gərdişinə görə gərək öz rəftarını da dəyişdirsin, necə ki atalar məsəlində deyilir: «Zəmanə sənə saz olmasa, sən zəmanəyə saz olgilən».

Şəxsiyyətin inkişafında tərbiyə amili mühüm əhəmiyyət kəsb etməkdədir. Hələ antik dövrün böyük filosofu Platon deyirdi ki, insanı düzgün tərbiyə etsək, o, ən sakit və ilahi məxluq olar. Əgər onu tərbiyə etməsələr və ya yanlış tərbiyə versələr, o zaman o, yer üzərində olan heyvanların ən vəhşisi olar. O deyirdi ki, dövlətin gücü insanların tərbiyəsindən asılıdır. İlk dəfə fitri qabiliyyətlər nəzəriyyəsinə zərbəni ingilis filosofu Con Lokk vurmuşdur. O “Ağ lövhə” nəzəriyyəsini irəli sürərək demişdir ki, insan doğularkən “Ağ lövhə” kimi doğulur. Bu lövhəyə nə yazılarsa, insan da elə inkişaf edəcəkdir. O, belə hesab edirdi ki, uşaq dünyaya nə şair, nə həkim, nə də ağa kimi gəlir, irsən uşağa heç nə verilmir. Con Lokk insan xarakterini axar çaya, tərbiyəni isə bəndlərə bənzədirdi. Axar çayın qarşısına bəndlər vurub onun istiqamətini dəyişmək mümkün olduğu kimi, tərbiyənin gücü ilə insan xarakterini istənilən səmtə yönəltmək olar. Con Lokk iddia edirdi ki,

təsadüf etdiyimiz adamların onda doqquzu mövcud olduqları vəziyyətdə-rəhmdil və ya zalım, faydalı və ya faydasız olmalarında tərbiyəyə minnətdardırlar. İnsanlar arasındakı fərqləri məhz tərbiyə yaradır. XVIII əsrin fransız materialistləri Helvetsi, Didro və başqaları “Ağ lövhə” nəzəriyyəsini əsasən qəbul etmiş və müəyyən qədər yaymağa çalışmışlar. Helvetsi irsiyyət amilini inkar edərək tərbiyə amilini həddən çox şişirdərək deyirdi ki, “Tərbiyə hər şeyə qadirdir”. Deni Didro Helvetsiyə və Con Lokka cavab yazaraq deyirdi ki, tərbiyə amilini çox da şişirtmək lazım deyildir. “Tərbiyə hər Ģeyə yox, çox Ģeyə qadirdir. “Ağ lövhə”yə yazmaq əsas Ģərt deyildir. Əsas Ģərt “Ağ lövhə”yə kim yazır, nə yazır, necə yazır və hansı alətlə yazır” – budur əsas şərt. Deni Didro demək istəyirdi ki, şəxsiyyətin nkişafı və tərbiyəsində tərbiyəçinin də rolu böyükdür. O necə tərbiyə edir, hansı üsullarla tərbiyə edr, kimi tərbiyə edir və kim tərbiyə edir – əsas məsələ budur.

Pedaqoji və psixoloji tədqiqatlar göstərir ki, Ģəxsiyyətin strukturuna daxil olan elementlər həm koordinativ (ayrı-ayrılıqda mövcud olma), həm də subordinativ (biri digərindən asılı olma) prinsiplərə tabedir. ġəxsiyyətin strukturunda aĢağıdakı üç vacib pedaqoji və psixoloji xarakteristika ayırd edilir: 1) ġəxsiyyətin sabitliyi. Bu zaman şəxsiyyətin psixi təzahürlərinin dəyişkənliyi və sabitliyi bu və ya digər məqamlarda onun davranışının qabaqcadan müəyyənləşməsini açıq şəkildə ortaya çıxarır. Davamlı motivlər sistemi şəxsiyyətin istiqamətini müəyyən edir. 2) ġəxsiyyətin tamlığı. Bu zaman onun bütün cəhətləri digər cəhətləri ilə sıx əlaqədə olur və buna görə də şəxsiyyətin bütün cəhətləri onun digər cəhətləri üçün vacib əhəmiyyət kəsb edir. Məsələn, insanın qarşıya qoyduğu məqsədinə çatması bacarığı, çətinlikləri dəf etməsi yalnız yüksək mənəvi keyfiyyətlərlə vəhdətdə olduqda müsbət əhəmiyyət kəsb edir. 39 3) ġəxsiyyətin fəallığı. Şəxsiyyətin çoxtərəfli fəaliyyətində ortaya çıxır və bu da öz növbəsində nəyi isə dərk etmək, dəyişmək, ətraf aləmi yeniləşdirmək, öz təbiətini, öz psixi xarakterini dəyişdirməklə özünütərbiyədə aşkarlanır.

Mühit dedikdə, başlıca olaraq, ictimai, qismən isə təbii-coğrafi mühit nəzərdə tutulur. Təbii mühit-ərazinin relyefi, fauna və florası, havanın tərkibi və təzyiqi şəxsiyyətin inkişafına, onun mənəvi cəhətdən yetkinləşməsinə əhəmiyyətli təsir göstərən amillərdir. Təbii mühit anlayışına dağ, dərə, hava, su, təbiət mənzərələri, meşələr, günəş və s. daxildir. Məsələn: fiziki inkişafda, insanın sağlamlığında hava və suyun mühüm rolu olduğunu heç kim inkar entmir. Bununla belə, şəxsiyyətin inkişafında ictimai mühit, ictimai münasibətlər əsas yer tutur. İctimai mühit özü də

iki yerə bölünür: a) makromühit (kollektiv, küçə, ictimai yerlər); b) mikromühit (ailə mühiti, Ģagirdin kiminlə oturub-durması və s.) Aparılmış tədqiqatlardan belə bir nəticə çıxır ki, sosial mühit şəxsiyyətin inkişafına birbaşa deyil, həyat tərzi vasitəsilə təsir göstərir. Əgər belə olmasaydı, onda mühitin təsiri hamıya eyni cür olardı, həyat tərzinin müxtəlifliyi mühitin təsirinin transformasiya edilməsinə gətirib çıxarır. Eyni mühit daxilində hərənin bir cür həyat tərzi ola bilər ki, həmin həyat tərzi mühitin təsirini tronsformasiya edir

Şəxsiyyətin inkişafında "Qoşa amil" nəzəriyyəsi də mövcuddur. Bu nəzəriyyənin qabaqcıl nümayəndələrindən biri Stenli Holl olmuşdur. Bu amil özünü müxtəlif formalarda göstərir. Bu nəzəriyyəyə görə, uşağın taleyi bir tərəfdən özü 49 ilə irsən gətirdiyi bioloji amillə, o biri tərəfdən isə onun yaşadığı ictimai mühitlə (ailə, məhəllə və s.) və ya tərbiyə ilə əlaqəlidir. Bir qrup alimlər isbat etməyə çalışmışlar ki, şəxsiyyəti inkişaf etdirən həm mühit, həm də tərbiyədir. Bu nəzəriyyənin nöqsanı yalnız irsiyyətin rolunu inkar etməkdən ibarət deyil, həm də odur ki, şəxsin fəallığı, onun mühitə olan təsiri unudulmuşdur. "Qoşa amil" nəzəriyyəsinin başqa formasında iddia edilir ki, şəxsiyyət həm irsiyyətin, həm də mühitin məhsludur. Şəxsiyyətin formalaşmasında irsiyyət və mühitin və ya mühit və tərbiyənin, yaxud da irsiyyət və tərbiyənin rolunu qiymətləndirən pedaqoqlar, filosof və psixoloqlar olmuşlar ki onlar da "Qoşa amil" nəzəriyyəsinin tərəfdarları olmuşlar. Mühit amilinə məhəl qoymayan, şəxsiyyətin formalaşmasını irsiyyət və tərbiyə amilləri ilə izah etməyə, meyil göstərənlər də olmuşdur. Onların fikrincə, tərbiyə şəxsiyyətin təbii qüvvələri üzərində qurulmalıdır: təbii qüvvələr. Yəni irsi imkanlar nə qədər etibarlıdırsa, şəxsin tərbiyəsi də bir o qədər müvəffəqiyyətli olur. İ.H.Pestalotsi bu nəzəriyyənin ən parlaq nümayəndəsidir. Görkəmli pedaqoq A.S.Makarenko təcrübədə sübut etmişdir ki, uşaqlarda pozğun əxlaq nəinki pozğun mühitin, həm də özbaşına buraxılmış tərbiyənin nəticəsidir. Həmin uşaqlar düzgün tərbiyə işi ilə fəal şəkildə əhatə olunarsa və mühitin fəal amilinə çevrilərsə, qüsurlu mühitin və qüsurlu tərbiyənin məhsulu hesab edilən əxlaqi keyfiyyətləri aradan qaldırmaq və əvəzində cəmiyyət üçün faydalı keyfiyyətlər formalaşdırmaq olar. "Qoşa amil" nəzəriyyəsinin ünsürlərinə böyük Azərbaycan şairi S.Ə.Şirvaninin yaradıcılığında da rast gəlmək olur. Şair şəxsiyyətin formalaşmasında tərbiyəyə böyük qiymət verdiyi kimi, mühitin də böyük qüvvəyə malik olduğunu göstərir. O, şeirlərinin birində mühitin rolunu belə ifadə etmişdir: Ey oğul, tutma nanəcib ilə xu, Türkidə bir gözəl məsəldir bu. At yanındakı bağlandı yabu, Rəngi bir olmasa, olur həmxu. Elm

dəqiqliyə can atır, bu onun məqsədidir. Amma insan mənəviyyatı və onun inkişafı ilə bağlı ən ciddi hesablamalar belə həqiqətə tam uyğun ola bilməz. Hər bir insan özünəməxsus tərzdə inkişaf edir, ona mühit və irsiyyət öz təsir "payı"nı göstərir. Bu təsir "payı" hesablamaq və ölçmək olduqca çətin bir işdir.

Şəxsiyyətin inkişafında və formalaşmasında müxtəlif fəaliyyət növlərinin rolu böyükdür. Şəxsiyyət fəaliyyət prosesində formalaşır, inkişaf edir və tərbiyələnir. İnkişaf, tərbiyə və formalaşma–hər üç məfhum bir-birilə ayrılmaz surətdə üzvi əlaqədə və vəhdətdədir. Şəxsiyyət - xüsusilə inkişafda olan uşaq və yeniyetmələr hər gün, hər saat fəaliyyətdədir. İnsanın normal fəaliyyət vəziyyəti, yalnız yuxu istisna olmaqla qalan hallarda fəal hərəkət vəziyyətində olur. İnsan nə qədər ki, yaşayır daim hərəkətdə, fəaliyyətdə olur, işləyir, oxuyur, oynayır, başqa insanlarla ünsiyyət və münasibətdə olur. Bir sözlə, şəxsiyyət daim işdə, əməldə və fəaliyyətdədir. Fəaliyyətsiz insan inkişaf edə bilməz, yaşaya bilməz, mənəviyyatca yüksələ bilməz. Bəs fəaliyyət nədir? Fəaliyyət insanın cəmiyyət və insanlar tərəfindən yerinə yetirilməsi tələb olunan, öz maraq və tələbatlarının ödənilməsinə yönələn, qarĢıya qoyduğu məqsədə çatmaq üçün göstərdiyi akt və fəallıqdır. İnsan həm ətraf mühitdə, həm də təlim və tərbiyə prosesində müxtəlif fəaliyyət növlərinə cəlb olunur. Burada isə fəaliyyətə şəxsiyyətin inkişafının, tərbiyəsinin mühüm amili kimi ayrıca baxılır. İnsanın bir şəxsiyyət kimi inkişafının, mənəvi cəhətdən formalaşmasının əsas şərti onun yerinə yetirdiyi çoxplanlı, çoxnövlü fəaliyyətidir. Müxtəlif fəaliyyət növləri ilə məşğul olarkən şəxsiyyət başqa fərdlərlə və kollektivlərlə müxtəlif ünsiyyət və münasibətdə olur. Təcrübələrdən məlum olmuşdur şəxsiyyət nə qədər çox müxtəlif fəaliyyət növlərinə cəlb olunursa, nə qədər çox insan qrupları ilə, fərdlərlə ünsiyyət və münasibətdə olursa şəxsiyyətin hərtərəfli inkişafı da bir o qədər sürətlə gedir və inkişaf səviyyəsi də bir o qədər yüksək olur

Mövzu 6. Pedaqoji innovasiyalaranın əsasları

1. Pedaqoji prosesin mahiyyəti
2. Pedaqoji prosesin qanunauyğunluqlar
3. Pedaqoji innovasiyaların əsasları

Pedaqogikanın ən mühüm məsələlərindən biri də pedaqoji prosesdir. Bu prosesə tədris müəssisələrində aparılan bütün təlim, tərbiyə, təhsil və inkişaf məsələləri daxildir. Bəzi pedaqoji ədəbiyyatda bu, «təlim-tərbiyə prosesi» anlayışı kimi də işlədilir.

Pedaqoji prosesə təkcə tədris müəssisələrində aparılan təlim, tərbiyə, təhsil və inkişaf məsələləri deyil, habelə məktəbəqədər təhsil, mədəni-maarif, istehsalat müəssisələrində, məktəbdənkənar tərbiyə ocaqlarında, ictimai təşkilatlarda aparılan təlim-tərbiyə işi, ailədə tərbiyə təcrübəsi də aiddir. Deməli, müxtəlif sahələri əhatə edən təlim-tərbiyə müəssisələrində aparılan təhsil, təlim, tərbiyə və inkişaf məsələləri pedaqoji prosesin mahiyyətini təşkil edir. Məhz buna görə də bir çox pedaqoji ədəbiyyatda o, tam, vahid pedaqoji proses kimi qiymətləndirilir. O, əslində güman edilən məqsədə çatmaq üçün öyrədənlərlə öyrənənlərin qarşılıqlı təsiri, əlaqəsidir. Bu, təlimin, tərbiyənin, təhsilin və inkişafın vəhdəti şəraitində həyata keçirilir. Eyni zamanda, bu vəhdət təlim, tərbiyə, təhsil və inkişafın özünəməxsus mahiyyətini, səciyyəvi cəhətlərini və təşkili formalarını inkar etmir.

Pedaqoji proses bir sistem kimi çox mürəkkəb mexanizmdir. O, təlim-tərbiyə, təhsil, inkişaf, formalaşma, öyrədənlərlə öyrənənlərin, tərbiyə edənlərlə tərbiyə olunanların qarşılıqlı əməkdaşlığı və s. prosesləri özündə ehtiva edir. Bu proseslər müxtəlif mühit və şəraitdə, müxtəlif forma və metodlarla həyata keçirilir.

Pedaqoji prosesin özünəməxsus obyekti və subyekti mövcuddur. Onun obyektini ayrı-ayrı fərdlər (uşaqlar, şagirdlər, tələbələr və s.) və onların toplandığı qruplar təşkil edir.

Pedaqoji prosesin subyektini ayrı-ayrı şəxslər, yəni tərbiyə edənlər (tərbiyəçi, müəllim, valideyn, idarə başçıları və s.) və ya təhsil qurumları (məktəb, pedaqoji şura və s. qurumlar) təşkil edir.

Pedaqoji prosesin obyekt və subyekti bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdədirlər. Pedaqoji prosesin heç də həmişə passiv olmayan obyekti nəinki subyektin tərbiyəvi təsirinə məruz qalır, o, bəzən özü subyektə təsir göstərir. Bu da pedaqoji prosesin səmərəliliyini artırır.

Pedaqoji prosesin obyekt və subyektinin qarşılıqlı təsiri məlumat, təşkilatı fəaliyyət, ünsiyyət, idarə, səbəb-nəticə, meyli üzə çıxaran əlaqələr formalarında özünü təzahür etdirir. Bunların hərəsinin özünəməxsus məzmun və mənaları

vardır. Məlumat əlaqəsi obyekt və subyekt arasında ictimai məna kəsb edən mübadiləni; təşkilati fəaliyyət təsiri forması fəaliyyətin sosial məzmununu; ünsiyyət əlaqəsi müxtəlif formalı adi insani ünsiyyəti; idarə əlaqəsi verilən tapşırıqların icrasını; səbəb-nəticə təsir forması təlim-tərbiyə vaxtı uğur və nöqsanların öyrənilib təhlil edilməsini və tədbirlər görülməsini, meyli üzə çıxaran əlaqə qarşılıqlı pedaqoji təsirin inkişaf meylini müəyyən etməyi nəzərdə tutur.

Pedaqoji proses dinamik sistem kimi öz quruluşuna və quruluş elementlərinə (*komponentlərə*) malikdir. Onlardan məqsəd, məzmun, fəaliyyət və nəticə elementlərini (*komponentlərini*) göstərmək olar. Məqsəd komponenti pedaqoji prosesin məqsəd və vəzifələrini, məzmun komponenti ümumi məqsəddən, habelə konkret vəzifədən tələb olunan mənanı, fəaliyyət komponenti müəllim və şagirdlərin əməkdaşlığını və qarşılıqlı təsiri, prosesin təşkili və idarə olunmasını, nəhayət, nəticə komponenti qarşıya qoyulan məqsəd və vəzifələrin nəticələrini və onların səmərəliliyini əks etdirir. Son onilliklərdə dünyanın, cəmiyyətin inkişafında ciddi ictimai-siyasi, mədəni, elmi, texnoloji dəyişikliklər baş vermişdir. Onlar pedaqogika elmində də öz əks-sədasını tapmışdır. Təhsil, təlim, tərbiyə prosesini yaxşılaşdırmaq və təkmilləşdirmək məqsədilə pedaqoji sistemdə də yeniliklər həyata keçirilməyə başlamışdır. Bunların əksəriyyəti inkişafın xarici amillərinin təsiri ilə yanaşı, pedaqoji təhsil sisteminin daxili imkanları, ehtiyatları hesabına baş vermişdir. Son ədəbiyyatlarda bunlar innovasiya adlandırılır. Sözün lüğəti mənası *in* – daxili, *novasiya* – yenilik deməkdir. Deməli, innovasiya pedaqoji sistem daxilində baş vermiş yeniliklərin məcmusudur.

Doğrudan da, son onillikdə dünyada, dünya elmində, o cümlədən pedaqoji sistemdə, çox böyük dəyişikliklər baş vermişdir. Yeni konsepsiyalar, dövlət standartları, yeni tipli məktəblər, inteqrasiyalaşmış elmlər, fənlər, alternativ tədris planları, dərsliklər yaranmışdır.

Fikrimizcə, bu təbii prosesdir. Çünki yeniliklər yaranmasa, onlara etinasızlıqla yanaşılsa, pedaqoji sistem, onun idarə edilməsi, texnologiyası təkmilləşdirilməsə təhsil, təlim-tərbiyə prosesinin səmərəliliyi də olmaz.

Bildiyimiz kimi, pedaqoji sistemin təkmilləşdirilməsinin iki başlıca yolu vardır. Onlardan biri intensiv (*«intensif»* fransız sözündən götürülmüşdür. Mənaca *gücləndirmək, səmərəliliyi artırmaq* deməkdir) və *ikinci ekstensivdir* (*«extensinus»* latın sözündən götürülmüşdür. Mənaca *genişləndirmək, artırmaq* deməkdir).

İntensiv yol pedaqoji sistemin inkişafı və məhsuldarlığını daxili ehtiyatlar, onlardan səmərəli istifadə etmək, tətbiq etmək yolu ilə təmin edilməsini nəzərdə tutur. Ekstensiv yol isə pedaqoji sistemin inkişafı və səmərəliliyi üçün yeni əlavə qüvvələrin, vasitələrin – avadanlıqların, texnologiyanın, investisiyaların və s. cəlb olunması yolu ilə əldə edilir.

Pedaqoji sistemin inkişafı bəzi ölkələrdə, o cümlədən Azərbaycan və Qərbdə ekstensiv yolla inkişaf etdirilir. Onlar yeni informasiya texnologiyası yaratmaq, vaxt bölgüsünə yenidən baxmaq, mövcud təlim-tərbiyə metod və formalarını təkmilləşdirmək, sinif işinin diferensiasiyası və fərdiləşdirilməsini həyata keçirmək hesabına pedaqoji səmərəliliyi və məhsuldarlığı kəmiyyətcə artırmağa nail olurlar. Bununla yanaşı, dünya pedaqoji sistemini təkmilləşdirmək məqsədilə intensiv inkişaf prosesi də getməkdədir.

Pedaqoji sistemin təkmilləşməsində meyllərdən biri də intensiv və ekstensiv inkişaf yollarının birləşdirilməsi, inteqrasiyası yoludur. Burada söhbət pedaqoji innovasiyaların inteqrasiyasından gedir. Bu da pedaqoji sistemin hələ istifadə olunmayan ehtiyatlarının, imkanlarının dərin tədqiq edilməsini tələb edir. Bu yol güman ki, pedaqoji sistemin səmərəliliyini artırmağın ən optimal yoludur.

Pedaqoji sistemin innovasiyası başlıca olaraq ümumən pedaqoji sistemdə, təhsil müəssisələrində, pedaqoji nəzəriyyədə, müəllim və şagirdlərdə, pedaqoji texnologiyada, təlim-tərbiyənin məzmununda, forma, üsul və vasitələrində, idarəetmədə, məqsəd və nəticələrdə gedir.

Müasir yeniləşmə prosesinin təhlili əsasında pedaqoji sistemdə gedən innovasiya prosesini üç növə ayırmaq olar:

1) *aşağı səviyyə*. Burada yeni qeyri-adi adlar və ümumi ifadələrdə dəyişikliklər aparılması güman edilir;

2) *orta səviyyə*. Burada mahiyyətə toxunulmadan formalar dəyişir;

3) *yüksək səviyyə*. Burada bütün sistemin və ya onun başlıca komponentlərinin əsaslı dəyişməsi baş verir.

Əslində üçüncü səviyyə yüksək elmi və praktiki dəyərə malikdir. Qalanlar keçici xarakter daşıyır və «innovasiya» xatirinə edilir. Təhlil göstərir ki, üçüncü səviyyə innovasiyanın çox cüzi hissəsini, ancaq 3 faizini təşkil edir.

Humanist pedaqogikanın təşəkkülünə pedaqoji sistemdə sözün əsl mənasında gedən innovasion prosesi nümunə kimi göstərmək olar. Sözügedən pedaqogikanın başlıca mahiyyətini tərbiyə olunanların təlim-tərbiyə prosesinin fəal, şüurlu, bərabər hüquqlu iştirakçılarına çevrilməsi təşkil edir. Humanist pedaqogika şəxsiyyətin əsil mənada psixi, fiziki, intellektual, əxlaqi və b. cəhətdən inkişafına xidmət edir. O, təlim-tərbiyə prosesində vaxtilə kök salmış avtoritar pedaqogikadan imtina edir.

Humanist məktəblərin təcrübəsi artıq innovasion fəaliyyətin konkret forma və üsullarını müəyyən etmişdir. Onlardan aşağıdakıları göstərmək olar:

1. Təlim-tərbiyə fəaliyyətinin diferensiasiyası;
2. Tərbiyə və təlim prosesinin fərdiləşdirilməsi;
3. Hər bir tərbiyə olunanın meyl və qabiliyyətini inkişafı üçün əlverişli şəraitin yaradılması;
4. Homogen (eyni mənşəli) siniflərin və paralellərin formalaşdırılması;
5. Təlim-tərbiyə fəaliyyəti üçün rahat şəraitin olması;
6. Psixoloji təhlükəsizlik, şagirdlərin müdafiə edilməsi;
7. Şagirdə və onun imkanlarına inam;
8. Şagirdi necə varsa elə qəbul etmək;
9. Təlim və tərbiyənin uğurlu olması;
10. Məktəbin məqsəd istiqamətinin dəyişməsi;
11. Hər bir şagirdin inkişaf səviyyəsinin əsaslandırılması;
12. Qiyabi, ekstern təlimin aradan götürülməsi;
13. Müəllimlərin şəxsi daxili yönümünün dəyişdirilməsi;
14. Humanitar təhsilin gücləndirilməsi.

Qeyd edək ki, hazırda müstəqillik şəraitində Azərbaycan təhsil sistemində güclü innovasion proseslər baş vermiş və o, davam etməkdədir. Respublikada onlarla gimnaziya, lisey, seminariya, kollec, akademiya tipli dövlət və özəl tədris müəssisələri təşəkkül tapmışdır. Universitetlərə çevrilmə kütləvi hal almışdır.

İnnovasiyanın bir istiqaməti də təlim-tərbiyə və təhsil prosesinin optimallaşdırılmasıdır. Optimallaşdırma (*optimum* sözündən götürülmüş, mənaca *ən yaxşı* deməkdir) bu və ya digər işdə, habelə pedaqoji işdə mümkün olan variantların ən yaxşısını seçib götürmək deməkdir. Pedaqoji optimallaşdırmada başlıca məqsəd pedaqoji sistemdə mövcud olan onlarla forma, üsul və variantlardan ən yaxşılarını axtarıb tapmaq, onları müqayisə etmək, alternativləri müəyyən etmək deməkdir.

Optimallaşdırmanın iki istiqaməti vardır: nəzəri aspektdə və praktiki aspektdə optimallaşdırma.

Nəzəri aspektdə optimallaşdırma dedikdə onun sinonim variantlarını tapmaq, onları müqayisə etmək və tutuşdurmaq nəzərdə tutulur.

Praktiki aspektdə optimallaşdırma pedaqoji sistemin yeniləşdirilməsi (innovasiya), yenidən təşkili və qurulması, qarşıya qoyulan məqsədə çatmaq üçün onun ən yaxşı vəziyyətə gətirilməsidir.

Optimallaşdırmanın metodoloji əsasını sistemli yanaşma təşkil edir. Bu da pedaqoji prosesin bütün komponentlərini, qarşılıqlı əlaqələrini, qanunauyğunluqlarını vəhdətdə götürməklə səciyyələnir. Optimallaşdırma mövcud pedaqoji prosesin vəziyyətinə və şəraitinə uyğun aparılmalıdır. Bununla bərabər, optimallaşdırma özü də öz növbəsində yeni şərait yaradır və pedaqoji prosesin ona uyğun aparılmasını tələb edir.

Pedaqoji prosesdə optimallaşdırmanın aparılmasında müəllim ən başlıca simadır. O, bu vəzifəni yerinə yetirmək üçün mütləq yüksək pedaqoji biliyə, pedaqoji qanunauyğunluqlara və prinsiplərə, pedaqoji prosesin təşkili texnologiyasına yiyələnmiş olmalıdır. Habelə təhsilin, təlim-tərbiyənin və inkişafın müasir vəzifələrini başa düşməlidir. Araşdırmalar göstərir ki, pedaqoji prosesdə optimallaşdırma aparmaq üçün müəllim aşağıdakı şəxsi keyfiyyətlərə malik olmalıdır:

a) yaradıcı təfəkkür;

b) təfəkkür çevikliyi;

c) təfəkkür konkretliyi;

ç) təfəkkür sistemliliyi;

d) həddi gözləmək qabiliyyəti;

e) tez ünsiyyətə girmək və pedaqoji etikanı gözləmək qabiliyyəti və s.

Fikrimizcə, müasir mürəkkəb şəraitdə təlim-tərbiyə işinin optimallaşdırılması metodikasını bilmək hər bir müəllim üçün çox vacib və zəruri şərtdir.

Pedaqoji inovasiyalardan biri də milli kurrikul çərçivə sənədinin qəbul edilməsidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Ümumi Təhsilinin Milli Kurikulumu. Bakı, 2009.

2. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.

3. Bədəlova Ə.S. Azərbaycan xalq pedaqogikası. Bakı: Müəllim, 2009.

4. Bədəlova Ə.S. Təlim və tərbiyə. Bakı: ADPU, 2015.

5. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006. 6. Əliyev İ.İ. Azərbaycan etnopedaqogikası. (Dərs vəsaiti) Bakı: Nurlan, 2010.

Mövzu 7. Pedaqoji fəaliyyətin xüsusiyyətləri

1. Pedaqoji fəaliyyətin xüsusiyyətləri
2. Müəllimin şəxsiyyəti və vəzifələri
3. V,A.Suxomlinskinin müəllimə haqqında fikirləri

Məktəbdə təlim-tərbiyə prosesini təşkil və həyata keçirənlərdən biri də müəllimdir. Müəllim pedaqoqdur, tədris edəndir, təhrik edəndir və ustadır. Pedaqoji fəaliyyətin əsas simalarından biri olan müəllimlər gənc nəsillərin tərbiyə olunması kimi məsul işi yerinə yetirirlər. Pedaqoji fəaliyyət tələbatdan yaranır və

tələbatların ödənilməsi ilə təşəkkül tapır. Pedaqoji fəaliyyət prosesində müəllim şəxsiyyəti formalaşır, zənginləşir və inkişaf edir. Pedaqoji fəaliyyət dedikdə gənc nəslin tərbiyə olunmasına yönələn fəaliyyət başa düşülür. Başqa sözlə desək, təlim, tərbiyə, inkişaf prosesinin həyata keçirilməsinə, o cümlədən şagird şəxsiyyətinin formalaşmasına yönəldilən peşə fəallığı başa düşülür. Pedaqoji fəaliyyətin strukturunu aşağıdakı cəhətlər təşkil edir.

1. Pedaqoji fəaliyyətin məqsədi bu cəmiyyət üçün yararlı, hərtərəfli, ahəngdar inkişaf etmiş vətəndaşlar tərbiyə etməkdən ibarətdir.
2. Pedaqoji fəaliyyətin subyekti bilik verən, tərbiyə edən hesab olunur.
3. Pedaqoji fəaliyyətin obyekti isə bilik, bacarıqlara yiyələnən, tərbiyə olunan hesab edilir.
4. Pedaqoji fəaliyyətin vasitələri dedikdə təlim-tərbiyənin formaları, istifadə olunan metodları, qaydaları və s. nəzərdə tutulur.
5. Pedaqoji fəaliyyətin şərtləri sırasına böyüyən nəslin tərbiyəsinə cəmiyyətin qayğısı, təlim-tərbiyənin səmərəliliyini şərtləndirən amillərin olması (*məktəblərin vaxtlı-vaxtında təmir olunması, avadanlıqların səliqəliliyi*), kollektivin həmrəyliyi, məktəb müəllimlərinin bilik və bacarıqlarının yüksək olması və s. daxildir.
6. Pedaqoji fəaliyyətin nəticələri nisbətən gec görünən prosesdir. Tədris ilinin sonunda müxtəlif yoxlamalar, müqayisələr aparmaqla bunu ayırd etmək olur. Şagirdlərdə yüksək keyfiyyətlərin formalaşdırılması buna aiddir.

Pedaqoji fəaliyyət mürəkkəb və çoxsahəlidir. Qarşıda duran vəzifələrdən asılı olaraq pedaqoji fəaliyyətin öyrətmə, tərbiyə etmə, təşkilatçılıq, təşviqatçılıq, özünütəhsil və s. növləri mövcuddur. Bunların hər biri müəyyən quruluşa malikdir.

Qeyd etdiyimiz kimi, pedaqoji fəaliyyətin subyekti müəllimdir, yəni öyrədən, bilik verən, tərbiyə edəndir. Pedaqoji ədəbiyyatlarda müəllimə bir çox tərifl ər verilmişdir. Müəllimə məhdud və geniş mənada aşağıdakı kimi tərif verilir:

Məhdud mənada müəllim dedikdə kiməsə, nəyisə öyrədən şəxs başa düşülür. Kiməsə – şagirdə, tələbəyə, aspiranta və s. nəyisə – tarixi, ədəbiyyatı, riyaziyyatı və s. öyrədən anlanılır.

Geniş mənada müəllim dedikdə xüsusi təhsil görmüş, ümumtəhsil məktəblərinin birində uşaqları bilik, bacarıq və vərdişlərlə silahlandıran şəxs başa düşülür. Ədəbiyyatlarda başqa tərifl ərə də rast gəlinir.

Məsələn, bəziləri öz elmi ideyaları ilə bəşəriyyətə yeni yol göstərmək üçün xüsusi təhsil görmüş şəxslərə müəllim demişlər. Digərləri: bəşəriyyətin tarix boyu toplamış olduğu təcrübənin əsaslarını yeni nəslə ötürmək məqsədilə xüsusi hazırlıq keçmiş şəxslərə müəllim deyirlər. Başqa bir tərif: *Müəllim gənc nəsli sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlərlə məqsədyönlü, planlı və mütəşəkkil şəkildə silahlandırmaq yolu ilə nəsillər arasında mənəvi əlaqə yaradan, xalq təsərrüfatının, elmin, mədəniyyət və incəsənətin sonrakı inkişafına güclü təkan verən pedaqoji təhsilli işçidir* (*şəxsdir*).

Bildiyimiz kimi, müəllim məktəbdə təlim-tərbiyə prosesini təşkil edən və həyata keçirən şəxsiyyətdir. Buradan belə qənaətə gələ bilərik ki, müəllim (*pedaqoq, tərbiyəçi, usta*) xüsusi hazırlığı olan və pedaqoji fəaliyyətlə məşğul olan insana deyilir.

Müəllim kürsüsündə əyləşən adam hər şeyə məsuldur, hər şeyi bilir və bacarır. Müəllimlik vəzifəsini səciyyələndirən əsas cəhət hər bir şagird, böyüməkdə olan nəsil üçün cəmiyyət və dövlət qarşısında məsuliyyət daşımaqdır. Cəmiyyətimizin gələcəyi müəllimin indiki işinin nəticələrindən asılıdır.

Müəllimlik işi insan fəaliyyətinin ən mürəkkəb növlərindəndir. Buradan belə sual ortaya çıxır: müəllim başqa adamlardan – müəllim olmayanlardan nə ilə fərqlənir? Onun pedaqoji ali məktəb diplomu olmaqlamı?

Bu suala birmənalı cavab verənlər yanılırlar. Müəllimlik xüsusi məsuliyyətli, çox çətin və mürəkkəb peşədir. Xalq arasında onu insan qəlbinin mühəndisi adlandırırlar.

Əfsuslar ki, hələ XX əsrin 60-cı illərində, Sovet cəmiyyətində yaşadığımız zaman Azərbaycanda hər kəsi «müəllim» deyə çağırırdılar. Müqəddəs müəllim adını adiləşdirirdilər. Hətta bu adın bütün vətəndaşlar üçün müraciət vasitəsi olması barədə mətbuatda diskussiyalar da keçirirdilər. Fikrimizcə, bu tam səhv və yanlış addım idi.

Müəllim kimdir, nə edir və onun pedaqoji vəzifələri (funksiyaları) nədən ibarətdir?

Müəllimin başlıca vəzifəsi təlim prosesini idarə etmək, təhsil vermək, tərbiyə etmək, şagirdləri inkişaf etdirmək və formalaşdırmaqdan ibarətdir. O, təkcə öyrətmir, tərbiyə etmir, həm də təlim prosesinə rəhbərlik edir, onu istiqamətləndirir. Məşhur yunan filosofu Sokrat hələ vaxtilə peşəkar pedaqoqları «əqlin (*fikrin*) törədiciləri» adlandırmışdı. Onun pedaqoji ustalıq barədə təlimi «mayevtika» adlanırdı. Bu da latıncadan çevirəndə «ara mama həkimləri» demək idi. Deməli, bilikli müəllim hazır gerçəkliklər barədə məlumatları verməklə deyil, şagirdin başında yeni fikirlərin yaranmasına kömək etməlidiPedaqoq bilavasitə peşə vəzifələrindən başqa, ictimai, vətəndaşlıq, ailə vəzifələrini də yerinə yetirir. Böyük çex pedaqoqu Y.A.Komenski sinifdə dərs deyən müəllimi şüa saçan günəşə bənzətmişdir. Günəş öz şüası ilə canlı aləmə həyat verdiyi kimi, müəllim də öz saçdığı bilik şüası ilə gənc nəsli həyata hazırlayır.

Məşhur rus pedaqoqu K.D.Uşinski müəllimi «gənc qəlblər üçün məhsuldar günəş şüaları»na bənzətmişdi. O göstərirdi ki, əgər biz həkimlərə öz sağlamlığımızı etibar ediriksə, pedaqoqlara uşaqlarımızın əxlaqını, ağlını, ruhunu və bütün bunlarla bərabər öz vətənimizin gələcəyini etibar edirik. Onun müəllim haqqında söylədiyi fikirlər bir sıra əsərlərində və xüsusən «müəllim seminariyasının layihəsi»ndə öz əksini tapmışdırr.

Pedaqoji fəaliyyətin düzgün qurulması həm də müəllimin pedaqoji bacarıq və vərdişlərə malik olmasından çox asılıdır. Belə ki, müəllim dərin biliyə, yaradıcılığa, geniş təfəkkürə malik olmaqla bərabər, həm də öz biliyini şagirdlərin malı etməyi bacarmalıdır. Pedaqoji ədəbiyyatların bir qismində müəllimin ümumi pedaqoji bacarıq və vərdişləri fərqləndirilir. Məsələn, professor A.İ.Şerbakov bunu aşağıdakı kimi qruplaşdırmışdır:

1) məlumatverici bacarıq və vərdişlər;

2) səfərbəredici bacarıq və vərdişlər;

3) inkişafetdirici bacarıq və vərdişlər;

4) istiqamətləndirici bacarıq və vərdişlər.

Məlumatverici bacarıq və vərdişlər dedikdə müəllimin ilk növbədə hər hansı bir elmi materialı didaktik yolla şagirdlərə çatdıra bilməsi başa düşülür. Bunun üçün müəllim həmin materialı şagirdlərin başa düşəcəyi səviyyədə qurmalı, didaktik məsələləri seçməli, onların tətbiq olunma və aşılanma yollarını hazırlamalı və şagirdlərə çatdırmalıdır.

Müəllim tədris materialını şagirdlərə çatdırmaq üçün müvafiq metodlar seçib müəyyənləşdirməli, təlimin texniki vasitələrindən və əyanilikdən istifadə etməlidir. Həmçinin onların inkişaf sistemini hazırlamalıdır.

Bunlarla birlikdə, proqramlaşdırılmış, alqoritmləşdirilmiş, interaktiv və başqa formalardan, təlim ünsürlərindən istifadə etməklə bərabər, dərsdə əks-əlaqəni yaratmağı da unutmamalıdır.

Müəllimin danışığı şagirdlər üçün aydın olmalıdır. O, məntiqi, qısa və ifadəli danışmağı bacarmalıdır. Müəllim ekskursiyanın növlərindən istifadə etməklə onların təşkilini həyata keçirməyi, tədris emalatxanalarında şagirdlərin işini təşkil etməyi bacarmalıdır.

Müəllimin **əsas pedaqoji qabiliyyəti didaktik qabiliyyətdir. Didaktik qabiliyyət** təlim materialının məzmununu şagirdlərin səviyyəsinə uyğun qurmaq, şagirdləri təlimə cəlb edə bilmək, onların müstəqil və yaradıcı fəaliyyətini inkişaf etdirmək, keçilən hər bir mövzunu aydın, anlaşıqlı dildə izah edə bilmək və s. hesab olunur. Didaktik qabiliyyətlərə müəllimin **izah edə bilmək qabiliyyətini, ekspressiv – nitq (*natiqlik*) qabiliyyətini, nəzəri (*akademik*)** qabiliyyətini aid etmək olar.

Nəzəri (*akademik*) qabiliyyət də müəllimin əsas qabiliyyətlərindən sayılır. Müvafiq fənn, elm sahəsi ilə bağlı olan bu qabiliyyət müəllimin tədris etdiyi fənni dərindən bilməsi ilə xarakterizə olunur. Belə qabiliyyətə malik olan müəllimlər tədris etdikləri fənni dərindən bilməklə bərabər, öz fənlərinin tədqiqatçısı olurlar. Belə qabiliyyətli müəllimlər bilik dairəsinə və səviyyəsinə görə başqalarından fərqlənir, seçilirlər. Onlar lazım gələndə müəllimlərin yaxın köməkçisinə və elmi məsləhətçisinə çevrilirlər.

Pedaqoji qabiliyyətlər sırasına müəllimin **təşkilati-kommunikativ qabiliyyəti** də daxildir. Təşkilati qabiliyyətlərə aşağıdakıları aid etmək olar: təşkilatçılıq qabiliyyəti, avtoritar qabiliyyət, kommunikativ qabiliyyət, perseptiv qabiliyyət, suqqestik qabiliyyət, pedaqoji mərifət və s. Pedaqoji prosesdə fəal varlıq olan

müəllim ünsiyyətin yaradılması mexanizminə yaxşı yiyələndikdə təlim-tərbiyə prosesinin səmərəliliyinə nail ola bilir. Məlumdur ki, ünsiyyət əsasında insan öz bilik və təsəvvürlərini, şəxsi mülahizələrini, rəy və münasibətlərini bir-birinə çatdıra bilir. Bunun sayəsində insanlar bir-birini anlayır və bir-birinə təsir edir. Ünsiyyət olmadan heç bir insan birgə fəaliyyətə nail ola bilməz. Pedaqoji fəaliyyətin müvəffəqiyyətlə həyata keçməsi pedaqoji ünsiyyətdən çox asılıdır. Müəllimin şagirdlərlə təlim-tərbiyə prosesində həyata keçirdiyi ünsiyyət pedaqoji ünsiyyət adlanır.

Mövzu 8. Təlim prosesinin mahiyyəti

1. Təlim prosesinin mahiyyəti
2. Didaktik mövzunun təlim prosesləri
3. Təlimin funksiyasi və qruluşu

Pedaqogika elmi təlim və tərbiyəni vəhdətdə öyrənir. Onun tərkib hissəsi olan didaktika isə pedaqogikada təlimi nəzəri səviyyədə öyrənən bölmədir. Bu elm pedaqogikaya XVII əsrdə daxil edilmişdir. Didaktika terminini ilk dəfə işlədən alman pedaqoqu ***Volfqanq Ratke*** (1571-1635) və çex pedaqoqu ***Yan Amos Komenski*** (1592-1670) olmuşlar. Bu anlayışın mahiyyətini həmin şəxslərin hərəsi bir cür aydınlaşdırmışlar. V.Ratke qeyd edirdi ki, didaktika elmləri, dilləri, incəsənəti öyrətmək məharətidir. Y.A.Komenski 1657-ci ildə nəşr etdirdiyi məşhur «Böyük didaktika» əsərində didaktikanın mahiyyətini şərh etmişdir. Didaktika yunanca «didaktikos», yəni öyrədən və «didasko» – öyrənən sözlərindən ibarətdir. Buna əsaslanan Y.A.Komenski didaktikaya «hər şeyi hamıya öyrətmək sənətidir» tərifini vermişdi. Pedaqoji fikir tarixində didaktikanı gah təhsil, gah təlim, gah da təlim və təhsil nəzəriyyəsi kimi aydınlaşdırmaq cəhdləri olmuşdur. Bu cəhdlərə

baxmayaraq, deyə bilərik ki, əslində didaktika təhsil və təlim haqqqında nəzəriyyədir. Didaktika pedaqogikanın əsas bölmələrindən biridir. Təhsil və təlimin mahiyyətindən məqsəd və vəzifələrindən, məzmunundan, prinsip və metodlarından, qanun və qanunauyğunluqlarından, vasitələrindən, təşkili formalarından bəhs edən hissəsi təlim və təhsil nəzəriyyəsi və ya didaktika adlanır. Belə halda təhsil təlimin nəticəsi, təlim isə təhsilə yol kimi mənalandırılır.

Didaktika təhsil və təlimin məzmununa, təlimin metod və təşkilat formalarına elmi dəlillər verən pedaqoji nəzəriyyədir. O, nəticə etibarilə nəyi öyrənmək və necə öyrətmək suallarına cavab verir. Lakin bu suallara cavab verənə qədər bir sıra digər suallar ortaya çıxır. Onlardan: «Təlim necə aparılır, onun hansı qanunauyğunluqları vardır?», «Kimi öyrənmək?», «Nə üçün öyrənmək?» və «Harada öyrənmək?» suallarını göstərmək olar.

XVIII-XIX əsrlərdə bir elm kimi didaktika barədə bir sıra qiymətli fikirlər söylənilmişdir. Onlardan J.J. Russonun, İohan Henrix Pestalotsinin, Adolf Disterveqin kəlamları daha qiymətlidir. İ.H.Pestalotsi didaktikanın mühüm anlayışlarından olan təlim məsələlərindən bəhs edərək yazırdı ki, bilik almaq prosesi əvvəlcə dolaşıq müşahidələr dəryasından müəyyən müşahidələrə ayrılır, sonra müəyyən müşahidələrdən aydın anlayışlar, bunlardan isə dəqiq anlayışlar yaranır. Pestalotsi göstərmişdir ki, elə bir təlim üsulları və formaları tapılmalıdır ki, onlardan istifadə edərək kəndli ana öz uşaqlarına təlim verə bilsin. O, elementar təlim, habelə inkişafetdirici və tərbiyəedici təlim ideyaları ilə bağlı didaktik fikirlər söyləmişdir. Disterveq didaktikanı təlimin ümumi qanunları və qaydaları haqqında elm hesab edir. Bu barədə fikirlərini 23 təlim qaydası ilə şərh edir, onları da dörd şərti qrupa bölür. Didaktikanın bir elm kimi dərinləşməsində görkəmli rus pedaqoqu və psixoloqu K.D.Uşinskinin xüsusi rolu olmuşdur. Rus pedaqogikasının atası sayılan K.D.Uşinski ana dilinin təlimi məsələsi ilə didaktikaya yeni bir abı-hava gətirmişdi. Tədqiqatçıların heç biri ana dilinin əhəmiyyətini onun qədər qiymətləndirə bilməmişdi. Didaktika barədə rus pedaqoqlarından A.V. Lunaçarskinin, P.P.Blonskinin, V.A.Suxomlinskinin və b. fikirləri də diqqəti cəlb edir. Onlar təhsilin məzmunu, politexnik təhsil, təlim metodları, təlimdə fəallıq və müstəqilliyin həyata keçirilməsi ilə bağlı bir sıra fikirlərin müəllifidirlər. XIX-XX əsrlər didaktik fikrin inkişafı ilə daha zəngindir. Bu əsrlərdə yaşayıb-yaratmış görkəmli maarifpərvər yazıçılardan A.A.Bakıxanovun, M.F.Axundovun, S.Ə.Şirvaninin, H.B. Zərdabinin, M.T.Sidqinin, C.Məmmədquluzadənin böyük

xidmətlərini qeyd etmək lazımdır. Məktəblərin yeniləşməsi, yeni əlifba uğrunda mübarizə, yeni metod və formalardan istifadə və s. onların təhsildə vacib saydıqları məsələlərdən idi. M.F.Axundov insanın hərtərəfli inkişafında savadın, təhsilin və elmin böyük rolu olduğunu göstərərək ümumtəhsil ideyasına gəlib çıxır və məktəbin rolunu yüksək qiymətləndirir. Onun pedaqoji və ictimai fəaliyyətində əlifba islahatı uğrunda mübarizə xüsusi yer tutur. Bu mübarizə siyasətdə, ictimai həyatda, mədəniyyətdə, elmdə, baxışlarda, didaktikada böyük bir dönüş idi.

Didaktikanın obyekti və predmeti. Bildiyimiz kimi, didaktikanın obyektini təlim prosesi və onun məzmunu təşkil edir. Didaktikanın predmetinə gəldikdə, onun barəsində çoxlu mülahizələr mövcuddur. Onlardan bir neçəsini aydınlaşdıraq. Bəziləri təhsil və tərbiyənin vasitələrinin didaktikanın predmeti olduğunu irəli sürürlər, digərləri didaktikanın predmetinin təlimin qanunauyğunluqlarından və prinsiplərindən, onun məqsədindən, təhsilin məzmununun elmi əsaslarından, təlimin metod, forma, vasitələrindən ibarət olduğunu göstərirlər; üçüncülər, tədris və təlimi qarşılıqlı vəhdətdə didaktikanın predmeti hesab edirlər; dördüncülər, hesab edirlər ki, ümumi didaktikanın predmetini ancaq tədris-təlim prosesi deyil, həm də onun baş verməsi üçün zəruri olan şərtlər və onların yerinə yetirilməsinin nəticələri təşkil edir. Bütün bunları ümumiləşdirərək demək olar ki, didaktika təlimin məqsədini, məzmununu, qanunauyğunluqlarını, metod və prinsiplərini öyrənir.

Bütün bu mülahizələr heç də didaktika ilə digər bilik sahələri arasında sədd qoymağa gətirib çıxarmır. Təlimdə nəinki didaktik, habelə psixoloji, fizioloji qanunauyğunluqlar da fəaliyyət göstərirlər. Təlim informasiya və didaktın, metodistin, psixoloqun, həm də məlumat, kibernetika nəzəriyyəsi üzrə mütəxəssisin öyrənmə obyekti ola bilər. Lakin onlardan hər biri bu obyektdən öyrənmək üçün lazım olanı ayırır, müxtəlif məqsədlər qoyur və bu məqsədləri formalaşdırır.

Hazırda təhsilin nəzəriyyə və praktikası qarşısında mürəkkəb vəzifələrin həlli üçün müxtəlif mütəxəssis alimlərin səylərini birləşdirmək tələb olunur. Məhz buna görə də, bu işin hər bir iştirakçısının öz fənnini öyrənməsi, onun xüsusiyyətlərini aydın təsəvvür etməsi və ümumi işdə öz yerini müəyyənləşdirməsi vacibdir. Didaktikanın aşağıdakı vəzifələri vardır:

- təlim prosesini və onun reallaşması şəraitini təsvir və izah etmək;

- təlim prosesinin ən mükəmməl təşkilini, yeni texnologiyasını işləyib hazırlamaq.

Yuxarıda göstərildiyi kimi, bu vəzifələr didaktikanın predmetinin müəyyən edilməsində nəzərə alınır. Təlim onun öyrənmə və təşkiletmə obyekti kimi çıxış edir. Təlim pedaqogikanın elmi-nəzəri funksiyasını həyata keçirərkən tədqiqatçı üçün tədqiq obyekti olur. Tədqiqat nəticəsində gerçəkliyə çevrilmiş və ya gerçəkliyə çevrilməkdə olan təlim prosesinin necə getdiyi, onun qanunauyğunluqları və mahiyyətinin necəliyi barədə biliklər əldə edilir. Başqa sözlə, belə biliklər pedaqoji gerçəkliyi olduğu kimi əks etdirir. Fəlsəfi məfhumdan istifadə etdikdə, ona varlıq, yəni pedaqoji faktlar (*hadisələr*), pedaqoji prosesin mahiyyəti və qanunauyğunluqları haqda bilik kimi baxılır.

Lakin təlimi pedaqoji fəaliyyətin bir hissəsi hesab etmək azdır. Çünki nəzəriyyə öz-özlüyündə məqsəd deyildir. O, praktiki fəaliyyətin əsasıdır, ona istiqamətləndirmə, kökündən dəyişdirmə və təkmilləşdirmə imkanı verir. Alim təlimi təsvir etməkdən onu təşkil etməyə keçdiyi zaman didaktikanın konstruktiv-texniki funksiyasını həyata keçirir. Aydındır ki, hər iki funksiya bir-biri ilə əlaqədardır. Konstruktiv-texniki fəaliyyətin əsasına elmi-nəzəri funksiyanın həyata keçirilməsinin nəticələri qoyulmalıdır. Digər tərəfdən, gerçəkliyin kökündən dəyişdirilməsi sonrakı tədqiqatın obyekti olur.

Təlim insanın mürəkkəb fəaliyyət növlərindən biridir. O, şagirdlərin biliklər sistemini mənimsəmələrinə və qazanılmış bilikləri təcrübəyə tətbiq etmək üçün lazım olan bacarıq və vərdişlərə məqsədyönlü yanaşmaqla ifadə olunur. Demək təlim bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesidir. İdrak nəzəriyyəsi terminini ilk dəfə fəlsəfəyə gətirən Şotlandiya filosofu ***C. Ferrey*** olmuşdur. İdrakın mənşəyi insanın əhatə edən xarici aləmdir. Bu aləm insana təsir edir və onda müvafiq duyğular, təsəvvürlər, anlayışlar əmələ gətirir. İnsan idrakı praktikada, istehsal prosesində meydana çıxır. Praktika zamanı insan başqa adamlarla birlikdə, bütövlükdə cəmiyyətlə qarşılıqlı əlaqədə dünyaya fəal təsir göstərir. Təlim prosesi idrak fəaliyyətinin bir növüdür. Təlim prosesində öyrənmə idrak prosesinin qanunauyğunluqlarına əsaslanır.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov
3. Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev
4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 9. Təhsil və onun məzmunu

1. Təhsil sistemi haqqında anlayış
2. Təhsil sahəsində dövlət siyasətinin əsas ptinsipləri
3. Təhsilin formaları

Təhsilin məzmunu dedikdə, əsas etibari ilə müəyyən tip tədris müəssisələrində öyrənmək üçün seçilmiĢ bilik, bacarıq və vərdiĢlərin həcmi və xarakteri nəzərdə tutulur. Təhsil alanların yaradıcı təfəkkürünü, idrak maraqlarını formalaşdırmaq, hərtərəfli inkişafını təmin etmək, ləyaqətli şəxsiyyət yetişdirmək, yüksək səviyyəli sərişẗəli mütəxəssis hazırla-maq və əmək fəaliyyətinə hazırlamaq təhsilin məzmununun əsasını təşkil edir. Məzmun təhsilin məqsədlərini həyata keçirməyin

vasitəsi olmaqla cəmiyyətin və həm də ayrı-ayrı şəxslərin cari və perspektiv tələbatlarını əks etdirir. Təhsilin məzmununun formalaşmasını şərtləndirən sistemlər içərisində qəbul olunmuş məqsədlər, sosial tələbatlar, sosial və elmi nailiyyətlər, şəxsi tələbatlar, pedaqoji imkanlar və s. seçilir. Elmi-texniki tərəqqinin, ümummədəni səviyyənin, istehsalın və ümumiyyətlə, cəmiyyətin inkişafı ilə əlaqədar olaraq təhsilin məqsədi və uyğun olaraq bu məqsədlərə çatmaq üçün təhsilin məzmununa qoyulan tələblər də dəyişir, təkmilləşir. Bu tələblər konkret olaraq müəyyən normativ sənədlər – standartlar şəklində ifadə olunur. Geniş mənada isə bu tələblər təhsil pilləsindən asılı olaraq ictimai həyata hazır olan, öz gələcək peşə fəaliyyətini müəyyən edə bilən, müəyyən dünyagörüşünə və ümumi mədəni səviyyəyə malik olan, peşə hazırlığı üzrə təhsilini davam etdirmək üçün lazımi bilik, bacarıq və vərdişlərlə silahlanmış məzun modeli formasında ifadə olunur. Məktəb təhsilinin məzmununu formalaşdırmaq üçün ənənəvi olaraq sosial və elmi nailiyyətlər sistemi böyük əhəmiyyət kəsb edir. Təhsilin məzmununda elmi nailiyyətlərin tətbiqi sahəsində aparılan tədqiqatlar göstərir ki, yeni elmi kəşf və ya yeni sosial ideyanın meydana gəlməsi ilə onun məktəbdə sistemli öyrənilməsi arasındakı vaxt müddəti durmadan azalır. Pedaqoji imkanlar sistemi təhsilin məzmununa məlumatların daxil olmasına yol vermək və ya ona qadağa qoymaq 179 rolunu oynayan tənzimləyicidir. Başa düşmək, anlamaq, mənimsəmək üçün müəyyən inkişaf səviyyəsi lazımdır.

Pedaqogika tarixində təhsilin məzmununa dair müxtəlif nəzəriyyələr – formal və maddi təhsil nəzəriyyələri mövcud olmuşdur: Formal təhsil nəzəriyyəsinə görə, təhsilin məzmununda məqsəd şagirdlərin ağlını, zehni qabiliyyətlərini, məntiqi təfəkkürünü inkişaf etdirməkdir. Bu mövqedə duran pedaqoqların fikrincə, elmi bilikləri öyrənmək üçün məktəb illəri kifayət deyildir. Başlıca vəzifə şagirdlərin zehnini inkişaf etdirməkdir: zehni cəhətdən inkişaf edən insan istədiyi biliyi müstəqil əldə edə bilər. Bu nəzəriyyə məktəbdə zehni inkişafa imkan verən fənləri – qədim və müasir dilləri, riyazi fənləri, məntiq elmlərini keçməyi təklif edirdi. Vaxtilə klassik gimnaziyalarda, mədrəsələrdə təlim bu səpgidə qurulurdu. Maddi təhsil nəzəriyyəsinə görə, təhsilin məzmununda məqsəd həyatda bilavasitə lazım olan praktik bilik və bacarıqlar verməkdən ibarətdir.Məktəb təhsil alanlara mümkün qədər çox bilik verməlidir. Bu mövqedə duran pedaqoqların fikrincə, məktəbdə faydalı həyati biliklər verən fənlər - təbiətşünaslıq, botanika, biologiya, kimya, fizika keçilməlidir. Vaxtilə real məktəblərdə təlim bu cür qurulurdu.

Azərbaycan Respublikası vətəndaşlarının təhsil hüququ Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsi ilə təyin olunmuşdur. Bu maddəyə əsasən hər bir vətəndaşın fasiləsiz təhsil almaq hüququ vardır. Təhsilin məzmunu dedikdə müəyyən tip tədris müəssisələrində öyrənilən bilik, bacarıq və vərdiĢlər sistemi baĢa düĢülür. ġagirdlərin məntiqi və yaradıcı təfəkkürünü, idraki maraqlarını formalaĢdırmaq, hərtərəfli inkiĢafını təmin etmək və fəal əmək fəaliyyətinə hazırlamaq ümumi təhsilin əsas məzmununu təĢkil edir. Təhsilin məzmunu ətraf aləm, dünya, cəmiyyət, təfəkkür, insan haqqında biliklər sistemini əhatə edir, təhsil alanlarda praktik fəaliyyət üçün bacarıq və vərdişlər formalaşdırır, məntiqi və yaradıcı təfəkkürü inikişaf etdirir, təhsil alanlarda 183 əxlaqi və mənəvi keyfiyyətlər aşılayır, yüksək mədəni davranış normaları, insanlar arasında düzgün ünsiyyət və münasibətlər yaradır. Təhsilin məzmununun formalaĢdırılmasında aĢağıdakı Ģərtlər nəzərə alınmalıdır: 1) Cəmiyyətdə qəbul olunmuĢ mənəvi, mədəni, normalar; 2) Cəmiyyətin sosial tələbatları; 3) Cəmiyyətdə sosial – iqtisadi nailiyyətlər; 4) Cəmiyyətdə elmi nailiyyətlər; 4) fərdin tələbat və imkanları; 5) maddi texniki baza; 6) pedaqoji imkanlar.

Dövlət Təhsil Standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq təhsilin müəyyən pillələri və səviyyələrində, ixtisaslar üzrə elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr üçün nəzərdə tutulan bilik, bacarıq və vərdişlərin ümumi normalar məcmusudur. Dövlət Təhsil Standartları məzunların təhsil hazırlığına verilən tələblərin məcburi səviyyəsidir, təlimin, məzmununu, forma və metodlarını özündə əks etdirən dövlət sənədidir. 186 Dövlət Təhsil Standartları Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən hazırlanır və təsdiqlənir. Bu sənədə əlavə etmək, onu dəyişmək yalnız Nazirlər Kabinetinin səlahiyyətindədir. Dövlət Təhsil Standartları təhsil sahəsində sınanmış mütərəqqi meyarlar, milli və ümumbəşəri dəyərlər, pedaqoji prinsiplər əsasında hazırlanır. Dövlət Təhsil Standartlarının məqsədi vətəndaşların təhsil səviyyəsinin aşağı düşməsinə yol verməmək, bütün tip tədris müəssisələrində təhsil alanlar üçün bərabər şərait yaratmaq, şagirdlərin bilik, bacarıq və vərdişlərinə verilən standart tələbləri müəyyənləşdirməkdir. Dövlət Təhsil Standartları iki tipdə hazırlanır: 1) Variativ Dövlət Təhsil Standartları – dəyişiləndir, cəmiyyətin inkişafı və tələblərinə müvafiq olaraq dəyişir, təkmilləşir, yeniləşir. 2) Ġnvariativ Dövlət Təhsil Standartları – dəyişməzdir. Təhsilin özəyini təşkili edir. Uzun müddət üçün – ən azı 5 il müddətinə nəzərdə tutulur. Dövlət Təhsil Standartları təhsilin məzmununu, idarə

olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir. Dövlət Təhsil Standartları təhsil müəssisəsinin fəaliyyətinin, təhsilin səviyyəsinin və təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində, akkreditasiyada və attestasiyaların keçirilməsində dövlət təhsil standartları əsas meyar kimi götürülür. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün xüsusi dövlət standartları müəyyən edilir. Dövlət təhsil standartı aĢağıdakıları nəzərdə tutur: – təhsilin hər bir pilləsi üzrə məzmunu əks etdirir. Dövlət şagirdlərə (tələbələrə) zəruri ümumi təhsil hazırlığı verməyi nəzərdə tutur; – təhsilalanların zəruri hazırlığına minimum tələblər verilir. Məzmun baxımından ümumtəhsil məktəbinin dövlət standartı nəzərdə tutur: – elmlərin əsaslarına dair nəzəriyyələrdən, konsepsiyalardan, onların tarixindən, problemlərindən, metodologiyasından və proqnozlarından xəbərdar olmaq; – bu və ya digər bilik sahəsinin əsas anlayışlarını bilmək və tətbiq etmək bacarığı; Tədris müəssisəsinin fəaliyyətini istiqamətləndirən normativ sənəddir. Tədris prosesinin məzmunu tədris planı, fənlər üzrə tədris proqramları ilə müəyyən olunur və dərs kitablarında, informasiyanı toplayıb saxlayan elektron avadanlıqlarda əks olunur. Tədris müəssisəsində öyrədilən fənlərin siniflər və kurslar üzrə tədris ardıcıllığını, hər fənnə ayrılan illik, yarım illik və həftəlik saatların miqdarını, təhsilin müddətini, təhsil alanların fəaliyyət növlərini, tətillərin vaxtını, pedaqoji və istehsalat təcrübələrinin müddətini əks etdirən sənədə tədris planı deyilir

“Kurikulum” (curriculum) latın sözü olub, “təlim kursu”, “tədris planı”, “proqram” kimi izah olunur. Azərbaycan pedaqoji fikrində kurikuluma belə tərif verilmişidr: “Kurikulum təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir” Azərbaycan Respublikasının Təhsil haqqında Qanununda bu anlyış bir daha konkretləşdirilmişdir: “Təhsil proqramı (kurikulum) – təhsilin hər bir pilləsi üzrə təlim nəticələri və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədidir”. 189 Kurikulum təhsilin əsaslarını və məzmununu, təlimə ayrılan vaxt çərçivəsində onların öyrədilmə ardıcıllığını, təhsilin pilləsi və səviyyəsindən, təhsil müəssisəsinin tipindən asılı olaraq, tətbiq ediləcək metodları, tədris və təlim resurslarını, qiymətləndirmə mexanizmini, tədris-təlim prosesinin

və müəllim fəaliyyətinin xüsusiyyətlərini özündə birləşdirən mühüm pedaqoji və dövlət sənədidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı: Qanun, 2010. səh.11-13.
2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum) //Kurikulum, 2008, № 1.
3. Azərbaycan Respublikası ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası/ Azərbaycan müəllimi, 28 iyul, 2006-cı il. 201
4. Abdullayev B.A., Zülfüqarova Ş.V. Didaktika. Bakı: ADPU, 2005, səh. 50-56.
5. Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri //"Kurikulum" 2008, N 1, səh.31-37

Mövzu 10. Təhsilin məzmununu əks etdirən sənədlər

1. Tədris planının müəyyən edilən fənlər
2. Tədris proqramında müəyyən tələblər
3. Proqramlara müvafiq dərsliklərin tərtibi

Dövlət Təhsil Standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq təhsilin müəyyən pillələri və səviyyələrində, ixtisaslar üzrə elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr üçün nəzərdə tutulan bilik, bacarıq və vərdişlərin ümumi normalar məcmusudur. Dövlət Təhsil Standartları məzunların təhsil hazırlığına verilən tələblərin məcburi səviyyəsidir, təlimin, məzmununu, forma və metodlarını özündə əks etdirən dövlət sənədidir. 186 Dövlət Təhsil Standartları Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən hazırlanır və təsdiqlənir. Bu sənədə əlavə etmək, onu dəyişmək yalnız Nazirlər Kabinetinin

səlahiyyətindədir. Dövlət Təhsil Standartları təhsil sahəsində sınanmış mütərəqqi meyarlar, milli və ümumbəşəri dəyərlər, pedaqoji prinsiplər əsasında hazırlanır. Dövlət Təhsil Standartlarının məqsədi vətəndaşların təhsil səviyyəsinin aşağı düşməsinə yol verməmək, bütün tip tədris müəssisələrində təhsil alanlar üçün bərabər şərait yaratmaq, şagirdlərin bilik, bacarıq və vərdişlərinə verilən standart tələbləri müəyyənləşdirməkdir. Dövlət Təhsil Standartları iki tipdə hazırlanır: 1) Variativ Dövlət Təhsil Standartları – dəyişiləndir, cəmiyyətin inkişafı və tələblərinə müvafiq olaraq dəyişir, təkmilləşir, yeniləşir. 2) Ġnvariativ Dövlət Təhsil Standartları – dəyişməzdir. Təhsilin özəyini təşkili edir. Uzun müddət üçün – ən azı 5 il müddətinə nəzərdə tutulur. Dövlət Təhsil Standartları təhsilin məzmununu, idarə olunmasını, madditexniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir. Dövlət Təhsil Standartları təhsil müəssisəsinin fəaliyyətinin, təhsilin səviyyəsinin və təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində, akkreditasiyada və attestasiyaların keçirilməsində dövlət təhsil standartları əsas meyar kimi götürülür

Tədris planı Tədris müəssisəsinin fəaliyyətini istiqamətləndirən normativ sənəddir. Tədris prosesinin məzmunu tədris planı, fənlər üzrə tədris proqramları ilə müəyyən olunur və dərs kitablarında, informasiyanı toplayıb saxlayan elektron avadanlıqlarda əks olunur. Tədris müəssisəsində öyrədilən fənlərin siniflər və kurslar üzrə tədris ardıcıllığını, hər fənnə ayrılan illik, yarım illik və həftəlik saatların miqdarını, təhsilin müddətini, təhsil alanların fəaliyyət növlərini, tətillərin vaxtını, pedaqoji və istehslat təcrübələrinin müddətini əks etdirən sənədə tədris planı deyilir. Tədris planının vəzifəsi şagirdlərin hərtərəfli inkişafını təmin etmək, onları Vətənin müdafiəsinə və əməyə hazırlamaqdır. Odur ki, orta ümumtəhsil məktəbinin, peşə-texniki məktəblərinin tədris planında sosial-iqtisadi yönümlü tədris fənləri (həyat bilgisi, Azərbaycan tarixi, insan və cəmiyyət Azərbaycan Respublikası Konstitusiyasının əsasları, iqtisadi biliklərin əsasları və s.); humanitar yönümlü fənlər (Azərbaycan dili, xarici dil, ədəbiyyat, musiqi, təsviri incəsənət və s.); təbiət-riyaziyyat fənləri (riyaziyyat, kimya, biologiya, coğrafiya və s.), həmçinin fiziki tərbiyə, texnologiya fənləri salınır. Tədris planında tədris fənlərinin uzlaşdırılması diqqət mərkəzində dayanır, məktəblilərin hərtərəfli inkişafı, zəruri bacarıq və vərdişlərin formalaşdırılması, ümumtəhsil hazırlığı, hərtərəfli inkişafı təmin olunur. Tədris planının təkmilləşdirilməsi cəmiyyətin sosial sifarişi nəzərə

alınmaqla aparılır. Məcburi fənlərlə yanaşı tədris planında fakultativ məşğələlərə ayrılan vaxt (saatlar) da göstərilir.

“Kurikulum” (curriculum) latın sözü olub, “təlim kursu”, “tədris planı”, “proqram” kimi izah olunur. Azərbaycan pedaqoji fikrində kurikuluma belə tərif verilmişidr: “Kurikulum təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir” Azərbaycan Respublikasının Təhsil haqqında Qanununda bu anlyış bir daha konkretləşdirilmişdir: “Təhsil proqramı (kurikulum) – təhsilin hər bir pilləsi üzrə təlim nəticələri və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədidir”. 189 Kurikulum təhsilin əsaslarını və məzmununu, təlimə ayrılan vaxt çərçivəsində onların öyrədilmə ardıcıllığını, təhsilin pilləsi və səviyyəsindən, təhsil müəssisəsinin tipindən asılı olaraq, tətbiq ediləcək metodları, tədris və təlim resurslarını, qiymətləndirmə mexanizmini, tədris-təlim prosesinin və müəllim fəaliyyətinin xüsusiyyətlərini özündə birləşdirən mühüm pedaqoji və dövlət sənədidir. Kurikulum tədris planlarını, tədris proqramlarını, metodik işləmələri, qiymətləndirmə meyarlarını, şagirdə və onun hazırlıq səviyyəsinə verilən tələbləri, hər bir dərsin konkret təhsilləndirici, tərbiyəedici, inkişafetdirici məqsədlərini, metodik təminatı, dəyərləndirmə modelini, texniki təchizatı, innovasiya və pedaqoji texnologiyaları özündə birləşdirir. Kurikulumun istifadə və inkiꞡaf tarixinə nəzər saldıqda məlum olur ki, Curriculum sözünə ilk dəfə Leyden (1582-ci il) və Qlazqo (1633-cü il) şəhərlərinin universitetlərinin sənədlərində rast gəlinir. Bəzi alimlərin qeyd etdikləri kimi, 1876-cı ildən etibarən ondan bir termin kimi istifadə olunmağa başlanmışdır. Kurikulum termini ilk dəfə Con Franklin Bobbit tərəfindən elm sahəsində istifadə edimişdir. İlk fənn kurikulumları 1918-ci ildə ABŞ-da meyda-na gəlmışdir. 1970-ci illərdən sonra Kurikulum nəzəriyyəsi formalaşmışdır. Azərbaycanda bu termindən 1990-cı illərinin sonlarından başlayaraq istifadə olunmuşdur. Kurikulum dünyanın mütərəqqi təhsil modellərindən biri olmaqla hazırda geniş miqyasda tətbiq olunur, hər bir ölkənin özünə məxsus Kurikulumları, hətta bəzi məktəblərin özünəməxsus Kurikulumları mövcuddur.

Tədris proqramları Tədris planı əsasında bütün fənlər üzrə tədris proqramları tərtib olunur. Tədris proqramı Tədris planı və Dövlət Təhsil Standartlarına əsasən

fənnin bilik, bacarıq və vərdişlərin həcmini, bölmələrini mövzuların müxtəsər məzmununu, tədrisi ardıcıllığını və həmin mövzulara ayrılan saatların miqdarını müəyyənləşdirən mühüm pedaqoji sənəddir. Tədris proqramlarında izahat və tematik plandan sonra, mövzular, mövzunun tədris növü (mühazirə seminar, laborotor, praktik məşğələ və s.) və hər mövzuya verilən konkret saatlar, həmin mövzunun müxtəsər məzmunu, mövzu üzrə aparılan təcrübi işlər və ona verilən saatların miqdarı və ədəbiyyat siyahısı göstərilir. Tədris proqramının quruluQu aşağıdakı kimidir: 1) İzahat vərəqi. Burada fənnin öyrənilməsi vəzifələri, ona verilən tələblər haqqında, fənnin səciyyəvi xüsusiyyətləri, fənnə ayrılan saatlar və tədrisi xüsusiyyətləri göstərilir. 2) Fənnin mövzularına və fənnə ayrılan saatların miqdarını göstərən tematik plan. 3) Fənnin ayrı-ayrı mövzularının açıqlanması, mövzuların müxtəsər məzmunu. 4) Təhsil alanların fənnin öyrənilməsinə dair vəzifələri, sərbəst çalışmaları üçün tapşırıqlar, çalışmalar, tövsiyələr. 5) Fənlərarası və kurslararası əlaqələri yaratmaq üçün göstərişlər; 6) Təhsil alanların bilik və bacarıqlarına verilən əsas tələblər, tövsiyə olunan forma və metodlar. 7) Fənnin tədrisndə tələb olunan avadanlıq və əyani vəsaitlərin siya-hısı. 7) Tövsiyə edilən ədəbiyyat. Təhsildə diferensasiya proseslərinin dərinləşməsi ilə əlaqədar olaraq Dövlət Təhsil Standartlarından kənara çıxmamaqla müxtəlif ixtisaslar üzrə müxtəlif tədris proqramları da hazırlana bilir. Tədris proqramları müxtəlif prinsiplər, müxtəlif pedaqoji tələblər, qaydalar, tiplər əsasında tərtib oluna bilir: 1) Proqramlar pilləlilik (konsentrik) prinsipi üzrə tərtib olunur. Təhsil alanlar aşağı siniflərdə, kurslarda müəyyən məsələ, mövzu haqqında ilkin məlumat alır, yuxarı siniflərdə isə həmin məsələləri daha dərindən və geniş öyrənirlər; 2) proqramlar xətti prinsip üzrə tərtib olunur. Bir məsələ şagirdə bir dəfə təqdim edilir, bir daha o mövzunun tədrisinə qayıdlımır. Eyni məsələni müxtəlif siniflərdə, müxtəlif səviyyədə öyrənməyə ehtiyac yoxdur; 3) proqramlar eklektiv (şagirdlərin qabiliyyəti və marağı zəminində) prinsip üzrə tərtib olunur. Mövzular qabiliyyət və marağa uyğun şəkildə öyrənilir. 194 4) proqramlar spiralvari strukturda tərtib olunur. Bunun xarakterik xüsusiyyəti odur ki, şagirdlər başlanğıc problemi diqqətdən kənarda qoymur, onunla bağlı olan biliklərin dairəsini yavaş-yavaş (tədricən) genişləndirir və dərinləşdirir, burada konsentrik və xətti struktura xas olan fasilələr yoxdur, biliklərin bir dəfə öyrənilməsi də baş vermir, onların daha geniş öyrənilməsi davam edir; 5) proqramlar qarıQıq strukturda tərtib olunur. Bu struktur xətti, konsentrik və spiralvari strukturların kombinasiyasıdır, hansı ki, bu kombinasiya təhsilin məzmununu təşkil edən zaman manevr etməyə, onun ayrı-

ayrı hissələrinin müxtəlif yollarla ifadə olunmasına kömək edir. Bu müxtəlifliyə baxmayaraq tədris proqramlarının əsas iki tipi daha geniĢ yayılmıĢ və tətbiq olunur: 1) Sistematik(ardıcıl) və 2) konsentrik tədris proqramları. Sistematik tədris proqramında fənnə dair mövzular mənimsəmə dərəcəsinə görə, elmi məlumatlar çətinliyinə görə sistemli verilir. Proqram tərtibində hər bir fənnin sistemliliyi və ardıcılığı gözlənilir. Tədris edilən mövzular asandan çətinə, məlumdan məchula doğru prinsipi əsasında sistemli düzülür. Burada həmin mövzu haqqında açıqlama verilir, sistemli anlayışlar yaradılır. Fənnin tədrisində elmin sistemi qorunur, hər yeni tədris edilən mövzu özündən əvvəl öyrədilmiş mövzunu mökəmləndirir və onu tamamlayır, sonrakı mövzulara zəmin hazırlayır. Belə tədris proqramlarına sistema-tik tədris proqramları deyilir. Konsentrik tədris proqramlarında aşağı siniflərdə, kurslarda öyrədilən materiallar yuxarı sinif və kurslarda daha dərindən və qeniş öyrədilir. Orta məktəblərdə proqram üç konsentrə bölünür – I-IV, V-IX, X-XI siniflər. Ümumtəhsil məktəbində ədəbiyyat, Azərbaycan dili, riyaziyyat, təbiyyat fənləri bir neçə konsentrdə təkrarən keçilir. Bu fənn sinifdən sinfə gekdikcə çətinləşir, mürəkkəbləşir, əvvəl keçilmişlərə konsentrə olunur. Proqramın bu konsentrik prinsipləri ali məktəb, həmçinin digər məktəblərin proqramlarında da tətbiq edilir. Proqramın belə konsentrik düzülüşü təhsil alanların anlaq səviyyəsi, psixi-fizioloji və intelektual inkişaf səviyyəsi ilə əlaqədardır. Dərslik, dərs vəsaiti, metodik vəsait və iş dəftərləri Tədris proqramları əsasında dərslik hazırlanır. Dərslik təhsil sistemində məzmun və funksiyasına görə əhəmiyyətli resurslardan biri olub, təhsil alanlar üçün əsas bilik mənbəyidir. Şəxsiyyətin formalaşmasında, təfəkkürün inkişafında, intellektual səviyyənin yüksəlməsində, idrak qabiliyyətlərinin inkişafında dərsliklər mühüm rol oynayır. Buna görə də təhsil islahatları çərçivəsində həmişə dərsliklərin yara-dılmasına xüsusi müstəvidə yanaşılmış, hökumət səviyyəsində dərslik siyasəti hazırlanaraq tətbiq olunmuşdur. Dərslik siyasətinin məqsədi məktəbliləri standartlara uyğun bilik, bacarıq və vərdişlərə yiyələndirmək, Vətəninə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir. Dərslik konkret fənn üzrə tədris planı, tədris proqramı və kurikulum əsasında nəzəri və praktik biliklərin əsaslarının sistemli və anlaĢıqlı Ģəkildə izah olunduğu əsas vəsaitdir. Dərsliklərdə artıq informasiya yükünün olması nöqsanlı hal kimi qəbul edilir və bu, onun keyfiyyətinə xələl gətirir. Dövlət təhsil standartlarını özündə əks etdirən fənn kurikulumlarına uyğunluq dərsliklərin əsas

keyfiyyətlərindən biridir. Əslində, bu, dərsliklərin təhsil standartlarında ifadə edilmiş bilik və Dərslik, dərs vəsaiti, metodik vəsait və iş dəftərləri Tədris proqramları əsasında dərslik hazırlanır. Dərslik təhsil sistemində məzmun və funksiyasına görə əhəmiyyətli resurslardan biri olub, təhsil alanlar üçün əsas bilik mənbəyidir. Şəxsiyyətin formalaşmasında, təfəkkürün inkişafında, intellektual səviyyənin yüksəlməsində, idrak qabiliyyətlərinin inkişafında dərsliklər mühüm rol oynayır. Buna görə də təhsil islahatları çərçivəsində həmişə dərsliklərin yaradılmasına xüsusi müstəvidə yanaşılmış, hökumət səviyyəsində dərslik siyasəti hazırlanaraq tətbiq olunmuşdur. Dərslik siyasətinin məqsədi məktəbliləri standartlara uyğun bilik, bacarıq və vərdişlərə yiyələndirmək, Vətəninə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir. Dərslik konkret fənn üzrə tədris planı, tədris proqramı və kurikulum əsasında nəzəri və praktik biliklərin əsaslarının sistemli və anlaĢıqlı Ģəkildə izah olunduğu əsas vəsaitdir. Dərsliklərdə artıq informasiya yükünün olması nöqsanlı hal kimi qəbul edilir və bu, onun keyfiyyətinə xələl gətirir. Dövlət təhsil standartlarını özündə əks etdirən fənn kurikulumlarına uyğunluq dərsliklərin əsas keyfiyyətlərindən biridir. Əslində, bu, dərsliklərin təhsil standartlarında ifadə edilmiş bilik və fəaliyyətlərin reallaşdırılmasına xidmət etməsinin ifadəsidir. Başqa sözlə, standartlardan kənara çıxma hallarına yol verilməməsi vacib tələb kimi qarşıya qoyulur. Dərslik fəal təlim prosesində bir komponent kimi şagirdi idraki fəallığa sövq etməli, onu tədqiqatçılığa və yaradıcılığa istiqamətləndirməlidir. Hazırda şagirdləri fəaliyyətə sövq etməklə tətbiqi xarakter daşıması dərsliklərin əsas keyfiyyətlərindən hesab edilir, onlarda bacarıqları formalaşdıra bilmək imkanının olması mühüm cəhət kimi dəyərləndirilir. Bunun üçün kifayət qədər müxtəlif növ çalışma və tapşırıqlardan istifadə edilməsi tələb olunur.fəaliyyətlərin reallaşdırılmasına xidmət etməsinin ifadəsidir. Başqa sözlə, standartlardan kənara çıxma hallarına yol verilməməsi vacib tələb kimi qarşıya qoyulur. Dərslik fəal təlim prosesində bir komponent kimi şagirdi idraki fəallığa sövq etməli, onu tədqiqatçılığa və yaradıcılığa istiqamətləndirməlidir. Hazırda şagirdləri fəaliyyətə sövq etməklə tətbiqi xarakter daşıması dərsliklərin əsas keyfiyyətlərindən hesab edilir, onlarda bacarıqları formalaşdıra bilmək imkanının olması mühüm cəhət kimi dəyərləndirilir. Bunun üçün kifayət qədər müxtəlif növ çalışma və tapşırıqlardan istifadə edilməsi tələb olunur.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı: Qanun, 2010. səh.11-13.
2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)
3. //Kurikulum, 2008, № 1.
4. Azərbaycan Respublikası ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası/
5. Azərbaycan müəllimi, 28 iyul, 2006-cı il.
6. 201
7. Abdullayev B.A., Zülfüqarova Ş.V. Didaktika. Bakı: ADPU, 2005, səh. 50-56.
8. Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri //"Kurikulum" 2008,
9. N 1, səh.31-37.
10. 6. Abbasov Ə.M. Qiymətləndirmə konsepsiyası – konseptual sənəd. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. "Təhsil sisitemində monitorinq və qiymətləndirmənin yeri" mövzusunda respublika Elmi praktik Konfransının materialları.

Mövzu 11. Təlimin qanunauyğunluqları və prinsiplər

1. Təlimin qanunauyğunluqları və prinsipləri
2. Təlimin həyat ilə əlaqələndirilməsi prinsipi
3. Təlimin cəmiyyətin tələbatı və həyat ilə əlaqəsi qanunu

Təlimin qanunauyğunluqları dedikdə təlimin məqsəd və vəzifələrini yerinə yetirmək üçün təlimin prinsipləri, məzmun, forma və metodlarının vəhdəti və onlar arasında qarşılıqlı əlaqələrin təmin edilməsi, təlim prosesinə xas olan bütün hadisələrin səbəb-nəticə asılılıqları və zəruri şərti başa düşülür. Qanunauyğun prosesləri (hadisələri) öyrənməklə elm müvafiq qanunları müəyyən edir. Təlimin qanunauyğunluqlarını aşkara çıxarıb şərh etməklə təlimin bütöv bir proses, bir sistem olduğu, bu proses və sistemin koponentlərinin bir birilə qarşılıqlı əlaqə və asılılıqda oduğunu aydın görmək olur. Bu zaman təlim prosesinin sistemi, onun komponentləri arasındakı əlaqə və asılılıqlar, zəruri şərtlər üzə çıxır. Təlimin sisteminə daxil olan komponentlərin birində olan dəyişiklik qanunauyğun olaraq digərlərinə də təsir edəcəkdir. Bu asılılıq qanunauyğun şəkildə təlim prosesinin bütün komponenetləri arasında (təlimin məqsədi, məzmunu, vasitə və metodları, təşkili formaları, təlimin nəticələri), habelə təlim prosesi ilə onun cərəyan etdiyi şərait arasında özünü göstərir. Təlimin qanunauyğunluqları haqıqnda pedaqoji mənbələrdə müxtəlif sayda və müxtəlif şərhlər verilmişdir. Təlimin qanunauyğunluqları iki yerə bölünür: 1) Ümumi qanunauyğunluqlar – bu ümuümi didaktik prosesləri aydınlaĢdırır; 2) Xüsusi qanunauyğunluqlar – xüsusi metodikaların qanunauyğunluqlarını, yaxud didaktik prosesin müəyyən tərkib hissələrini öyrənir. Ümumi qanunauyğunluqlar özü də bir neçə qanunauyğunluqlara bölünür: 1) Təlimin məqsəd qanunauyğunluğu; 2) Təlimin məzmun qanunauyğunluğu; 3) Təlimin keyfiyyət qanunauyğunluğu; 4) Təlimin metod qanunauyğunluğu; 5) Təlimin idarəedilməsi qanunauyğunluğu; 6) Təlimin həvəsləndirmə qanunauyğunluğu;

Təlimin həyatla əlaqələndirilməsi prinsipi. Bu prinsip təlimi təkcə məktəb divarları arasında və ancaq kitab üzrə deyil, həyatla sıx əlaqəli şəkildə qurmağı nəzərdə tutur. Məktəb insanı həyata, fəal mövqe tutmağa hazırlamalıdır. Təlimi həyatla əlaqələndirmədən bu vəzifəni yerinə yetirmək olmaz. Təlimin həyatla və əməklə əlaqələndirilməsi həm təlimə, həm də əməyə şüurlu xarakter verir, fənnə marağı artırır. Təlimin elmilik prinsipi. Elmilik prinsipi bütün tədris fənlərinin strukturunda və məzmununda, müəllimin şərhində, faktların izahında şagirdlərin cavabında təzahür etməlidir. Bu prinsip hər bir fənnin məzmununda elmin əsas, inkişaf

meyllərini əks etdirən və eyni zamanda müvafiq yaşda olan uşaqların başa düşə biləcəyi aparıcı ideyaları müəyyənləşdirməyi tələb edir. Elmilik prinsipinin həyata keçirilməsi şagirdləri elmi üsullarla tanış etmək, onlara tədqiqat üsullarını, aparılan təcrübələrin köməyi ilə proseslərin inkişafı üzərində uzun müddətli müşahidələr aparmaq, mənbələri təhlil etmək, elmi mənbələr üzərində çalışmaq vasitəsilə müstəqil surətdə bilik əldə etmək yollarını da öyrətmək məqsədini güdür. Elmilik prinsipi zehni qüvvə və qabiliyyətləri inkişaf etdirməkdə, təbiət və cəmiyyət hadisələrinə elmi baxışlar aşılamaqda, elmi biliklərə maraq və tələbat yaratmaqda böyük əhəmiyyətə malikdir. Elmilik prinsipi təlimin təşkilinə bir sıra tələblər verir. O, təlimin bütün sahələrində – həm onun məzmununda (proqram və dərsliklərdə) və metodlarında, həm də şagirdlərin təlim fəaliyyətinin təşkilində gözlənilməlidir.Təlim metodları, xüsusən müəllimin şərhi, müsahibəsi, şagirdlərin müstəqil fəaliyyəti elmiliyə əsaslanmalıdır. Təlim prosesində elmilik prinsipinə əməl etmək təlimin səmərəli olması ilə nəticələnir. Təlimdə əyanilik prinsipi. Bu prinsip təlimi mücərrəd sözlər üzərində deyil, uşaq tərəfindən, bilavasitə qavranılan konkret şeylər və hadisələr üzərində qurmağı nəzərdə tutur. Əyanilik prinsipi idrak prosesinin öz təbiətindən irəli gəlir: idrak prosesi canlı müşahidədən - fakt və hadisələrin qavranmasından başlanır. Məşhur çex pedoqoqu Y.A.Komenski əyaniliyə yüksək qiymət verərək onu müəllimlər üçün “qızıl qayda” adlandırmış və qeyd etmişdir ki, mənimsəmə prosesində nə qədər çox hiss üzvləri iştirak edərsə, qavrama da bir o qədər səmərəli olar. Ona görə deyirdi: “Mümkün olan hər Ģeyi duyğularla qavramağa təqdim etmək, yəni görünəni – görmə duyğusuna, səsi – eĢitmə duyğusuna, iyi – iybilmə duyğusuna, dadı olanı – dad duyğusuna, toxunula biləni – lamisə duyğusuna təqdim etmək qoy müəllimlər üçün bu qızıl qayda olsun”.

Təlimdə əyanilik prinsipi. Bu prinsip təlimi mücərrəd sözlər üzərində deyil, uşaq tərəfindən, bilavasitə qavranılan konkret şeylər və hadisələr üzərində qurmağı nəzərdə tutur. Əyanilik prinsipi idrak prosesinin öz təbiətindən irəli gəlir: idrak prosesi canlı müşahidədən - fakt və hadisələrin qavranmasından başlanır. Məşhur çex pedoqoqu Y.A.Komenski əyaniliyə yüksək qiymət verərək onu müəllimlər üçün “qızıl qayda” adlandırmış və qeyd etmişdir ki, mənimsəmə prosesində nə qədər çox hiss üzvləri iştirak edərsə, qavrama da

bir o qədər səmərəli olar. Ona görə deyirdi: “Mümkün olan hər Ģeyi duyğularla qavramağa təqdim etmək, yəni görünəni – görmə duyğusuna, səsi – eĢitmə duyğusuna, iyi – iybilmə duyğusuna, dadı olanı – dad duyğusuna, toxunula biləni – lamisə duyğusuna təqdim etmək qoy müəllimlər üçün bu qızıl qayda olsun”.

ġüurluluq və fəallıq prinsipi təlim prosesində şagirdlərin fəaliyyətini – mənimsəmənin xarakterini, onların təlimə münasibətini əks etdirir: hər bir şagird təlimə şüurlu, fəal və müstəqil və yaradıcı surətdə yanaşmalıdır. Təlimdə şüurluluq və fəallıq formalizmə, əzbərçiliyə, şablonçulağa qarşı mübarizədir. Şüurlu mənimsəmənin bir neçə əlaməti vardır: biliyin başa düşülməsi, düzgün (həm də insanın öz sözləri ilə) ifadə olunması, onun tətbiqi, yeni fakt və mi- 209 salların tapılması, biliyin yoxlanması və səhvlərin düzəldilməsi. Bu əlamətlər həm şagirdin, həm də müəllimin fəaliyyətində öz əksini tapmalıdır. Təlimin təhsilverici, tərbiyəedici və inkiĢafetdirici prinsipi. Bu prinsip təlimdə öyrətmə, tərbiyə və inkişaf vəzifələrini vəhdətdə həyata keçirməyi nəzərdə tutur. Təlim təhsil vedriyi kimi, qüvvətli tərbiyə vasitəsi, həm də inkişafetdirici gücə malikdir. Pedaqoji prosesdə bu üç amil vəh-dətdə tətbiq edilməldir. Təlimin optimal təĢkili prinsipi. Bu prinsip məqsəddən və konkret şəraitdən çıxış edərək, ən münasib (optimal) təlim variantı seçib tətbiq etməklə müm- 212 kün olan yüksək nəticəyə nail olmağı nəzərdə tutur.Təlimin optimal təşkili müxtəlif vasitələrlə həyata keçirilir: – təlimin (dərsin) qarşısında duran vəzifələrin (təhsil, tərbiyə və inkişaf) kompleks müəyyən edilməsi; – təlimin optimal məzmununun müəyyən edilməsi; – təlimin (dərsin) məqsəd və məzmunundan çıxış edərək optimal vasitə, metod və formaların seçilib tətbiq edilməsi; – nəticələrin optimallıq baxımından təhlil edilib düzgün qiymətləndirilməsi. Müəllim pedaqoji nəzəriyyəyə və qabaqcıl təcrübəyə yiyələnməklə təlimin optimal təşkilinə nail ola bilər. Təlim üçün zəruri Ģəraitin yaradılması prinsipi. Bu prinsip təlim üçün lazımi şərait yaratmaqla onun səmərəsini yüksəltməyi nəzərdə tutur. Qeyri-normal şəraitdə cərəyan edən təlimdə yüksək nəticə əldə etmək mümkün deyildir. Məsələn, sinif otağının temperaturu normadan artıq isti və ya soyuq olduqda şagirdlərin iş qabiliyyətinə mənfi təsir göstərəcəkdir.

Təlimdə əməkdaĢlıq prinsipi. Təlimdə müəllim və şagird fəaliyyəti bir-birini şərtləndirir. Təlim zamanı müəllim və şagirdlərin fəaliyyətləri arasında mürəkkəb 213 və çoxcəhətli qarşılıqlı əlaqə mövcuddur. Şagirdlərin idrak və tədris fəaliyyətinin xüsusiyyətləri müəllimin təlim fəaliyyətindən asılı olduğu kimi, müəllimin təlim fəaliyyətinin sürəti və keyfiyyəti də şagirdlərin ona münasibəti ilə, onların tədris fəaliyyətlərinin səviyyəsi ilə şərtlənir. Başlıcası budur ki, şagirdlərin rəğbətini qazanan, onların ehtiyacını duyan, onlara valideyn qayğısı göstərən, şəxsiyyətlərinə hörmət edən,bir sözlə şagirdləri ilə əməkdaşlığa hazır olan müəllim öz yetirmələrinin həqiqi tərbiyəçisinə, məsləhətçisinə, müdrik yaşlı yoldaşına çevrilir.

Ədəbiyyat

1. **Abdullayev B.A., Zülfüqarova Ş.V. Didaktika. Bakı: ADPU, 2005, səh. 50-56.**
2. **Abbasov A.N. Pedaqogika. Dərs vəsaiti. Bakı: Mütərcim, 2010.**
3. **Abbasov Ə.M.Təlim prosesində mənimsəmə və onun mərhələləri//Kurikulum, sild 12, № 1, səh. 5-11.**
4. **Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. //"Kurikulum" jurnalı, 2008, N 1, səh.31-37.**
5. **Allahverdiyeva F.M., Tağıyeva S.S. Pedaqogika. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2018. 6. Ağayev Ə. Ə. Təlim prosesi : ənənə və müasirlik. Bakı: Adiloğlu, 2000.**

Mövzu 12. **Təlimin metod və vasitələr**

1. Təlimin metodları, tərzləri və qaydaları anlayışı, onların mahiyyəti
2. Təlim metodu və vasitələrinin seçilməsi haqqında anlayışlar
3. Təlim metodlarının təsnifatı

Təlimin metodları nəzəri və praktiki pedaqogikada aktual problem olaraq qalmaqdadır. Ona görə də bu problem didaktikanın nəzəri və praktik

məsələləri ilə məşğul olan pedaqoqların daim diqqət mərkəzində olmuş və olmaqdadır.

Təlimin metodlarının inkişafı və təşəkkülü tarixi olduqca qəribədir. Pedaqoq alimlər məktəbdə təlim prosesini müşahidə edərkən dərsdə müəllim və şagirdlərin çox rəngarəng fəaliyyət formalarının şahidi olmuşlar. Onlar bax bu fəaliyyət formalarını təlimin metodları adlandırmışlar. Məsələn, müəllim dərsdə yeni materialı izah edirsə, ona izah etmə metodu; şagirdlər materialı müstəqil öyrənirsə, ona müstəqil iş metodu; şagird praktiki tapşırığı yerinə yetirirsə, ona praktiki iş metodu, müəllim şagirdə bu və ya digər tapşırığı necə yerinə yetirmək təlimatını verirsə, ona təlimat (instruktiv) metodu, müəllim dərsdə əyani materialdan istifadə edirsə, ona nümayiş metodu və s. irad vermişlər. Buradan da təlimin müxtəlif metodları meydana çıxmışdır.

Pedaqoq-alimlərin bu problemə münasibəti müxtəlif olmuşdur. Onların hərəsi özünə münasib təlim metodları irəli sürmüşlər. Məsələn, Y.İ.Perovski, N.M.Verzilin, Y.Y.Qolant təlimin şifahi, əyani və praktiki metodlarını seçmişlər. M.A.Danilov, B.P. Yesipov təlimin metodlarını bilik əldə etmək, bacarıq və vərdişlər formalaşdırmaq, bilikləri, bacarıq və vərdişləri tətbiq etmək, möhkəmləndirmək və yoxlamaq və s. bölmüşlər. Y.Y.Qolant təlimin metodlarını iki – aktiv və passiv metodlara ayırmağı təklif etmişdir. Bütün bunlara baxmayaraq, bütövlükdə əksər pedaqoqlar təlimin metodlarını tədris fəaliyyətini təşkil etməyin üsulu hesab etmişlər.

«Metod» məfhumu latınca, «methodos» sözündən götürül-müşdür. O, mənaca həqiqətə, gözlənilən nəticəyə doğru irəliləmək yolu, üsulu deməkdir. Pedaqoji praktikada o, ənənəvi olaraq təlim-tərbiyə məqsədlərinə çatmağın nizama salınma üsuludur.

Təlimin metodlarının inkişaf tarixindən. Təlimin metodu tarixi kateqoriyadır. Cəmiyyətin inkişaf səviyyəsi təlimin ümumi məqsədlərinə təsir göstərir. Məqsədlərin dəyişməsi ilə təlimin metodları da dəyişir. Məsələn, qədim dövrlərdə yamsılamağa (*təqlid etməyə*) əsaslanan təlim metodları üstünlük təşkil edirdi. Məktəblərin təşkili ilə təlimin şifahi metodları meydana çıxdı. Təlimin əsas metodu müəllim tərəfindən hazır məlumatların yazılı, şifahi, sonralar isə çap yolu ilə şagirdlərin mənimsəməsinə verilməsi idi. Böyük kəşflər və icadlar dövründə şagirdlərə

biliklər verilməsinin yeganə üsulu sayılan şifahi metod tədricən öz əhəmiyyətini itirməyə başladı. Təlimin əyani metodları, bilikləri praktikada tətbiq etməyə kömək edən metodları inkişaf etməyə başladı. XIX-XX əsrlərin qovşağında «fəaliyyət vasitəsilə öyrənmək» şüarı maraq doğurdu. Təlimdə praktiki metodlardan istifadəyə geniş yer verildi.

Təlimin metodlarının təsnifatı. Müasir didaktikanın ən kəskin problemlərindən birini təlim metodlarının təsnifatı təşkil edir. Hazırda bu məsələ üzrə müxtəlif fikir və təkliflər mövcuddur. Ən ilkin təsnifat təlim metodlarının müəllimin iş metodlarına (*nağıl, izah, söhbət*) və şagirdlərin iş metodlarına bölünməsidir. Ən geniş yayılmış təlim metodlarının bilik mənbələrinə görə təsnifatıdır.

Təlim metodlarının yayılmış təsnifatlarından biri M.N. Skatkin və M.Y.Lerner tərəfindən təklif edilmiş təsnifatdır. Onlar izahlı-nümayiş, reproduktiv, problem anlama, qismən-axtarıcılıq və tədqiqat formalarına bölməyi təklif edirdilər.

V.A.Onişşuk təlim metodlarının aşağıdakı təsnifatını verir:

1. ***Təlimin əlaqəli (xətti) metodu; məşğələlərin tədris məqsədi: hazır bilikləri mənimsəmək fəaliyyəti;***

   a) müəllim tərəfindən yeni materialın izah edilməsi və şagirdlər tərəfindən onun qavranılması;

   b) yeni materialın məzmunu üzrə söhbət;

   c) dərsliyin mətni üzərində iş, o cümlədən mətnin şagirdlər tərəfindən müstəqil öyrənilməsi;

   ç) işə qiymət verilməsi.

2. ***Təlimin idrak metodu.*** Burada tədrisin əsas məqsədi yeni materialı qavramaq, başa düşmək və yadda saxlamaqdan ibarətdir.

   Şagirdin fəaliyyəti isə müşahidə, modelləşdirmə, rəsmləri öyrənmə, qavrama, nümayiş etdirilən materialları təhlil etmək və ümumiləşdirməkdir.

3. ***Təlimi dəyişdirmə (başqa şəklə salma) metodu.*** Burada didaktik məqsəd: şagirdlər tərəfindən bacarıq və vərdişlərin mənimsənilməsi və yaradıcı olaraq

tətbiq edilməsindən; müəllim və şagirdlərin fəaliyyəti isə məşğələlərin yerinə yetirilməsi, problem tapşırıqlardan, idrak vəzifələrdən, praktik və istehsalat fəaliyyətindən ibarətdir.

4. ***Təlimin sistemləşdirici metodu.*** Didaktik məqsəd bundan ibarətdir: biliklərin, bacarıq və vərdişlərin ümumiləşdirilməsi və sistemləşdirilməsi. Bu: a) müəllim tərəfindən proqramın bir-biri ilə bağlı bir neçə bölməsinə aid biliklərin ümumiləşmiş izahının verilməsi; b) ümumiləşdirici söhbət; c) sistemləşdirilmiş cədvəlin tərtibi və s. ibarətdir.

5. ***Təlimin nəzarət metodu.*** Didaktik məqsəd aşağıdakılardan ibarətdir: biliklərin, bacarıq və vərdişlərin mənimsənilməsinin keyfiyyətini aşkar və təsdiq etməkdir. Fəaliyyət istiqaməti isə müəllimin tapşırığı ilə şagirdlər tərəfindən yoxlama yazı işi yerinə yetirmək, şagirdlərin şifahi nəzarət sorğusunu keçirmək, praktiki tapşırıqları yerinə yetirməkdən ibarətdir.

   Pedaqoq-alimlər təlim metodlarını mənimsəmə prosesinin mexanizmi əsasında da təsnif edirlər (*A.Abbasov, H.Əlizadə*). Onlar bu istiqamətdə təlim metodlarını iki qrupda ümumiləşdirmişlər:

   1) ***Yeni bilik əldə olunmasına kömək göstərən təlim metodları.*** Şagirdlər yeni biliyin iki yolla əldə edilməsinə nail olurlar: a) yeni bilik hazır şəkildə şagirdlərə ötürülür; b) təlim zamanı yaradılan şərait şagirdlərin özlərinin yeni biliklər üzə çıxarmalarına səbəb olur. Bu məqsədlə də yeni bilik əldə olunmasına kömək edən təlim metodları iki yarımqrupa ayrılır: a) *məlumatverici-inkişafetdirici* və b) *evristik* metodlar.

      Məlumatverici-inkişafetdirici metodlara müəllimin şərhi, kitab üzərində iş, müsahibə, illüstrasiya və demonstrasiya daxildir.

      Evristik metodlara – *evristik müsahibə, problem situasiya, tədqiqatçılıq, laboratoriya iş*i aiddir.

   2) ***Bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsinə və tətbiqinə xidmət edən təlim metodları.*** Bunlar aşağıdakılardır: şərh edilən təmrinlər, nümunə üzrə təmrinlər, variativ təmrinlər, praktik təmrinlər.

      Qeyd edilən və qeyd olunmayan pedaqoji ədəbiyyatların əksəriyyətində təlim metodları əsasən üst-üstə düşür. Onlar bu və ya digər formalarda

qruplaşdırılır. Son zamanlar təlim üsullarının müasir istiqaməti də ədəbiyyatlarda şərh olunur. Bu sıraya videometod, situasiya metodu və s. (*İ.P.Podlası; Ə.*X.*Paşayev, F.A.Rüstəmov*) daxil edilir.

Qeyd etdiyimiz kimi, təlim metodlarından ən geniş yayılanı bilik mənbələrinə görə olan təsnifatdır. Bunu nəzərə alaraq təlim metodlarını şərh edirik: a) *söz metodları;* b) *əyani metodlar;* c) *praktiki metodlar.*

Söz metodu təlimin metodları sistemdə çox mühüm yer tutur. Bir vaxtlar o, biliklərin verilməsinin demək olar ki, yeganə metodu hesab edilirdi. Lakin Y.A.Komenski, K.D.Uşinski və b. mütərəqqi pedaqoqlar onların mütləqləşdirilməsinin əleyhinə çıxır, onlara əyani və praktiki üsulların əlavə olunmasının zəruriliyini təklif edirdilər. Əslində məsələyə obyektiv yanaşdıqda, söz metodlarının çox üstünlükləri vardır. Onlar çox qısa zaman ərzində şagirdlərə böyük həcmdə məlumatlar vermək imkanlarına malikdir. Söz metodlarının aşağıdakı formaları vardır: nağıl, izah, söhbət, diskussiya, mühazirə, dərslik və kitabla iş.

Təlimin söz metodlarından biri *müəllimin şərhidir*. Müəllimin şərhi metodu müəyyən faktı, hadisəni, anlayış və qanunauyğunluğu şifahi şəkildə şagirdlərə çatdırmaqdır. Müəllimin şərhi üç növə ayrılır: nəql, izah, məktəb mühazirəsi:

Müəllimin şərhi xarakterinə görə məlumatverici və problem şəklində olur, Məlumatverici şərh hazır informasiya verməyi nəzərdə tutur. Problemli şərh isə şagirdləri düşünməyə təhrik edir. Şərh zamanı müəllimin nitqinə bir sıra tələblər verilir:

- şərhin məzmunu elmi və sistemli olmalı, şagirdlərin yaşına, anlam səviyyəsinə uyğun gəlməli, fikirlər aydın, düşündürücü həyatla əlaqəli verilməlidir;
- şərh zamanı müəllimin nitqi orta səviyyədə, dəyişkən tonda qurulmalı, canlı və emosional olmalıdır;
- şərh zamanı müəllim mimika və jestlərdən yerli-yerində istifadə etməli, danışarkən çox hərəkət etməməlidir;
- şərh zamanı şagirdlərin fəallığı təmin edilməlidir.

Nəql. Nəql metodu tədris materiallarının məzmununu şifahi olaraq şərh etməkdir. Nəql müəyyən faktı, hadisəni canlı, obrazlı şəkildə danışmağa deyilir. Bu metod məktəb təliminin bütün mərhələlərində tətbiq olunur. Ancaq onun xarakteri, həcmi və müddəti dəyişir.

İzah. İzah dedikdə öyrənilən obyektin ayrıca anlayış və hadisələrin qanunauyğunluqlarının sözlə şərh edilməsi başa düşülür.

İzah müəyyən anlayışı, qaydanı dəlil və sübutlarla başa salmağa əsaslanan müəllimin şərhi metodunun növüdür.

İzah metodundan istifadə problemi, məsələni, mahiyyəti, vəzifələri dəqiq və aydın formalaşdırmağı, səbəb və nəticəni, dəlil və sübutları ardıcıl açıqlamağı; müqayisədən, qarşı-qarşıya qoymadan, oxşarlıqdan istifadə etməyi; çox aydın misallar gətirməyi və məntiqiliyi tələb edir.

Təlimin izah metodundan müxtəlif yaşlı uşaqlarla iş zamanı geniş istifadə olunur.

Söhbət. Söhbət təlimin dialoq metodudur. Diqqətlə düşünülmüş suallar əsasında müəllim şagirdlərə yeni materialı başa salır və ya öyrənilən materialın mənimsənilməsi səviyyəsini yoxlayır. Söhbət metodu müxtəlif formalarda aparılır. Onlardan giriş, məlumat, sintez və ya möhkəmləndirici söhbət formalarını göstərmək olar.

Giriş söhbət metodu şagirdlərin əvvəllər mənimsədikləri biliklərin aktuallaşdırılmasına, şagirdlərin müsahibəyə fəal girişməsinə; ***məlumatverici söhbət*** metodu şagirdlərin yeni biliklərin qazanılması prosesində fəal iştirakının təmin edilməsinə; ***sintez və ya möhkəmləndirici söhbət*** metodu şagirdlərin qazandıqları nəzəri biliklərin sistemləşdirilməsinə və onların qeyri-standart şəraitdə tətbiq olunmasına, fənlərarası zəmində yeni tədris və elmi problemləri həll etmək yönümünə keçilməsinə xidmət edirlər. ***Söhbət.*** Söhbət təlimin dialoq metodudur. Diqqətlə düşünülmüş suallar əsasında müəllim şagirdlərə yeni materialı başa salır və ya öyrənilən materialın mənimsənilməsi səviyyəsini yoxlayır. Söhbət metodu müxtəlif formalarda aparılır. Onlardan giriş, məlumat, sintez və ya möhkəmləndirici söhbət formalarını göstərmək olar.

Giriş söhbət metodu şagirdlərin əvvəllər mənimsədikləri biliklərin aktuallaşdırılmasına, şagirdlərin müsahibəyə fəal girişməsinə; ***məlumatverici söhbət*** metodu şagirdlərin yeni biliklərin qazanılması prosesində fəal iştirakının təmin edilməsinə; ***sintez və ya möhkəmləndirici söhbət*** metodu şagirdlərin qazandıqları nəzəri biliklərin sistemləşdirilməsinə və onların qeyri-standart şəraitdə tətbiq olunmasına, fənlərarası zəmində yeni tədris və elmi problemləri həll etmək yönümünə keçilməsinə xidmət edirlər

Söhbət zamanı suallar fərdlərə və ya sinfin bütün şagirdlərinə verilə bilər.

Söhbətin formalarından biri də ***müsahibədir*****.** O, *sual-cavab metodu* da adlanır. O, bütövlükdə siniflə, habelə bir qrup şagirdlə aparıla bilər. Yuxarı sinif şagirdləri ilə aparılan müsahibə daha çox səmərə verir. Bu da onların daha çox özlərini müstəqil aparmaları, problem suallar qoymaları və müəllim tərəfindən müzakirəyə verilmiş məsələ barədə öz fikirlərini çatdırmaları ilə əlaqədardır.

Müsahibə zamanı sualların düzgün qoyulması çox vacibdir. Sualların qoyulmasına bəzi tələblər verilir: a) sual konkret və aydın olmalı; b) suallar düşündürücü olmalı; c) sual yığcam olmalı, iki və çoxmərtəbəli olmamalı; ç) yanlış və çaşdırıcı suallar verilməməlidir.

Məqsədinə görə müsahibə müxtəlifdir. O, məlumatverici, evristik və təkrarlama xarakteri daşıyır.

Məlumatverici müsahibə qazanılmış biliklərin əhatəsinin genişlənməsinə və onların dərinləşməsinə xidmət edir. Müəllim şagirdləri məlum faktların izahına, aydınlaşdırılmasına, əlaqələndirilməsinə, onlar arasındakı əlaqənin xarakterinin tapılmasına və s. istiqamətləndirir.

Evristik müsahibə metodunu, çox zaman Sokrat üsulu da adlandırılır. Bu metod müəyyən məsələni sualların köməyi ilə

tapmağa əsaslanır. «Evrika» yunanca tapdım deməkdir. Hazırda məktəblərimizdə bu metoddan geniş istifadə olunur. Belə ki, biliklər şagirdlərə hazır şəkildə verilmir. Qarşıya qoyulan sualların cavablarını müəyyənləşdirərək, seçib taparaq özləri bu bilikləri qazanırlar. Bu yolla müəllimin köməyi əsasında qayda-qanunlara aid faktlar tapılır, onlar arasındakı əlaqə və asılılığı müəyyənləşdirir və nəhayət, ümumiləşmələr apararaq nəticələr çıxarılır.

Təkrarlama müsahibəsi. Bu müsahibə əvvəllər qazanılmış biliklərin hafizədə canlandırılıb möhkəmləndirilməsinə xidmət edir. Təkrar zamanı şagirdlər müəllimin köməyi ilə ümumiləşmələr aparırlar. ***Təlimin söz metodlarından biri də mühazirədir.*** Bu metoddan əsasən yuxarı siniflərdə istifadə olunur. O, demək olar ki, bütün və ya təqribən böyük bir dərs vaxtını əhatə edir. Müasir dövrdə təlimin söz metodunun bu forması daha aktual və əhəmiyyətlidir. Məktəb mühazirəsi keçilmiş materialın təkrarlanması vaxtı da tətbiq oluna bilər. Belə mühazirələr icmal mühazirələr adlandırılır.

Təlimin ən mühüm metodlarından biri də ***şagirdlərin kitabla iş metodudur.*** İbtidai siniflərdə kitabla iş dərsdə müəllimin rəhbərliyi ilə aparılır. Sonralar isə şagirdlər müstəqil olaraq kitabla işləməyə başlayırlar. Kitabla müstəqil işin müxtəlif formalarından, o cümlədən icmallaşdırma, mətnin planını tərtib etmə, tezis hazırlama, iqtibas gətirmə, xülasə yazma, rəyləşdirmə, arayış yazmadan və s. istifadə olunur.

Əyani metodlar. Əyani metodlar da tədris materiallarının öyrənilməsində mühüm rol oynayır. Bu metodlar söz və praktik metodlarla sıxı əlaqədə istifadə olunur. Müasir məktəbdə ən çox ekran texniki vasitələrindən istifadə edilir. ***Praktiki metodlar.*** Təlimin bu metodları şagirdlərin əməli fəaliyyətinə əsaslanır. Bu

metodlar şagirdlərdə əməli bacarıqlar və vərdişlər formalaşdırır. Praktik metodlara məşğələlər, laborator və praktiki işlər daxildir. Məşğələ bütün fənlərin öyrənilməsində və tədris prosesinin müxtəlif mərhələlərində tətbiq olunur. Məşğələnin xarakteri və metodikası tədris fənninin, konkret materialın, öyrənilən məsələnin və şagirdlərin yaş xüsusiyyətindən asılıdır.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov

3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev

4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 13. Təlim proseslərinin yeni texnologiyaları haqqında anlayışlar

1. Təlim proseslərinin yeni texnologiyaları haqqında anlayış
2. Təlim proseslərinin yeni texnologiyalarının struktur və funksional komponentləri
3. Təlim prosesinin yeni texnologiyalarının interaktiv metodları

Təlimin vasitələri barədə anlayış. Təlimin vasitəsi müəllim və şagirdlər tərəfindən yeni bilikləri mənimsəmək üçün istifadə edilən maddi və ya ideal obyektdir. Bu obyekt tədris prosesindən asılı olmayaraq öz-özlüyündə mövcuddur. Həm də o, mənimsənilən cisim kimi tədris prosesində iştirak edə bilər.

Təlimin vasitələrini tərkibcə iki yerə: *maddi* və *ideal* hissələrə ayrılırlar. Maddi vasitələrə dərsliklər və dərs vəsaitləri, cədvəllər, modellər,

maketlər, əyani vasitələr, tədris-texniki vasitələr, tədris-laborator avadanlıqları, binalar, mebel, tədris kabinetlərinin avadanlıqları, mikroklimat, dərs cədvəli, təlimin digər maddi-texniki şəraiti daxildir.

Təlimin ideal vasitəsi müəllim və şagirdlərin yeni biliklərə yiyələnmək üçün əvvəllər mənimsənilmiş bilik və bacarıqlardan istifadəsidir. L.S.Vıqotski bunlara nitqi, sxemləri, şərti işarələri, çertyojları, diaqramları, incəsənət əsərlərini və b. daxil edir. Ümumən, ideal vasitə mədəni irsi öyrənmə, yeni mədəni dəyərləri öyrənmə silahıdır. Təlim prosesində sistemli qazanılmış biliklər yeni biliklərin mənimsənilməsində şəxsiyyətin emosional və intellektual səviyyəsinin inkişafı üçün vasitəyə çevrilir. Onlardan bəziləri şagirdlərin intellektual inkişafına daha əhəmiyyətli dərəcədə təsir göstərir. Təlimin bu intellektual vasitələri şagirdlərin əqli inkişafında mühüm rol oynayırlar. Onlar dərsin mövzusunun izahı prosesində (*məsələn, özünü aparmaq qaydaları, misallar həlli, hərflərin yazılışı, cümlələrin quruluşunun təhlili və b. zamanı*) hazır şəkildə verilə bilər. Həmçinin onlar müəllimin köməyi ilə şagirdlərin özləri tərəfindən də ümumiləşdirilə bilər. ***Ünsiyyət vasitələri****.* Ünsiyyət şəxsiyyətin fəallıq formalarından biridir. Onun məzmununu tədris prosesinin iştirakçıları arasında məlumat mübadiləsi təşkil edir. Ünsiyyət zamanı biliklərin, mənəvi dəyərlərin, fikirlərin və niyyətlərin mübadiləsi baş verir. Ünsiyyət əhval-ruhiyyəni qaldıra və ya poza bilər. O, şəxsiyyətin hisslərinin ifadəsinə və intellektual durumuna təsir göstərir. Ünsiyyət zamanı insanın mədəniyyəti, onun inkişaf səviyyəsi, tərbiyəliliyi və savadlılığı özünü büruzə verir. Ünsiyyət üzün, duruşun (*mimikanın, hərəkətin, tonun, fasilələr verməyin*) müəyyən ifadələri ilə müşahidə olunur.

Tədris fəaliyyətinin vasitələri*.* Təlimin vasitələri haqqında anlayış didaktikada müəllim və şagird fəaliyyətinin komponentlərindən birinin ifadə edilməsi üçün istifadə olunur. Təlimin vasitəsi şagirdlə tədris məlumatı arasında «yerləşir». Onun funksiyası sanki maddi istehsal prosesində əmək vasitələri (*çəkic, dəzgah, kompas* və s.) funksiyasına

bənzəyir. Məhz buna görə də onlar şagird fəaliyyətinin alətləri adlandırılır. Bunlardan biliklərə yiyələnmə vəzifələrini həll etməkdə istifadə olunur. Onlara didaktik paylama materialı: (*fərdi istifadə olunan xəritə və cədvəllər*) sxemlər, tədris emalatxanalarında əmək alətləri və s. Daxildir Tədris təcrübəsi göstərir ki, təlimin vasitələri təşkilinin ən səmərəli forması ***kabinet sistemidir.*** Belə kabinetlər müəyyən fənlər üzrə nəzəriyyənin öyrənilməsi və məşğələlər aparılması üçün nəzərdə tutulur. Kabinetdə əyani vəsaitlərdən istifadə üçün bütün şərait təmin olunmalıdır. Əyani vəsaitlər adətən üç qrupa bölünür: 1) tutumlu vəsaitlər (*modellər, priborlar, aparatlar* və b.); 2) çap edilmiş vəsaitlər (*şəkillər, plakatlar, portretlər, qrafiklər, cədvəllər* və b.); 3) ekrana salma materialları (*kinofilmlər, videofilmlər, slaydlar* və b.). ***Təlimin texniki vasitələri* (*TTV*).** Təlimin texniki vasitələri şagirdlərin tədris məlumatları ilə təmin olunmasında müəllimə kömək edir. O, bilikləri yadda saxlama, tətbiq etmə və təlim prosesini idarə etmə, təlimin nəticələrinə nəzarət etmə strukturudur (*qurumudur*). TTV-nin məlumat vermə, təlimi proqramlaşdırma, biliklərə nəzarət etmə, trenajerlər və s. formaları vardır. Bunlara kinoproyektorlar, diaproyektorlar, epiproyektorlar, vidiomaqnitofonlar, televiziya kompleksləri, fərdi kompüterlər və kompüter sistemi daxild Təlimin səmərəliliyi texnologiyalardan düzgun istifadədən çox aslıdır. **“Texnologiya”** sözü əslində 1700-cü illərin əvvəllərində yaranmış və iki sözün - “tekni” “sənətkarlıq məharətinin sirri” və “loqi” “bilik” birləşməsində əmələ gəlmiş sistemli və məqsədyönlü məna daşıyır. Ümumi tərifdə texnologiya insanın yaratdığı məhsullardır və insan onların istehsalı və istifadəsində lazım olan bilikdən yararlanmaqla, öz məqsədlərinə çatmaq üçün onlardan istifadə edir kimi məna verir. Bu tərifdə texnologiya insanın əlinin yaratdığı məhsullara aid edillir.

Təlimdə şəxsiyyətyönümlü konsepsiyanın reallaşdırılması, inkişafetdirici pedaqoji texnologiyaların layihələşməsi və praktikada

tətbiqi pedaqoji mühitin yaradılmasını zəruri sayır. Məktəblərdə tətbiqinə geniş maraq göstərilən yeni pedaqoji texnologiyalardan biri **modulla təlim texnologiyasıdır.** Təlimin modul texnologiyası dedikdə, uşaqların müstəqil olaraq dərsdə və dərsdənkənar vaxtlarda modullu iş prosesində konkret təlim məqsədlərinə nail olması başa düşülür. Modulla təlim pedaqoji texnologiya kimi XIX əsrdə tətbiq olunmuşdu. Ilk dəfə 1869-cu ildə Harvard Universitetində təhsil proqramı kimi istifadə edilmişdir. Proqrama əsasən tədris fənlərinin seçilməsi öyrənənlərin öz ixtiyarına verilirdi. XX əsrin əvvəllərində ABŞ-ın bütün ali məktəblərində yeni yanaşma tətbiq olunmuşdu. Belə ki, öyrənənlər akademik səviyyəyə yiyələnmək üçün istənilən təlim kursunu seçə bilərlər. 1896-cı ildə Çikaqo Universitetinin nəzdində ilk məktəb olan labaratoriya yaradılmışdı. Onun banisi amerika filosofu C.Dyui idi. O, əzbərçiliyi tənqid etmiş, fəaliyyət vasitəsilə öyrənməyi lazım bilmişdir. Biliklərin müəllimlə şagirdlərin birgə kəşfi əsasında təşkili təlim prosesində önəmli sayılırdı. Modul təlim ideyası da bu yanaşmaya əsaslanır. Modul texnalogiyasına görə şagirdin təlim üçün nəzərdə tutduğu vaxt iki hissəyə ayrılırdı. Belə ki, günün birinci yarısında müəllim kollektivin birgə fəaliyyətini, günün ikinci yarısında müəllimin köməkçisi ilə fərdi fəaliiyyət nəzərdə tutulurdu. Bu da təlim keyfiyyətinin səmərəliliyinə təsir göstərə bilmişdir. Hazırda təlim materialının məzmununun mənimsədilməsi modullar çərçivəsində həyata keçirilir. Modul təlim materialların məntiqi cəhətdən tamamlanması hissəsidir.

Görkəmli tədqiqatçı alimlər texnoloji yanaşmanın strukturunu şaquli və üfuqi olmaqla iki yerə bölürlər. Belə texnoloji yanaşmanın şaquli strukturunda bir-birilə əlaqəli – meta, makro, mezo və mikrotexnologiyalar mövcuddur. **Metaxnologiya** – təhsil sahəsində sosial siyasəti pedaqoji səviyyədə həyata keçirməyə imkan verən ümumpedaqoji (ümumdidaktik, ümumtərbiyə) texnologiyadır. **Makrotexnologiya** təlim-tərbiyə prosesinin müəyyən istiqamətini, fənnin

tədrisi ilə bağlı fəaliyyət sahələrini ümumpedaqoji və ümummetodiki səviyyədə əhatə edir.**Mezotexnologiya** və ya lokal modul texnologiya təlim-tərbiyə prosesinin ayrı-ayrı hissələri (modulları), xüsusi, didaktik, metodik və ya tərbiyənin müəyyən bir problem sahəsi ilə bağlı məsələləri həll etmək üçün istifadə olunan texnologiyadır. **Mikrotexnologiya** – pedaqoji prosesin subyektləri arasındakı operativ məsələlərin, qarşılıqlı əlaqələrin, yazı vərdişlərinin həlli ilə bağlı texnologiyadır. Belə texnologiyalara misal olaraq yazı vərdişlərinin formalaşdırılmasını, subyektin (şəxsiyyətin, tədris prosesinin iştirakçılarının) şəxsi keyfiyyətlərinin korreksiyası üçün treninqlərin təşkili ilə bağlı texnologiyaları göstərmək olar.

Pedaqoji ədəbiyyatlarda bir sıra texnologiya tiplərini fərqləndirirlər. Buraya daxildir:

-Avtoritar texnologiyalar. Bu prosesdə müəllim əsas qüvvə, təlim, tərbiyə prosesinin tək subyekti kimi, şagird isə obyekt, inkişafına şərait yaradılacaq bir varlıq kimi özünü göstərir.

-Didaktosentrik texnologiyalar. Bu texnologiyanın mahiyyəti ondan ibarətdir ki, təlim-tərbiyə işində müəllim hakim olur, özünü bütün işlərdə əsas qüvvə hesab edir, şagirdin formalaşmasında didaktik vasitələrdən istifadəni əsas sayır. Bəzi mənbələrdə didaktosentrik texnologiya texnokratik texnologiya adlandırılır.

-Şəxsiyyətyönümlü texnologiya. Bu texnologiyaya əsasən, təhsil sistemində bütün diqqət şagird şəxsiyyətinə yönəlir, onun inkişafını təmin etmək üçün hər cür imkanlar yaradılır, şagirdin daxili potensialının reallaşdırılması nəzərdə tutulur.

-Əməkdaşlıq texnologiyaları. Bu texnologiya demokratiya, bərabərlik, qarşılıqlı, səmimi münasibətləri nəzərdə tutur. O, müəllim və şagirdin qarşılıqlı münasibətlərinin formalaşmasına, onların birgə fəaliyyətinə

xidmət edir.

- **Humanizmə xidmət edən texnologiyalar.** Bu texnologiyada əsas məqsəd humanist şəxsiyyətlər formalaşdırmaqdı. Hər şeydən öncə humanist məzmunu, psixomüalicəvi istiqaməti və şəxsiyyətə kömək etmək məqsədilə müəyyənləşdirilir. Şagird bu prosesdə ona inam və hörməti, səmimi və qayğılı münasibəti görür və özü də bu istiqamətdə formalaşır.

- **Azad tərbiyə texnologiyaları** şagirdə sərbəst olmaq, istədiyini seçmək, ona münasibət bildirmək və s. imkanlarının yaradılmasını nəzərdə tutur.

Ədəbiyyat

1. Abdullayev B.A., Zülfüqarova Ş.V. Didaktika. Bakı: ADPU, 2005, səh. 50-56.

2. Abbasov A.N. Pedaqogika. Dərs vəsaiti. Bakı: Mütərcim, 2010.

3.Abbasov Ə.M.Təlim prosesində mənimsəmə və onun mərhələləri//Kurikulum, sild 12, № 1, səh. 5-11.

4. Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. //"Kurikulum" jurnalı, 2008, N 1, s

Mövzu 14. **Təlim prosesinin amilləri**

1. Təlim prosesinin səbəbləri və amilləri
2. Təlim nəzəriyyəsində amil təhlili
3. Təlim prosesinin əyriləri

Təlimin nəticələrinin yoxlanılması və ya nəzarət tədris prosesinin zəruri komponentidir. Təlim prosesinin bütün mərhələlərində ondan istifadə olunur. Lakin proqramın hər hansı bölməsinin öyrənilməsindən və təlim mərhələsi bitdikdən sonra o, xüsusi əhəmiyyət kəsb edir. Təlimin nəticələrinin yoxlanılmasının mahiyyəti şagirdlərin mövcud fənnin standartlarına müvafiq biliklərinin səviyyəsini aşkara çıxarmaqdan ibarətdir. Təlimin nəticələrini yoxlamaq, nəzarət didaktikada ***pedaqoji diaqnostika*** kimi izah edilir.

Pedaqoji diaqnostika xarici ölkələrdə çoxdan məlumdur. Bizim təcrübədə bu son zamanlarda işlədilməyə başlanmış, pedaqoji lüğətə daxil edilmişdir. Bu söz keçmiş ənənəvi sovet pedaqogikasında işlədilən nəzarət, yoxlama, biliklərin qiymətləndirilməsi və uçotu məfhumları ilə üst-üstə düşür.

Təlim prosesinin tərkib hissəsi kimi nəzarət təhsil, tərbiyə və inkişaf vəzifələrini yerinə yetirir. Lakin nəzarətin başlıca funksiyası diaqnostikadır. O, nəzarətin formalarından asılı olaraq vəzifələr sırasında konkretləşdirilir. Didaktikaya görə, nəzarətin cari, dövrü, yekun formaları vardır.

Cari nəzarət hər dərsdə biliklərin, bacarıq və vərdişlərin sistematik olaraq yoxlanılmasıdır. Bu, dərsdə təlimin yekunlarını qiymətləndirməkdir. Təlimin tərkib hissəsi kimi cari nəzarət operativ, çevik üsul və formalarına, vasitələrinə görə fərqlənir.

Dövrü nəzarət təlim dövründə, proqramın iri bölməsindən sonra həyata keçirilir. Onda cari nəzarətin dəlilləri də nəzərə alınır.

Yekunlaşdırıcı nəzarət sinifdən-sinfə və ya təlimin yeni mərhələsinə keçmək ərəfəsində həyata keçirilir. Onun vəzifəsi təlimi davam

etdirməyi təmin edən minimum hazırlığı qeydə almaqdır. Ümumən, deyilənlərdən məlum olur ki, nəzarətin əsas vəzifəsi (*funksiyası*) təlimin bütün mərhələlərində qazanılmış biliklərin səviyyəsini müəyyən etməkdən, tədris prosesinin və mənimsəmənin səmərəliliyini təyin etməkdən ibarətdir. Təlimdə nəzarətin mahiyyətinin yoxlanılmasının böyük elmi əhəmiyyəti vardır. O, şagirdlərin bilik, bacarıq və vərdişlərinin yoxlanılmasında mühüm rol oynayır.

Qərb pedaqogikasında təlimin yoxlanılmasının nəticələri onun sosial və emosional məqsədi kimi təsvir edilir. Bu diaqnostika hələ XX əsrin 50-ci illərindən işlənilməyə başlamışdır. Bu üsulda təlimin məqsədinin pillələri aşağıdakı kimi ***müəyyən edilirdi: şagird bilir, başa düşür, tətbiq edir, təhlil edir, ümumiləşdirir və qiymətləndirir.*** Deməli, şagirdlərin bu hərəkətləri yoxlanılmalıdır.

Biliklərdən başqa, məktəb nailiyyətlərini yoxlamağın məzmunu şagirdlərin sosial və ümumi psixoloji inkişafını yoxlamaq deməkdir. Belə ki, məktəb nəinki şagirdlərə bilik verir, habelə onları tərbiyə edir və inkişaf etdirir. Deməli, məktəbin fəaliyyətinin bu cəhəti də yoxlanılmalıdır.

Məktəb nəzarətinin məzmunu həm də öyrənmənin motivlərinin və fəaliyyətin, yəni məsuliyyət hissinin, mənəvi normalar və davranışlar kimi sosial keyfiyyətlərin formalaşdığını yoxlamaq deməkdir. Doğrudur, əvvəla təlimin bu sosial və psixoloji nəticələrini aşkar etmək, ölçmək çox çətindir, ikinci, bunları yoxlamaq şagirdlərin daxili aləminə, onların azad düşüncələrinə müdaxilə kimi qiymətləndirilə bilər.

Nəzarətin üsul və formaları. Nəzarət üsulu təlimin müvəffəqiyyəti, tədris prosesinin səmərəliliyi barədə məlumatlar almaq məqsədi daşıyır. O, müəllim və şagirdlərin ardıcıl, qarşılıqlı fəaliyyəti sistemidir. Onlar tədris prosesi haqqında sistematik, tam, dəqiq və operativ məlumat alınmasını təmin etməlidirlər. Müasir didaktika nəzarətin aşağıdakı

üsullarını göstərir: şifahi nəzarət, yazılı nəzarət, praktiki iş nəzarəti, didaktik testlər, müşahidə üsulları. Bəzi alimlər nəzarətin qrafik (*Q.İ.Şukina*), proqramlaşdırma və laborator (*Y.K.Babanski*); kitabdan istifadə, problem situasiya (*V.Okon*) üsullarının olduğunu göstərirlər.

İndi də təlimin yekunlarının yoxlanılmasının əsas üsul və formalarını səciyyələndirək:

Şifahi nəzarət üsulları. Söhbət, şagirdin danışması (*nəql etməsi*), izahetmə, mətnin oxunuşu, texnoloji xəritələr, sxemlər, təcrübə haqqında məlumat və s. nəzarətin şifahi üsullarıdır. Şifahi nəzarətin əsasını şagirdin tək cavab və ya sual-cavab formasındakı söhbəti təşkil edir. Şifahi nəzarət cari nəzarət kimi hər dərsdə fərdi, frontal və qarışıq formalarda keçirilir. Dərsdə və müəllim danışığında bu, soruşma adlanır. Təcrübəli müəllimlər şifahi nəzarətdə didaktik kartoçkalardan, oyunlardan, texniki vasitələrdən də istifadə edirlər.

Zaçot və imtahan müəyyən dövrdə əldə edilmiş biliklərin ən fəal və ətraflı şifahi yoxlama formalarıdır. Bundan başqa, imtahan təkcə bilet yolu ilə deyil, şagirdin istəyi ilə referat yazmaq və onu müdafiə etmək, habelə bütün kurs üzrə aparılan söhbət formasında da keçirilir. Doğrudur, nəzarətin imtahan formasının bir sıra nöqsan və çatışmazlıqları olsa da, o, biliklərin, bacarıqların, təfəkkürün inkişafını, baxışların formalaşdırılması, münasibətləri, qiymətləndirməni yoxlamağın səmərəli forması kimi qalmaqdadır.

Yazılı nəzarət. Bu nəzarət yoxlama işi, ifadə, inşa, imla, test, referat formalarında aparılır. Yazılı nəzarət mənimsəmənin dərindən və hərtərəfli yoxlanmasını təmin edir. Yazılı işdə şagirddən biliyini, konkret vəzifə və problemləri həll etmək üçün onu tətbiq etmək bacarığı göstərməsi tələb edilir. Habelə o, şagirdin yazmaq, öz fikrini yazılı olaraq ardıcıl, məntiqi izah etmək, öz müstəqil fikrini bildirmək bacarıqlarını aşkar edir.

Praktik nəzarət üsulu. Bu üsul təlimin nəticələrini yoxlamağın səmərəli, lakin az tətbiq olunan formasıdır. Burada hər şeydən əvvəl şagirdlər tərəfindən laborator təcrübələrin aparılması, aparatların qurulması və s. nəzərdə tutulur. Bu üsuldan ən çox peşə məktəblərində, habelə tez-tez texniki, tibbi, pedaqoji təhsildə istifadə olunur.

Nəzarətin müşahidə forması. Müəllim tərəfindən biliklərə cari nəzarətin müşahidə formalarından istifadə olunur. Bu yolla o, şagird haqqında tam məlumat əldə edir. Şagirdin bilik səviyyəsi, fənn üzrə bacarığı, dərsə münasibəti, dərketmə fəallığının dərəcəsi, işgüzarlığı, müxtəlif vəzifələri müstəqil həll etmək bacarığı barədə geniş məlumatlar toplayır. Bu nəticələr rəsmi sənədlərdə qeyd olunur, ancaq yekun qiymətləndirmədə müəllim tərəfindən nəzərə alınır.

Didaktik testlər üsulu. Bu üsul digərləri ilə müqayisədə təlimin nəticələrini yoxlamağın yeni üsuludur. Didaktik test müəyyən material üzrə standartlaşdırılmış biliklərin şagirdlər tərəfindən mənimsənilməsini müəyyən edən topludur. İlk testlərin nümunələri XIX əsrin sonlarında meydana çıxmışdı. Onlar XX əsrin 20-ci illərində ingilisdilli ölkələrdə geniş yayılmışdı. İndi Azərbaycanda da onlardan geniş istifadə olunur.

Ədəbiyyat

1. . Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov
3. 3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev
4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 15. Təlimin təşkili formalarının tarixi

1. Təşkil formalarının tarixi
2. Dərs təlimin təşkilinin əsas forması kimi
3. Təlim təşkilinin digər formaları

Təlimin səmərəliliyi onun necə, hansı formada, harada və nə kimi tərkiblə təşkil olunmasından çox asılıdır. Təşkilat formaları təlimin komponentləri olmaqla onun həyata keçirilməsinin müxtəlifliyini əks etdirir. Bu prosesdə müəllim və şagirdlərin birgə fəaliyyəti mühüm rol oynayır. Təlimin müxtəlif formalarda təşkili müəllimin də fəaliyyətini rəngarəngləşdirir. Təlim tarixən fərdi, qrup, kollektiv, qarşılıqlı, standart formalarda təşkil olunmuşdur. Onların hamısında təlimin məqsədi, məzmunu və üsulları vəhdətdə olur. Məşğələlərin xarakterindən asılı olaraq müəllim bilik mənbəyi, nəzarətçi, məsləhətçi, təşkilatçı kimi çıxış edir.

Müxtəlif tarixi dövrlərdə məktəbin inkişafı ilə bağlı təlimin təşkilat formaları dəyişmişdir. Bu dövrlərin hər birində bu və ya digər təşkilat formalarına; fərdi-qrup formasına, sinif - dərs, qarşılıqlı bir-birinə təlim vermək, qabiliyyətlərinə görə diferensiallaşdırılmış təlimə, laborator-briqada formalarına üstünlük verilmişdir.

Orta əsrlərdə (XIII-XVI) məktəblərdə təlim fərdi məşğələ kimi təşkil olunurdu. Təlimin başlanması vaxtı sabit olmadığından hər kəs uşağını ilindən, ayından asılı olmayaraq istədiyi vaxt məktəbə gətirirdi. Sinif otaqlarında müxtəlif yaşdan olan, o cümlədən ilin müxtəlif vaxtlarında məktəbə gətirilən uşaqlar otururdular. Müəllim (*keşiş, molla*) belə şəraitdə sinifdə olan şagirdlərin hər birinə bilik səviyyəsinə uyğun tapşırıq verib, onu fərdi şəkildə izah edirdi. Şagirdlər fərdi şəkildə sinifdə tapşırığı öyrənirdi. Sonra müəllim verdiyi tapşırığın icrasını şagirddən alırdı. Müəllim vəzifəsini şagirdlərə tapşırıq vermək və onu yoxlamaqla

yerinə yetirmiş olurdu. Belə təlim forması səmərəli nəticə verə bilməzdi. Müəllimin rəhbərliyi həyata keçmir, təlim mərhələləri və vəzifələrinə əməl olunmur, bir sözlə, hərc-mərclik hökm sürürdü. Təlimin bu forması Azərbaycanda sosialist inqilabına qədər mollaxanalarda da tətbiq olu Sinif-dərs sistemi XVIII əsrin axırları – XIX əsrin əvvəllərində dəyişikliyə uğradı. Komenskinin ideyalarına rəğbət bəsləyən və ona əsaslanan Bell və Lankaster bir-birindən xəbərsiz qarşılıqlı təlim formasını irəli sürmüşdülər. Əslində bu təlim forması, o vaxtkı İngiltərədə müəllimlərin çox az olmasından irəli gəlmişdi. Andrey Bell Hindistana Mədrəs şəhərində ingilis əsgərlərinin oğlanları üçün açılmış məktəbə nəzarətçi göndərilmişdi. Burada ona dörd müəllim kömək etsə də, əslində o, müəllimlərin köməyindən razı deyildi. Bir gün o, dəniz sahilində dolaşarkən onun diqqətini bir hadisə cəlb edir. Böyük yaşlı uşaqlar balacalara çox həvəslə savad öyrədirdilər. Balacalar isə böyükləri çox maraq və heyranlıqla dinləyirdilər. Bu Andrey Bellin xoşuna gəldi və öz məktəbində həmin formanı tətbiq etdi. O, şagirdləri kiçik qruplara böldü və hər qrupda dərsi yaxşı bilən bir şagirdi rəhbər seçdi. Qrupun rəhbərini monitor (*qrup nümayəndəsi*) adlandırdı. Andrey Bell 1796-cı ildə İngiltərəyə qayıdır. Ona özünün təlim forması əsasında məktəb açmağı təklif edirlər. O, bu təklifi qəbul edir və hətta öz ideyalarını əks etdirən əsərlərini də nəşr etdirə bilir.

Təlimin təşkili formalarının xüsusiyyətləri, onlara verilən tərifl ər və bu formaların sayı məsələsi mövcud pedaqoji ədəbiyyatlarda müxtəlif şəkildə şərh olunmuşdur.

H.V.Savinin fikrinə görə, təlimin təşkili forması şagirdlərin fəaliyyətinin bu və ya digər şəkildə təşkili deməkdir. Bəzi pedaqoqlar (*A.S.Lında*) təlimin təşkili formalarının əlamətlərini aydınlaşdırmışlar. A.S.Lında bu əlamətləri aşağıdakı kimi şərh etmişdir:

1) müəllim və şagird arasında əlaqənin xarakteri;
2) şagirdlərin qruplaşdırılması, onların fəaliyyətinin xarakteristikası;
3) məşğələnin keçirildiyi yer;
4) məşğələnin keçirildiyi vaxt.

T.A.İlinanın redaktorluğu ilə 1984-cü ildə nəşr olunan pedaqogika kitabında göstərilir ki, təlimin təşkili forması, müəyyən olunmuş rejim və qayda üzrə müəllim və şagirdlərin fəaliyyətinin təşkili deməkdir.

Təlimin təşkili forması dedikdə şagirdlər arasında əlaqənin xarakteri və məşğələnin keçirilmə yeri və müddəti başa düşülür. Təlimin təşkili formalarının aşağıdakı əlaməti vardır:

1) şagirdlərin qruplaşdırılması;
2) müəllim və şagird əlaqəsinin xarakteri;
3) rejim.

Təlimin təşkili formalarının təsnifində də fikir birliyi görünmür. Pedaqoqlardan bir qrupu praktik məşğələni təlimin üsulu, digəri təlimin təşkili forması, bəziləri isə mühaziräni həm təlimin üsulu, həm də təşkili forması kimi göstərirlər. Dərnəkləri, olimpiadaları təlimin təşkili forması adlandıranlar da vardır. Təlimin əsas təşkili forması dərsdir. Məktəblər yarandığı ilk vaxtlardan başlayaraq dərs həmişə pedaqoqların diqqətini cəlb etmiş, lakin bu günə qədər də ona sabit tərif verilməmişdir. Dərsə verilən təriflər bu və ya digər dərəcədə bir-birindən fərqlənmişlər. İki cilddən ibarət «Pedaqoji lüğət»də (*Moskva,* 1960) göstərilir: «Dərs məktəbdə təlim işinin elə formasıdır ki, burada müəllim tədris proqramının tələbi ilə müəyyən edilən didaktik vəzifələrə nail olmaq üçün müxtəlif təlim üsullarından istifadə edərək sabit cədvəl üzrə və dəyişməz şagird tərkibi ilə – siniflə dəqiq müəyyənləşdirilmiş vaxt

ərzində məşğul olur». Dörd cilddən ibarət «Pedaqoji ensiklopediya»dakı (*Moskva* 1968) tərif daha yığcam verilmişdir: «Dərs məktəbdə təlimin əsas təşkili formasıdır. Dərs təlimin sinif - dərs sistemi vahididir».

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov
3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev
4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə